ŞAHBAZ MURADOV, ÇİNGİZ BAXIŞ

# AZƏRBAYCAN RESPUBLİKASINDA ETNO-DEMOQRAFİK PROSESLƏR:
## tarixi dəyişikliklər və reallıqlar

BAKI - 2013

Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.

**Redaktoru:** i.e.n. **A.Q.GÖZƏLOVA**

**Rəyçilər:** t.e.d. **A.H.BALAYEV**
i.e.n. **R.C.ƏFƏNDİYEV**

Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 səh.

*Kitabda XIX yüzillikdən başlamış indiyə qədərki bir dövrdə Azərbaycan Respublikası ərazisində əhalinin milli tərkibinin formalaşması prosesi araşdırılmışdır. Bu prosesin etnik və demoqrafik xüsusiyyətlərinin, baş vermə səbəblərinin dolğun şəkildə üzə çıxarılması və dəyərləndirilməsi məqsədilə Azərbaycanda baş verən taleyüklü tarixi-siyasi hadisələrin və sosial-iqtisadi dəyişikliklərin təsirlərinin öyrənilməsinə geniş yer verilmişdir. Əsərdə indiyə qədər Azərbaycanda keçirilən bütün əhali sayımlarının və bir sıra başqa mənbələrin etno-statistik məlumatlarından geniş istifadə edilmişdir.*

*Kitab təkcə mütəxəssislər üçün deyil (demoqraflar, politoloqlar, iqtisadçılar, etnoqraflar, sosioloqlar, tarixçilər), həm də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

## MÜNDƏRİCAT:

**Giriş...........................................................................................4**

**1. Azərbaycan Respublikası əhalisinin sayının dinamikası və ona təsir edən amillər........................................8**

**2. Əhalinin etnik tərkibinin formalaşması: xüsusiyyətləri, dəyişməsi meylləri və reallıqlar.............................47**

## Giriş

Dünyanın demoqrafik problemlərinin araşdırılması get-gedə daha böyük önəm kəsb etməkdədir. Belə ki, iqtisadi, ekoloji və xüsusilə də siyasi sahədə baş verən bir sıra qlobal problemlərin yaranmasında demoqrafik faktorun böyük rolu olduğu üzə çıxır. Təkcə onu demək kifayətdir ki, qüdrətli iqtisadiyyatı ilə fərqlənən və buna görə də siyasi nüfuzuna görə dünyanın aparıcı dövlətlərinə çevrilən ölkələrin belə bir səviyyəyə yüksəlməsində demoqrafik faktor başlıca rol oynamışdır. Daha doğrusu, əhalisinin sayına görə dünyanın iri dövlətləri öz iqtisadi və hərbi potensiallarını artırmaq baxımından kiçik dövlətlərlə müqayisədə olduqca böyük imkanlara malik olmuşlar. Bunun bariz örnəyi, əhalisinin sayına görə dünyanın iki ən nəhəng dövləti olan Çin və Hindistandır: hazırda ümummilli daxili məhsulun həcminə görə Cin ikinci, Hindistan isə onuncu ölkə olmuşdur[1]. Halbuki bu nəhənglər adam başına düşən milli gəlirin səviyyəsinə görə dünyanın əksər ölkələrindən geri qalırlar. Digər tərəfdən ölkələrin sosial-iqtisadi durumu və inkişaf perspektivləri demoqrafik proseslərin gedişatından və xarakterindən asılı olaraq böyük dəyişikliklərə uğraya bilər. Hazırda məlum olduğu kimi bəzi ölkələr əhalinin təbii azalması problemi ilə üz-üzə qaldığı halda,

---

[1] http://en.wikipedia.org/wiki/List_of_countries_by_GDP_(nominal)

Afrika ölkələrinin əksəriyyəti əhalinin yüksək təbii artımı üzündən səfalətə uğramaqdadırlar.

Təəssüflə qeyd etmək lazımdır ki, son yüzilliklərdə baş verən lokal münaqişələrin, hətta dünya müharibələrinə gətirib çıxaran siyasi qarşıdurmaların yaranmasında da demoqrafik faktorun olduqca böyük rolu olmuşdur. Tarixi faktlar göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlər arasında məhz, böyük demoqrafik potensiala malik olan dövlətlər və ya millətlər başqa ölkələrə qarşı iddialı və aqressiv olmuş, hətta dünya ağalığına cəhd etmişlər (İkinci Dünya Müharibəsi ərəfəsində dünya əhalisinin hər 25 nəfərindən biri alman idi). Xüsusilə qeyd etmək lazımdır ki, milli dirçəliş və azadlıq əsri kimi qəbul edilmiş 20-ci yüzillikdə və hal-hazırki dövrdə gedən demoqrafik proseslərin etnik aspektlərinin öyrənilməsi daha böyük önəm daşıyır. Daha doğrusu, hal-hazırda etno-demoqrafik proseslərin öyrənilməsi olduqca böyük əhəmiyyət kəsb edir. Belə ki, dünyada baş verən lokal münaqişələrin böyük əksəriyyətinin təməlində məhz, etnik faktorun olduğu görünür. Əsasən etnodemoqrafik proseslərin intensivliyi və xarakterindən asılı olaraq etnik münaqişələrin, o cümlədən etnik separatizmin vüsət almasına əlverişli şərait yaranır. Məsələn, hər hansı bir bölgədə etnodemoqrafik durumun bu və ya digər millətin xeyrinə dəyişməsi mövcud sosial-siyasi durumun etnik təməllərini sarsıdaraq millətlərarası münasibətlərin pozulmasına və sonda milli düşmənçiliyə yol aça

bilər. Ən başlıcası isə odur ki, bölgənin etnodemoqrafik durumu bir çox hallarda hakim siyasi qüvvənin strateji maraqlarına uyğun olaraq süni yollarla dəyişdirilir. Başqa sözlə bölgənin əhalisinə qarşı bəlli bir etnodemoqrafik siyasət aparılır. Bəzən bu siyasət deportasiya və soyqırım kimi anti-humanist, zoraki üsullarla aparılmış və birdən-birə əhalinin etnik siması kökündən dəyişdirilmişdir. Ancaq İkinci Dünya Müharibəsindən sonra dünyada gedən siyasi proseslərin nəticəsi olaraq belə üsullarin tədbiqi kəskin şəkildə azalmış və yerini üstüörtülü, maskalanmış üsullara vermişdir.

Azərbaycan 200 yüz ilə yaxındır ki, məhz, bu tip etnodemoqrafik siyasətlərin hədəfindədir. Bunun nəticəsi olaraq Azərbaycan bir çox tarixi-etnik ərazilərini deyure itirmiş və 20 ildir ki, Qarabağın ermənilər tərəfindən işğalına məruz qalmışdır. Elə buna görə də Azərbaycanda etnodemoqrafik proseslərin öyrənilməsi olduqca aktualdır. Bizim fikrimizcə, əsrlər boyu Azərbaycanın yerli əhalisinə qarşı aparılan qərəzli etnodemoqrafik siyasətin iç üzü açılmadan, incəlikləri üzə çıxarılmadan Qarabağ probleminin yaranması köklərinin və səbəblərinin tam, dolğun şəkildə ortalığa çıxarılması mümkün deyil. Unutmaq olmaz ki, Ermənistan siyasilərinin və erməni lobbisinin Azərbaycana qarşı apardıqları informasiya müharibəsində istifadə etdikləri ən başlıca arqumentlərdən biri etnodemoqrafik faktordur. Bir sözlə, erməni saxtakarlıqlarının ifşa edilməsi və Azərbay-

canın diplomatiyasında gərəkli uğurların əldə edilməsi üçün Azərbaycanda etnodemoqrafik proseslərin daha dərindən öyrənilməsinə böyük ehtiyac vardır. Eyni zamanda Azərbaycanda milli azlıqların və etnik qrupların sosial-iqtisadi, milli-mədəni inkişafını təmin etmək, millətlərarası münasibətləri tənzimləmək və onların bir-biri ilə harmonik bağlılığına nail olmaq üçün etnodemoqrafik tədqiqatların aparılması olduqca vacibdir.

Bütün yuxarıda deyilənləri nəzərə alaraq, biz təqdim etdiyimiz bu əsərdə 19-cu yüzilliyin sonlarından başlamış bugünə qədərki müddəti əhatə edən dövrdə Azərbaycan Respublikasının etnodemoqrafik inkişafında baş verən önəmli dəyişiklikləri və hadisələri sosial-iqtisadi və etno-siyasi baxımdan araşdıraraq baş vermə səbəblərini və onlara təsir edən amilləri üzə çıxarmağı qarşımıza məqsəd qoymuşuq.

## Azərbaycan Respublikası əhalisinin sayının dinamikası və ona təsir edən amillər

2012-ci ilin yanvar ayına olan rəsmi məlumata görə, Azərbaycan əhalisinin sayı 9.235 min nəfər olmuşdur. 2009-cu ilin aprelin 13-də keçirilmiş əhali sayımının rəsmi məlumatlarına görə isə Azərbaycan Respublikasında 8.922,3 min nəfər əhalinin yaşadığı təsbit edilmişdir. Hal-hazırda əhalisinin sayına görə Azərbaycan Respublikası Avropanın 19-cu ölkəsi olmuşdur. 2009-cu ildə 1989-cu ilə nisbətən Azərbaycanın əhalisi 1.901,1 min nəfər və ya 27,1% artmışdır. Orta illik artım 95,1 min nəfər və ya 1,2% təşkil etmişdir. Azərbaycan Respublikasının demoqrafik inkişafı son 110 ildən artıq bir dövrdə gedən sosial-iqtisadi və siyasi proseslərin xarakterindən asılı olaraq güclü dəyişikliklərə məruz qalmışdır. Bu dövrdə Azərbaycanın etno-demoqrafik durumu da intensiv olaraq böyük dəyişikliklərə uğramışdır.

Azərbaycanda əhalinin sayı və tərkibinin müəyyən edilməsinə qədim zamanlardan təşəbbüs göstərilmiş və bəzən onun qeydiyyata (uçota) alınmasına da cəhd edilmişdir. Əhalinin qeydiyyata alınması 18-ci əsrdə daha ardıcıl və geniş miqyas almağa başladı. Bu dövrdə dünyanın inkişaf etmiş bir sıra ölkələrində əhalinin demoqrafik baxımdan öyrənilməsinə maraq daha da gücləndi. Nəhayət, 1790-cı ildə ABŞ-da, 1800-ci ildə İsveç və Finlandiyada, 1801-ci ildə İngiltərə, Danimarka, Norveç və

Fransada indiki standartlara uyğun gələn ilk **əhali sayımları** (əhalinin siyahıya alınması; bax: ***Qeyd***) keçirildi[2]. Bu da öz növbəsində demoqrafiyanın daha mükəmməl bir elm kimi formalaşmasına və inkişafına təkan verdi. Belə ki, demoqrafik araşdırmaların aparılması üçün əhali haqqında vacib olan fundamental statistik məlumatlar, məhz əhali sayımları nəticəsində əldə edilmiş məlumatlardan ibarətdir.

---

[2]Демографический энциклопедический словарь, Москва, «Советская энциклоредия», 1985, ст.321.

***Qeyd:*** Əsərdə "əhali sayımı" termini ədəbi dilimizdə geniş yer almış "əhalinin siyahıya alınması" termininin əvəzinə işlənilmişdir. Belə ki, "əhalinin siyahıya alınması" termini rus dilində işlədilən "perepis naseleniya" termininin uğursuz hərfi tərcüməsi nəticəsində əmələ gəlmişdir. Rus dilindəki "perepis" kəlməsi yenidən yazmaq mənasını daşıyan "perepisat" felindən yaranmışdır. Rusiyada bir neçə yüz il öncə formalaşmış bu termin o dövrdə vergi nəzarəti məqsədilə əhalinin uçota alınması mənasını daşıyirdı. O dövrdən miras qalmış "perepis naseleniya" termini müasir rus dilində demoqrafik bir termin kimi qəbul edilmiş və heç də əhalinin siyahıya alınması mənasını daşımır. Bilindiyi kimi "əhalinin siyahıya alınması" anonim aparılır və son məqsəd bəlli bir təqvim günündə əhalinin sayı haqqında ayrı-ayrı aspektlərdə (məsələn, yaşayış məntəqələrinə, yaşına və cinsinə, milliyətinə, ana dilinə, təhsilinə və s. görə) məlumat toplamaqdır. Toplanılan məlumatlar statistik rəqəmlər halına gətirildikdən sonra "siyahıya alma" vərəqələri ləğv edilir. Onu da xatırladaq ki, Avropa dillərinin əksəriyyətində hərfi tərcüməsi, məhz əhalinin sayılması mənasını daşıyan termındən istifadə edilir. Bizim fikrimizcə "əhalinin sayımı" daha yığcam və anlamlı olmaqla ədəbi dılımızdə əhalinin doğumu, ölümü, artımı kimi demoqrafik terminlərlə yanaşı işlədilməsi daha məqsədəuyğundur.

Azərbaycan Respublikası ərazisində ilk əhali sayımı 1897-ci ildə keçirilmişdir. Daha doğrusu 1897-ci ildə Rusiya imperiyası hökümətinin keçirmiş olduğu ilk Ümumrusiya əhali sayımı Azərbaycan Respublikası ərazisini də əhatə edirdi. Belə ki, 19-cu əsrin əvvəllərində Şimali Azərbaycan, yəni hazırki Azərbaycan Respublikasının ərazisi Rusiyanın işğalına məruz qalmış və onun inzibati ərazi vahidlərinə çevrilmişdi. Azərbaycanın tarixində əhali haqqında ilk dolğun demoqrafik qaynaq, məhz 1897-ci il əhali sayımı materiallarından ibarətdir. Ona görə də biz bu əsərdə Azərbaycanın demoqrafik inkişafının 1897-ci ili başlanğıc nöqtəsi kimi qəbul edərək öyrənilməsini daha məqsədəuyğun hesab etmişik. Ancaq qısa da olsa 1897-ci ilə qədərki dövrdə Azərbaycanın (Azərbaycan Respublikasının indiki ərazisi) əhalisinin sayında baş verən dəyişiklikləri gözdən keçirək.

Şimali Azərbaycanın ərazisi 1828-ci ildə Qacarlar dövləti ilə Rusiya arasında bağlanan Türkmənçay müqaviləsi əsasında tamamilə Rusiya imperiyasının hakimiyyəti altına keçdi. 1801-ci ildən başlayaraq 1828-ci ilə qədər faciələrlə davam edən Rusiyanın Azərbaycana qarşı apardığı işğalçı müharibələr şübhəsiz ki, Azərbaycanın yerli əhalisinin böyük itkilərə uğramasına səbəb olmuşdu. Digər tərəfdən müqavilə bağlanan andan Şimali Azərbaycan ərazisi etnik və dini mənsubiyyət əsasında iri miqyaslı əhali yerdəyişmələrinə məruz qalmışdır. Əlbəttə ki, bütün bunlar

Azərbaycanda əhalinin sayının dinamikasına güclü təsir göstərmişdir. Ancaq təəssüf ki, həmin illərə aid əhalinin sayı haqqında rəsmi statistik məlumatlar olmadığına görə əhalinin sayının dinamikası haqqında dolğun fikir söyləmək mümkün deyildir. Sovet tarixi mənbələrinə görə Azərbaycanın əhalisinin sayı haqqında ilk rəsmi statistik məlumat 1863-cü ilə aiddir. Belə ki, 1863-cü il yanvarın biri üçün verilən məlumata görə Azərbaycanın əhalisi 1.190 min nəfər olmuşdur. 1886-cı ilin rəsmi statistikasına görə isə Azərbaycanda artıq 1.600 min nəfər əhalinin yaşadığı təsbit edilmişdir[3]. Nəhayət 11 il sonra fevralın 9-da (o zamanki təqvimə görə yanvarın 28-də) keçirilən əhali sayımına görə Azərbaycanda 1.806,7 min nəfər əhali yaşamışdır. Bu rəqəmlər əsasında 1863-1897-ci illəri əhatə edən dövr ərzində Azərbaycan əhalisinin sayının dinamikasına dair apardığımız araşdırmalar göstərir ki, 1863-1886-cı illərdə Azərbaycanda əhalinin sayı daha yüksək templərlə artmışdır. Belə ki, bu 23 il ərzində əhalinin sayının orta illik artımı 1,52% təşkil etmişdir. Halbuki sonraki 11 ili əhatə edən 1886-1897-ci illərdə orta illik artım tempi 1,12% olmuşdur. Bizcə bu fərq heç də təbii artımdakı fərqlərlə deyil, miqrasiya proseslərindəki fərqlərlə izah edilə bilər. Belə ki, məhz 1863-1886-cı illəri əhatə edən dövrdə Rusiya və Osmanlı dövləti arasında

---

[3] Демографический энциклопедический словарь, Москва, «Советская энциклоредия», 1985, ст.12.

sonuncunun ərazi itkiləri ilə sonlanan bir neçə dəfə müharibə olmuş və hər dəfə bu müharibələrdən sonra cənubi Qafqaza, o cümlədən Azərbaycana Osmanlı dövlətinin torpaqlarından erməni əhalisi köçürülmüşdür.

1897-ci ildən sonraki 114 ili əhatə edən dövrdə Azərbaycan Respublikasının əhalisinin sayı bu dövrdə gedən tarixi, sosial-iqtisadi və siyasi proseslərin gedişatından və xarakterindən asılı olaraq bəzi hallarda kəskin şəkildə azalmış, bəzi dövrlərdə sürətlə artmış, bir müddət də stabil artım dinamikasına malik olmuşdur. Ona görə də Azərbaycanda əhalinin sayının dinamikasının araşdırılması son 114 ildə baş verən önəmli iqtisadi və siyasi hadisələrə uyğun şəkildə dövrlərə bölünərək aparılması daha məqsədəuyğundur.

**1897-1914-cü illər** arasındakı dövr bizim müəyyən etdiyimiz ilk dövrdür. Bu dövr ilk əhali sayımı aparılan tarixdən Birinci Dünya Müharibəsinin başlanmasına qədərki dövr kimi əlamətdardır. Bu dövrdə əhalinin sayı 29,5% və ya 532,5 min nəfər artaraq 2.339,2 min nəfərə çatmışdır (bax: cədvəl 1). Orta illik artım 1,53% təşkil etmişdir ki, bu da həmin dövrdə Rusiya imperiyası üzrə analoji göstəricidən azca aşağı idi. Ancaq Rusiyada bu artım demək olar ki, yalnız təbii artımın payına düşürdüsə, Azərbaycanda əhali artımının 45 faizə yaxını miqrasiyanın

*Cədvəl 1.*

**Azərbaycan Respublikası əhalisinin sayının dinamikası (1897-1970-ci illər)[4]**

| illər | əhalinin sayı (min nəfərlə) | | | bütün əhaliyə nisbətən %-lə | |
|---|---|---|---|---|---|
| | bütün | şəhər | kənd | şəhər | kənd |
| 1897 | 1.806,7 | 305,1 | 1.501,6 | 16,9 | 83,1 |
| 1913 | 2.339,2 | 555,9 | 1.783,3 | 23,8 | 76,2 |
| 1917 | 2.353,7 | 560,2 | 1.793,5 | 23,8 | 76,2 |
| 1920 | 1.952,2 | 405,8 | 1.546,4 | 20,8 | 79,2 |
| 1922 | 1.863,0 | 486,0 | 1.377,0 | 26,1 | 73,9 |
| 1926 | 2.313,7 | 649,5 | 1.664,2 | 28,1 | 71,9 |
| 1939 | 3.205,2 | 1.156,8 | 2.048,4 | 36,1 | 63,9 |
| 1940 | 3.274,0 | 1.212,0 | 2.062,0 | 37,0 | 63,0 |
| 1945 | 2.705,6 | 1.118,5 | 1.587,1 | 41,3 | 58,7 |
| 1950 | 2.858,9 | 1.252,3 | 1.606,6 | 43,8 | 56,2 |
| 1954 | 3.192,0 | 1.537,0 | 1.655,0 | 48,2 | 51,8 |
| 1955 | 3.277,2 | 1.584,6 | 1.692,6 | 48,4 | 51,6 |
| 1959 | 3.697,7 | 1.767,3 | 1.930,4 | 47,8 | 52,2 |
| 1960 | 3.815,7 | 1.835,2 | 1.980,5 | 48,1 | 51,9 |
| 1965 | 4.509,5 | 2.238,8 | 2.270,7 | 49,6 | 50,4 |
| 1970 | 5.117,1 | 2.564,6 | 2.552,5 | 50,1 | 49,9 |

[5]Azərbaycanın əhalisi 2006, Bakı, "Səda", 2006, s.19; Население СССР 1987 (статистический сборник), Москва, «Финансы и статистика», 1988, s.11; 1897,1926, 1939, 1959, 1970-ci illərin məlumatları əhali sayımları üzrə; 1913, 1917, 1920-ci illərin məlumatları ilin axırına, qalan illərin məlumatları isə ilin əvvəlinə göstərilmişdir.

payına düşürdü[5]. Burada əhalinin miqrasiya hesabına belə yüksək templərlə artımı o dövrdə çar Rusiyasının yeritdiyi köçürmə siyasəti və Azərbaycanın neft mədənlərinin intensiv sürətdə istismar edilməsi ilə bağlı idi. Neft sənayesində və onunla bağlı sahələrdə çoxlu iş qüvvəsinə olan tələbat başlıca olaraq Rusiyanın mərkəzi quberniyalarında, eləcə də Şimali Qafqaz, Dağıstan və Cənubi Qafqazın başqa rayonlarında yaşayan kəndlilərin buraya miqrasiyası hesabına ödənilirdi. Təkcə 1908-1910-cu illər ərzində Rusiyadan Azərbaycana 3 min kəndli ailəsi köçürülmüşdür. Bunun nəticəsində Azərbaycanın müsbət miqrasiya saldosu (qalığı) 1,6 dəfədən çox artaraq 1886-1897-ci illərdəki 133,4 min nəfərdən 1897-1913-cü illərdə 219,8 min nəfərə çatmışdır (bax: cədvəl 2).

Qeyd edək ki, Bakıya miqrasiya edənlərin böyük əksəriyyətini kişilər təşkil edirdi. Belə ki, ailəsi ilə birlikdə iş axtarmaq çətin olduğundan miqrantların çoxu öz ailələrini evdə qoyub gəlirdilər. Tarixi mənbələrə əsasən Bakının neft sənayesi müəssisələrində işləyən rus mütəxəssisləri, fəhlə və qulluqçuları əksər hallarda öz ailələri ilə birlikdə, ermənilərin çoxu subay və təklikdə, müsəlmanların isə hamısı öz ailələrini evdə qoyub gəlir və təklikdə yaşayırdılar. 1897-ci il əhali sayımı məlumatlarına görə Bakı neftçıxarma müəssisələrində çalışan fəhlələrin 82,5%-i

[5] M.M.Allahverdiyev. Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalının bəzi məsələləri, Bakı, “Elm”, 1966, səh. 46.

*Cədvəl 2.*

**1920-ci ilə qədərki dövrdə Azərbaycanda əhalinin mexaniki hərəkəti (min nəfərlə)[6]**

| illər | artım (+) və ya azalma (-) | |
|---|---|---|
| | cəmi | hər il orta hesabla |
| 1886-1897 | +133,4 | +12,2 |
| 1897-1913 | +219,8 | +13,8 |
| 1913-1920 | -481,0 | -68,7 |
| 1886-1920 | -127,8 | -3,7 |

subay və yaxud öz ailələrindən kənarda yaşayanlardan ibarət olmuşdur. Bunu belə bir fakt da sübut edir ki, 20-ci əsrin əvvəllərinə yaxın Bakının mədən rayonları əhalisinin 75%-ni kişilər, cəmi 25%-ni isə qadınlar təşkil edirdi.[7] Bu da öz növbəsində bütövlükdə əhalinin doğum əmsalının aşağı düşməsinə, ölüm əmsalının yüksəlməsinə və uyğun olaraq təbii artım templərinin xeyli aşağı düşməsinə təsir göstərmişdir.

Bütün bunlarla yanaşı 1897-1914-cü illəri əhatə edən bu dövr, 1905-1907-ci illər istisna olmaqla bütövlükdə çar

[6] Материалы по экономической истории Азербайджана (к V международному конгрессу экономической истории), Баку, «Элм», 1970, səh.19; M.M.Allahverdiyev. Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalının bəzi məsələləri, Bakı, “Elm”, 1966, səh. 76.

[7] М.В.Стригунов, Из истории формирования Бакинского пролетариата, Баку, 1960, с.137.

Rusiyası dönəmində Azərbaycan üçün hər mənada, o cümlədən demoqrafik baxımdan ən uğurlu dövr sayıla bilər. Belə ki, bu dövrdə Bakı bütün dünyada neft sənayesinin mərkəzinə çevrilmiş və bunun sayəsində Azərbaycanda kapitalizm sürətlə inkişaf etmiş, Azərbaycanın milli mənafeylərinə xidmət edən milli burjuaziya və ziyalı sinfi formalaşmış, əhalinin rifah səviyyəsi xeyli yüksəlmişdi. Eyni zamanda Azərbaycan xalqının yaddaşına **“Erməni – müsürman davası”** kimi həkk olunmuş 1905-1907-ci illərdə erməni quldur dəstələrinin Azərbaycan xalqına qarşı törətdiyi qırğınlar da bu dövrdə baş vermişdi. Çar Rusiyasının hakim dairələrinin fitvası və hərtərəfli dəstəyi ilə formalaşmış erməni hərbi bandaları İrəvanda, Zəngəzurda, Göyçədə, Naxçıvanda, Qarabağda, Gəncədə, Şirvanda, Bakıda və başqa ərazilərdə dinc azərbaycanlılara və digər müsəlman təriqətli xalqlara (türklər, kürdlər, tatlar, ləzgilər və s.) amansızcasına divan tutmuş, şəhər və kəndlər yandırılmış, uşaqlar, qadınlar, qocalar tarixdə görülməyən qəddarlıq və vəhşiliklə öldürülmüşlər. Şübhəsiz ki, bu hadisələr Azərbaycanın inkişafına tormozlayıcı təsir göstərmiş və onun demoqrafik inkişafına ciddi zərbə vurmuşdur. Bizcə bu hadisələr həmin dövrdə Azərbaycan xalqının sosial-iqtisadi və milli-mədəni səviyyəsinin sıçrayışlı inkişafından narahat olan Rus imperiyalizminin Azərbaycana qarşı yönəltdiyi anti-milli siyasətin nəticəsi kimi dəyərləndirilməlidir.

**<u>1914-1922-ci illər.</u>** Növbəti dövr kimi təsbit etdiyimiz bu zaman kəsiyində Azərbaycan əhalisinin sayının dinamikası köklü dəyişikliklərə, daha doğrusu kəskin azalmaya məruz qalmışdır. Bu dövr 1914-1918-ci illərdə baş verən Birinci Dünya Müharibəsinin və onun törətdiyi böyük siyasi çalxantıların yer aldığı, o cümlədən 1917-ci il bolşevik inqilabının baş verdiyi bir dövrü əhatə edir. Bu qlobal hadisələr Azərbaycanın siyasi tarıxində və iqtisadi həyatında, xüsusilə də demoqrafik inkişafında dərin izlər buraxmışdır. Əvvəla Rusiya imperiyalist bir dövlət kimi müharibənin aktiv iştirakçısı olduğundan Azərbaycanın bütün iqtisadi potensialı və böyük ölçüdə əhali resursları hərbi ehtiyacların ödənilməsinə yönəldilmişdi. Nəticədə əhalinin rifah səviyyəsi kəskin şəkildə aşağı düşmüşdü ki, bu da öz növbəsində doğum səviyyəsinin aşağı düşməsinə, ölümün isə xeyli yüksəlməsinə səbəb olmuşdu. Bütün bunlara baxmayaraq, 1918-ci ilə qədər Azərbaycan əhalisinin sayında azalma müşahidə olunmamışdır. Hətta 1 saylı cədvəldən göründüyü kimi 1913-1917-ci illər ərzində əhalinin sayı azacıq da olsa artmışdır (14,5 min nəfər və ya 0,6%). Ancaq sonrakı 4 il ərzində (1918-1922-ci illər) Azərbaycan əhalisinin sayı ilk dəfə olaraq kəskin şəkildə azalmışdır. Belə ki, 1917-ci ilin sonu ilə müqayisədə 1922-ci ildə əhalinin sayı 490,7 min nəfər və ya 20,8% az olmuşdur. Başqa sözlə Azərbaycan bu kiçik 4 illik dövr ərzində əhalinin beşdə biri qədər itkiyə məruz qalmışdır.

Bunun başlıca səbəbi 1918-ci ildə qismən də 1919-cu ildə erməni millətçilərinin Azərbaycanda və Cənubi Qafqazın digər bölgələrində yerli müsəlman əhalisinə qarşı apardığı soyqırım siyasəti olmuşdur. Belə ki 1917-ci il bolşevik inqilabından sonra Rusiya vətəndaş müharibəsinə sürükləndi. Digər tərəfdən Rusiyanın bir çox bölgələrində, o cümlədən Cənubi Qafqazda Milli azadlıq hərəkatları vüsət aldı. Bu arada ideoloji və hərbi baxımdan yüksək səviyyədə təşkilatlanmış olan erməni millətçiləri mövcud siyasi durumu özləri üçün fürsət bilərək Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» ideyasını həyata keçirmək üçün hərəkətə keçdilər. Daha doğrusu Azərbaycan ərazisində ***«etnik təmizləmə»*** əməliyyatlarına başladılar. Bakı bölgəsində hakimiyyəti ələ keçirən bolşevik-daşnak qara-güruhu sayəsində erməni quldurları təkcə 1918-ci il mart ayının 3 günü ərzində Bakı şəhərində 30 min azərbaycanlını xüsusi qəddarlıqla öldürdülər. Bütövlükdə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda erməni-bolşevik silahlı dəstələri 50 min nəfərdən çox azərbaycanlını öldürmüş, on minlərlə insanı yerindən-yurdundan didərgin salmışlar. Belə ki, Bakı qırğınının ardınca Şamaxı qəzasının 58 kəndi dağılmış, 7 minədək adam, o cümlədən 1.653 qadın, 965 uşaq qılıncdan keçirilmiş və güllələnmişdir. Quba qəzasının 122 kəndi yerlə yeksan edilmişdir. Şərur-Dərələyəz qəzasında, Naxçıvan bölgəsində, Qarabağın dağlıq hissəsində,

Zəngəzur qəzasında yüzlərlə azərbaycanlı kəndi yandırılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında azərbaycanlılara aid olan 211 kənd, Qars vilayətində (1919-cu ildə Türkiyə ərazisinin tərkibinə qtılmışdır) 92 kənd yandırılmış və talan edilmişdir. Erməni terrorçu dəstələrinin törətdikləri vəhşiliklər, ***daşnak hakimiyyəti dövründə yeridilən «türksüz Ermənistan» siyasəti*** nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 5,3 dəfə azalaraq 1916-cı ildəki 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə düşmüşdür[8].

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi elan edildi və Gəncə şəhərində hökümət qurulduqdan sonra erməni təcavüzünə qarşı tədbirlər görüldü. Nəhayət, Azərbaycan Milli Ordusu və yardıma gəlmiş Türkiyə Ordu hissələri ilə birlikdə keçirilən hərbi əməliyyat nəticəsində sentyabrın 15-də Bakı şəhəri düşməndən azad edildi və bu bölgədə, eləcə də bir çox ərazilərdə erməni terrorizminə son qoyuldu. Ancaq Naxçıvanda, Göyçədə, Zəngəzurda və Qarabağda daşnak Ermənistanı ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında hərbi toqquşmalar Azərbaycanın Bolşevik Ordusu tərə-

[8] Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı. “Azərbaycan” qəzeti, 31 mart 2001-ci il, №71(2784); Ş.M.Muradov. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, “Elm”, 2004, s.72-73.

findən işğalına qədər davam etmişdir. Beləliklə, 1918-1920-ci illərdə Azərbaycanda və indiki Ermənistan ərazisində 100 minlərlə əhali erməni təcavüzünün qurbanı oldu. Bundan başqa daim ermənilərin hücumuna məruz qalan on minlərlə azərbaycanlı vətənini tərk etmək məcburiyyətində qalaraq Türkiyəyə və qismən də İrana köçdülər. Eyni zamanda Azərbaycandaki bu siyasi durumdan narahatlıq keçirən rus və digər əcnəbi əhali arasında Azərbaycanı tərk edib Rusiyaya və Avropaya miqrasiya edənlər də az deyildi.

1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyəti elan edildikdən sonraki ilk illərdə də Azərbaycan iri miqyaslı əhali itkilərinə məruz qalmışdır. Belə ki, Gəncədə, Qarabağda, Şəkidə və digər bölgələrdə işğalçı ordunun talanlarına və zorakılıqlarına dözməyən və Azərbaycan Xalq Cumhuriyyətini bərpa etmək arzusunda olan əhali arasında Sovet hakimiyyətinə qarşı kütləvi üsyanlar baş vermiş və üsyanlara qarşı yönəldilmiş Qızıl Ordu hissələri üsyançılara və dinc əhaliyə qarşı amansızcasına divan tutmuşlar. Nəticədə on minlərlə əhali qırılmış, bir o qədəri də təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə və qismən də Avropa ölkələrinə miqrasiya etmişlər.

Bütünlükdə 1920-1922-ci illər ərzində əhalinin sayı 89,2 min nəfər və ya 4,5% azalmışdır (bax: cədvəl 1). Ancaq onu da qeyd etmək lazımdır ki, bu bir il ərzində (1920-ci ilin sonu – 1922-ci ilin əvvəli) şəhər əhalisi 80,2

min nəfər və ya 19,8% artmışdır ki, bu da həmin dövrdə Qızıl Ordu əsgərlərinin, zabitlərinin və ailələrinin, eləcə də Sovet quruculuğu ilə bağlı olaraq Rusiyadan gələn miqrantların əsasən Bakı şəhərində məskən salması hesabına baş vermişdir. Kənd yerlərində isə əhali kəskin şəkildə azalaraq 1920-ci ilin sonundaki 1.546,4 min nəfərdən, 1922-ci ilin əvvəlində 1.377 min nəfərə düşmüşdür, yəni 169,6 min nəfər və ya 11% azalmışdır.

**1922-1941-ci illər.** Bu dövr SSRİ-nin təşkili və Azərbaycanın rəsmən müttəfiq respublikalardan birinə çevrildiyi 1922-ci ildən İkinci Dünya Müharibəsində Almaniyanın SSRİ-yə qarşı müharibəyə başladığı 1941-ci ilə qədərki 19 illik bir dövrü əhatə edir. Bu dövr Azərbaycanda Sovet ideologiyasının özəyini təşkil edən xüsusi mülkiyyətin ləğvi prinsipləri əsasında radikal mahiyyətli siyasi, iqtisadi və sosial islahatların diktatura yolu ilə həyata keçirildiyi bir dövr kimi səciyyələnir. Ona görə də bu dövrdə Azərbaycanda köklü sosial-iqtisadi dəyişikliklər baş vermişdir. Əhali kütləvi şəkildə təhsilə və səhiyyə sisteminə cəlb edilmişdir. Neft sənayesi və onunla bağlı sahələr sıçrayışla inkişaf etdirilmişdir. Bütün bunlar əhalinin rifahına, o cümlədən demoqrafik inkişafa müsbət təsir göstərməli idi. Əslində isə bu islahatlar SSRİ-nin iqtisadi-hərbi baxımdan hegemon bir dövlətə çevrilməsinə yönələn islahatlar idi. Belə ki, bu dövrdə kollektivləşmə adı altında kəndlilərin mülkiyyətində olan kənd təsərrüfatı

torpaqlarının, mal-qaranın və s. onların əlindən alınması kənd əhalisinin böyük bir hissəsinin müflisləşməsinə və həyat səviyyəsinin olduqca aşağı düşməsinə səbəb oldu. Bundan başqa mülkədar, "qolçomaq" və "xalq düşmanı" kimi damğalanaraq günahlandırılan yüz minlərlə əhali SSRİ-nin şərq rayonlarına sürgün edildi və ya məhv edildi. Şübhəsiz ki, bu kimi repressiyalar əhalinin demoqrafik inkişafına güclü zərbə vurmuşdur. Bununla yanaşı bu dövrdə Azərbaycanın əhalisi sürətlə artmışdır. Belə ki, 1922-1940-cı illər ərzində əhalinin sayı 1.411 min nəfər və ya 75,7% artmışdır. Orta illk artım 78,4 min nəfər və ya 3% olmuşdur. Ancaq burada, xüsusilə qeyd etmək lazımdır ki, bu artımın az qala yarıya qədərini Rusiyadan Azərbaycana axın edən miqrantlar təşkil etmişlər. Başqa sözlə əhalinin təbii artımı o qədər də yüksək olmamışdır. Buna baxmayaraq, bütövlükdə demoqrafik baxımdan bu dövrü keçən dövrlərə nisbətdə Azərbaycan üçün uğurlu hesab etmək olar.

***1941-1945-ci illər.*** Bu dövr Azərbaycanın demoqrafik tarıxində ən faciəli bir dövr kimi təsbit etdiyimiz bir dövrdür. Belə ki, ***"Böyük Vətən Müharibəsi"*** kimi anılan bu dövrdə ölkələr üzrə əhalinin sayca dəyişməsini xarakterizə edən demoqrafik statistika göstərir ki, Azərbaycan nəinki Sovet respublikaları ilə, hətta dünya ölkələri ilə nisbi müqayisədə ən çox əhali itkisinə məruz qalan ölkə olmuşdur. Sovet statistik mənbələrindən götürülmüş rəqəmlər və

onların əsasında əldə etdiyimiz nəticələr üzrə ən bəsit araşdırmalar bu fikrin doğru olduğunu aydın şəkildə sübut etməkdədir. Daha doğrusu, əhalinin ölkələrarası mexaniki hərəkətini hesaba almaqla müharibənin başladığı anda mövcud olan əhalinin sayı ilə müharibənin bitdiyi anda həmin əhalinin sayı arasındaki fərqi müəyyən etməklə əldə etdiyimiz nəticələrin müqayisə edilməsi bu fikrin danılmaz olduğunu göstərir. Ancaq rəqəmlərin təhlilinə keçməzdən öncə xatırladaq ki, müharibə SSRİ-də əhali statistikasının aparılmasına mane olmuş və bu işin bərpası 1950-ci ilə qədər davam etmişdir. Ona görə də biz müharibə dövründə müttəfiq respublikalar üzrə əhalinin sayının dəyişməsini müəyyən etmək üçün başlanğıc nöqtəsi kimi 1940-cı və 1950-ci illərin məlumatlarından istifadə etməli olmuşuq. 3 saylı cədvəldən göründüyü kimi, 1940-1950-ci illəri əhatə edən dövrdə nisbi olaraq əhalisi ən çox azalan müttəfiq respublika Belarusiya olmuşdur. Bu ölkədə 1950-ci ildə 1940-cı ilə nisbətən əhalinin sayı 14,8% az olmuşdur. Bu göstəriciyə görə 2-ci ölkə Azərbaycan – 12,7%, 3-cü Litva – 12%, 4-cü Ukraynadır – 11,5%. SSRİ üzrə bu dövrdə əhalinin sayı 8% azalmışdır. Ancaq bu rəqəmlər müharibə dövründə müttəfiq respublikalar üzrə əhali itkisi haqqında müəyyən təsəvvür yaratsa da əsl gerçəyi üzə çıxartmır. ***<u>Birincisi,</u>*** qeyd edək, Rusiya demoqraflarının hesablamalarına görə SSRİ əhalisi 1941-ci ilin iyununda (müharibədən sonraki sərhədlərdə) 197,5 milyon nəfər, 1945-ci

ilin sonunda isə 170,5 milyon nəfər olmuşdur. Yəni SSRİ əhalisi 1941-1945-ci illərdə 27 milyon nəfər və ya 13,7% azalmışdır[9].

***İkincisi***, müharibədən qalib çıxan Sovet İttifaqının zəbt etdiyi və öz tərkibinə qatdığı bölgələrdən milyonlarla əhali müharibədən sonra etnik mənsubiyyətinə görə qonşu ölkələrə deportasiya edilmişdir. O cümlədən 1939-cu ilin sentyabrın 17-sinə qədər Polşa ərazisinin yarısını təşkil edən Qərbi Ukrayna, Qərbi Belarusiya və Vilno (Vilnüs) rayonu (indiki Litva ərazisinə aiddir) adlanan keçmiş Polşa torpaqlarından 2,5 milyon nəfər polyak və az sayda yəhudi indiki Polşa ərazisinə deportasiya edilmişdir[10].

***Üçüncüsü***, müharibə illərində alman qoşunları tutduqları Sovet ərazilərindən geri çəkildikcə onlarla birlikdə həmin ərazilərin yerli alman əhalisi də Almaniyaya doğru köçməli olurdular. Qeyd edək ki, 1939-cu ildə indiki sərhədləri daxilində Ukraynada 627 min nəfər alman yaşayırdı. Bütövlükdə Almaniyanın işğalı altında olmuş SSRİ ərazilərində 2,7 milyon nəfər yerli alman əhalisi yaşayırdı. Bundan başqa 1941-1944-cü illərdə Baltik ölkələrində 230 min nəfər yerli əhali Avropa və Amerikaya emiqrasiya etmişdilər ki, onların da əksəriyyətini litvalilar

---

[9] http://ru.wikipedia.org/wiki/Потери_в_Великой_Отечественной_войне

[10] «Народы России.Энциклопедия» - М.: Болшая Российская Энциклопедия, 1994, с.61

*Cədvəl 3.*

## 1940-1950-ci illərdə SSRİ-nin müttəfiq respublikalarının əhalisinin sayı (min nəfərlə)[11]

| **müttəfiq respublikalar** | **əhalinin sayı (ilin əvvəlinə)** | | **1940-1950-ci illər ərzində əhalinin sayının dəyişməsi** | |
|---|---|---|---|---|
| | **1940-cı il** | **1950-ci il** | **min nəfər (+,-)** | **% (+,-)** |
| Rusiya | 110.098 | 101.438 | -8.660 | -7,9 |
| Ukrayna | 41.340 | 36.588 | -4.752 | -11,5 |
| Belarusiya | 9.046 | 7.709 | -1.337 | -14,8 |
| Litva | 2.925 | 2.573 | -352 | -12,0 |
| Latviya | 1.886 | 1.944 | +58 | +3,1 |
| Estoniya | 1.054 | 1.097 | +43 | +4,1 |
| Moldova | 2.468 | 2.290 | -178 | -7,2 |
| **Azərbaycan** | **3.274** | **2.859** | **-415** | **-12,7** |
| Gürcüstan | 3.612 | 3.494 | -118 | -3,3 |
| Ermənistan | 1.320 | 1.347 | +27 | +2,0 |
| Qazaxıstan | 6.148 | 6.592 | +444 | +7,2 |
| Özbəkistan | 6.551 | 6.194 | -357 | -5,4 |
| Tacikistan | 1.525 | 1.509 | -16 | -1,0 |
| Qırğızıstan | 1.528 | 1.716 | +188 | +12,3 |
| Türkmənistan | 1.302 | 1.197 | -105 | -8,1 |
| **SSRİ üzrə** | **194.077** | **178.547** | **-15.530** | **-8,0** |

[11] Население СССР 1987 (статистический сборник), Москва, «Финансы и статистика», 1988, s. 8-15.

təşkil edirdi[12].

***Dördüncüsü***, müharibə illərində almanlara əsir düşmüş Sovet adamlarının 270 min nəfəri müharibə bitdikdən sonra vətənə geri dönməkdən imtina edərək Amerikaya emiqrasiya etmişlər. Onların 141 min nəfərini litvalılar, latışlar və estonlar, 128 min nəfərini isə ukraynalılar və ruslar təşkil edirdi.

***Beşincisi***, 1941-1942-ci illərdə alman işğalına uğramış Sovet ərazilərindən milyonlarla əhali SSRİ-nin şərq rayonlarına evakuasiya edilmişdilər ki, onların da xeyli hissəsi yeni yaşayış yerlərindən geri dönməmişlər. Məsələn, təkcə Belarusiyadan 1,5 milyon nəfər əhali Volqaboyu, Ural və Sibir bölgələrinə evakuasiya edilmişdilər.

***Altıncısı***, müharibə illərindən başlayaraq 1950-ci ilə qədər, xüsusilə də1944-1945-ci illərdə Stalinin milli ayrı-seçkilik siyasəti nəticəsində SSRİ-nin qərbində yaşayan bir sıra etnoslar bütünlüklə, bəziləri də qismən öz doğma torpaqlarından Qazaxıstana, Orta Asiyaya və Sibirə sürgün edildilər. Bütünlüklə sürgün edilənlər almanlar, Krım tatarları, çeçenlər, inquşlar, qaraçaylılar, balkarlar, kalmıklar və Axıska türkləri idi. Polyaklar, yəhudilər, yunanlar, bolqarlar, Baltik xalqları qismən sürgün edildilər. Bütövlükdə ***üç milyon nəfərdən artıq*** əhali milli mənsubiyyətinə

[12] «Народы России.Энциклопедия» - М.: Болшая Российская Энциклопедия, 1994, с.61, 246

görə arzuolunmaz hesab edilərək SSRİ-nin şərqinə sürgün edildilər.

Beləliklə, yuxarıda göstərilən faktlardan məlum olur ki, 1940-1950-ci illər arasındaki dövrdə SSRİ-də əhalinin azalması xeyli dərəcədə əhalinin deportasiyası və ya miqrasiyası ilə bağlı olmuşdur. Müharibə dövründə və müharibədən sonraki 5 ildə təxminən 5,5 milyon nəfər əhali zorla və ya könüllü SSRİ-ni tərk etmiş, bir milyona yaxın əhali isə SSRİ-yə köçmüşdür.

Qeyd edək ki, ***SSRİ-yə gələnlərin 120 min nəfəri erməni idi.*** Onların da 95 min nəfəri Ermənistanda məskunlaşmışlar[13].

Əhali yerdəyişmələri nəticəsində ən çox əhalisi azalan respublikalar isə Ukrayna, Litva və xüsusilə də Belarusiya olmuşdur. Qeyd edək ki, Belarusiyada əhalinin sayının azalması 1950-1954-cü illərdə də davam etmişdir. Belə ki, Sovet hökuməti işğal etdiyi Köniqsberq bölgəsi (indiki Kalininqrad bölgəsi), Litva, Latviya, Estoniya və Finlandiya ərazilərindən deportasiya edilmiş və emigrasiya etmiş əhalinin tərk etdiyi yaşayış məntəqələrinin slavlarla məskunlaşdırılması prosesinə belarusları da geniş şəkildə cəlb etmışdi. Görünür ki, bu da Belarusiyanın adı çəkilən ərazilərlə qonşu olması və ya coğrafi yaxınlığı ilə bağlı idi.

[13] «Народы России. Энциклопедия» - М.: Болшая Российская Энциклопедия, 1994, с.62

Bütövlükdə apardığımız araşdırmalar göstərir ki, müharibə dövründə Ukrayna və Belarusiyada, eləcə də Litvada mülki əhalinin qırılması ilə bağlı azalma faizi SSRİ üzrə olan ümumi göstəricidən, xüsusilə də Azərbaycanla müqayisədə olduqca aşağı olmuşdur. Paradoksal bir sual ortalığa çıxır: ***Necə olur ki, 3 ildən artıq (1941-1944-cü illər) bir dövrdə faşist Almaniyasının işğalı altında olan və böyük dağıntılara məruz qalan Belarusiya və Ukraynada, eləcə də digər müharibə görmüş bölgələrdə mülki əhalinin qırılması ilə bağlı azalması Azərbaycanla müqayisədə olduqca aşağı olmuşdur?!***

Öncə onu qeyd edək ki, bizim hesablamalarımıza görə Azərbaycanda 1941-ci ilin iyununda əhalinin sayı 3.380 min nəfərdən cox olmuşdur. Müharibə başlayan kimi Azərbaycanda yaşayan almanlar (1939-cu ildə onların sayı 23 min nəfər idi) Qazaxıstana və Sibirə sürgün edildi. Ancaq eyni zamanda on minlərlə əhali müharibə bölgələrindən Bakıya evakuasiya edilmişdir. Müharibə illərində Bakı hospitallarında 400 min nəfərə yaxın əsgər və zabit müalicə olunmuşdur. Beləliklə, Ukrayna və Belarusiyadan fərqli olaraq Azərbaycana gələn əhali gedənlərdən daha çox olmuşdur və bizim hesablamalarımıza görə süni əhali yerdəyişmələrinin təsirini aradan qaldırdıqdan sonra 1945-ci ilin sonuna Azərbaycanın əhalisi 2,6 milyon nəfərdən bir qədər çox olmuşdur. ***Yəni, müharibə dövründə Azərbaycan əhalisinin sayı 780 min nəfər və ya 23,1% azal-***

***mışdır.*** Xatırladaq ki, Sovet Ordusuna səfərbər edilənlərin sayı 600-650 min nəfər olmuşdur. Onların da 275 min nəfəri müharibədə həlak olmuşdur. Beləliklə, müharibə dövründə mülki əhali itkisi yarım milyon nəfərdən çox olmuşdur, yəni müharibədə ölənlərdən iki dəfə çox. Bu əhali itkisinin böyük əksəriyyəti kənd əhalisinin payına düşürdü. Belə ki, kənd yerlərində əsgərlik yaşı çatmış bütün kişi əhalisi müharibəyə göndərilmişdi. Halbuki şəhərlərdə, xüsusilə də Bakıda dövlət idarələrində və müəssisələrində işləyən kişi əhalisinin xeyli hissəsi hərbi səfərbərlikdən azad edilmişdi. Ən başlıcası isə o idi ki, şəhərlərdə əhali kart sistemi ilə minimum səviyyədə də olsa ərzaqla təmin edilirdi. Kəndlərdə isə əhaliyə nəinki ərzaq kartları verilmirdi, üstəlik onlar demək olar ki, ərzaq əldə edə biləcəyi təsərrüfat mənbələrindən də məhrum edilərək Allahın ümidinə buraxılmışdılar. Ona görə də kənd yerlərində əhali aclıqdan və xəstəlikdən kütləvi şəkildə qırılırdı. Həmin dövrü yaşamış kənd sakinlərinin söylədiklərinə görə o illərdə, xüsusilə 1944-cü ildə ölənlərin sayı o qədər çox idi ki, onları dəfn etmək bir probleme çevrilmişdi. Belə ki, meyitləri qəbiristanlığa qədər daşımağa taqəti olan adam tapılmırdı və bu cür hallarda meyitlər öz həyətlərində və ya yaxın ərazilərdə dəfn edilirdi.

Müqayisə üçün apardığımız demoqrafik araşdırmalar göstərir ki, qonşu Gürcüstanda və Ermənistanda müharibə dövründə mülki əhalinin sayı nəinki azalmamış, hətta bir

qədər artmışdır. Daha doğrusu Gürcüstanda mülki əhalinin sayı təxminən 50 min nəfərə qədər artmış, Emənistanda isə 30-40 min nəfər azalmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi Azəbaycan təkcə keçmış Sovet respublikaları ilə müqayisədə deyil, Avropa ölkələri ilə müqayisədə də ən çox nisbi əhali itkisinə məruz qalan ölkə olmuşdur. Müharibə dövründə ən çox əhali itkisinə məruz galan Avropa ölkəsi Polşa olmuşdur. Müharibənin ilk qurbanı və sonuncu azad olmuş Polşa 6 ilə yaxın işğal altında qalmışdır. Müharibənin başlanğıcında Almaniya və SSRİ arasında ikiyə bölünmüş Polşada xalq təkcə faşizmin deyil, Stalin repressiyalarının da qurbanı olmuşdur. Buna baxmayaraq, Polşa mütəxəssisləri müharibə dövründə polyakların sayının 16,5% azaldığını təsbit etmişlər. Başqa sözlə hər 6 polyakdan biri müharibə qurbanı olmuşdur. Göründüyü kimi Azərbaycanla müqayisədə bu göstərici olduqca aşağıdır. Belə ki, müharibə dövründə Azərbaycan öz əhalisinin hər dörd nəfərindən birini itirmişdir. Halbuki Azərbaycan nəinki faşist Almaniyasının işğalına məruz qalmamış, heç düşmən aviasiyasının hücumundan da ziyan çəkməmişdir.

Ancaq onu da xatırladaq ki, müharibə dövründə əhali itkiləri dövlətlər üzrə deyil, millətlər üzrə hesablanılarsa şübhəsiz ki, ən çox itki verən millətin yəhudilər olduğu danılmaz bir faktdır. Hesablamalara görə İkinci Dünya Müharibəsi illərində alman faşistləri 5,8-6,0 milyon

nəfər yəhudi qırmışlar[14]. Məlumdur ki, yəhudilərin kütləvi şəkildə qətlə yetirilməsi faşist Almaniyasının onlara qarşı yeritdiyi soyqırım siyasətinin nəticəsi idi. Bəs, görəsən Azərbaycan əhalisinin aclıqdan və xəstəlikdən kütləvi şəkildə qırılmasına düçar edilməsi hansı siyasətin nəticəsi idi?! Bizcə tarixçilər və politoloqlar yaxın keçmişimizin bu qısa, lakin faciəli dövrünü daha dərindən öyrənməli və uyğun gələn siyasi qiyməti verməlidirlər. Biz isə yalnız onu deyə bilərik ki, Sovet hökuməti İkinci Dünya Müharibəsi illərində Azərbaycanın neftindən və digər təbii sərvətlərindən həlledici dərəcədə faydalanmış, eləcə də Azərbaycanın əhali resurslarından Sovet Ordusunun ehtiyacları üçün maksimum səviyyədə yararlanmışdır. Ancaq bütün bunların əvəzində müharibə illərində Azərbaycanın mülki əhalisi, xüsusilə də kənd əhalisi rəzil vəziyyətə düçar edilərək kütləvi qırğınlara uğradılmışdır ki, bu da ən azı Stalin diktaturasının Azərbaycana qarşı yeritdiyi milli ayrı-seçkilik siyasəti kimi qiymətləndirilə bilər.

***1946-1954-cü illər.*** Stalin diktaturası dönəminin müharibədən sonrakı son 8 ilini əhatə edən bu dövrün ayrıca təhlil edilməsinə ehtiyac vardır. Çünki bu dövrdə Stalin repressiyaları əvvəlki kimi kütləvi xarakter daşımasa da öz təsirini göstərməkdə davam etmiş və Azərbaycanın sosial-iqtisadi həyatında daha çox hiss edilmişdir. Öncə onu qeyd edək ki, müharibənin bitməsi və Sovet İttifaqının

[14] http://ru.wikipedia.org/wiki/Холокост

qalib ölkə statusunda olması şübhəsiz ki, əhalinin həyat səviyyəsinin tədricən yüksəlməsinə səbəb oldu. Xüsusilə də əsgərlikdən tərxis olunmuş yüz minlərlə kişi əhalisinin evlərinə geri dönməsi demoqrafik proseslərin normallaşmasına həlledici təsir göstərdi. Bununla belə 1947-ci ildə Azərbaycanın kənd yerlərində əhali yenidən ərzaq qıtlığı problemi ilə üzləşdi ki, bu da ölüm hallarının çoxalmasına yol açdı. Bundan başqa 1953-cü ildə Stalinin ölümündən sonraki bir il ərzində əhalinin təbii artımı xeyli aşağı düşdü. Belə ki, bütün Sovet İttifaqında olduğu kimi Azərbaycanda da əhali matəm içində olduğundan evlənmə hallarına fasılə verildi. Ancaq yenə də SSRİ-nin başqa müttəfiq respublikaları və xalqları ilə müqayisədə Azərbaycan xalqı bu dövrdə daha ağır zərbələrə məruz qaldı və Azərbaycanın siyasi və demoqrafik tarixinə daha bir qara səhifə yazıldı. Belə ki, 1948-1953-cü illərdə Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycana deportasiya edilməsi kimi repressiv bir akt həyata keçirildi. Bunun üçün öncə Stalinin göstərişi ilə Sovet İttifaqından kənarda yaşayan erməniləri Ermənistanda yerləşdirmək bəhanəsi ilə azərbaycanlıların Ermənistandan Azərbaycana köcürülməsi haqqında iki qərar qəbul edildi:

***Birincisi***, 1947-ci il 23 dekabr 4083 saylı "Ermənistan SSR-dən kolxozcuların və başqa azərbaycanli əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köcürülməsi haqqında" qərar idi. Bu qərarın 1-ci maddəsində deyilirdi

ki, “1948-1950-ci illərdə Ermənistan SSR-dən könüllülük əsasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına 100 min kolxozçu və başqa azərbaycanlı köçürülsün, onlardan 10 min adam – 1948-ci ildə, 40 min adam – 1949-cu ildə, 50 min adam – 1950-ci ildə”.

***İkincisi***, 1948-ci il 10 mart tarixli 754 saylı “kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında” qərar idi. Birinci qərarda “könüllülük” ifadəsinin həmin qərarın repressiv mahiyyətini ört-basdır etmək üçün işlədildiyinə heç bir şübhə yeri qalmır. Belə ki, ikinci qərarın axırıncı – 11-ci maddəsində deyilir ki, “Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalisinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə edilsin”[15]. Həmin qərarların əsasında 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfər azərbaycanlı öz etno-tarixi ərazilərindən yük vaqonlarına doldurularaq Azərbaycanın adı çəkilən bölgəsinə sürgün edildilər. Əsasən Ermənistanın dağlıq rayonlarından köçürülən bu əhalinin heç birinə Dağlıq-Qarabağda məskunlaşmasına icazə verilmədi. Kür-Araz ovalığının iqliminə adaptasiya ola bilmədikləri üçün və yaşayış şəraitində bir çox çatışmazlıqların olması

[15] “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi, s.86-99.

üzündən bu əhalinin təxminən üçdə biri aclıq və xəstəliklər nəticəsində həlak oldu. Stalin öləndən sonra deportasiya prosesi dayandırıldı və bu əhaliyə Ermənistanda boş, baxımsız qalmış ev-eşiklərinə dönməsinə icazə verildi. Bunun nəticəsində salamat qalanların 40-45%-i bütün çətinliklərə və təzyiqlərə baxmayaraq, öz doğma torpaqlarına qayıtdılar. Qeyd etmək lazımdır ki, icazənin verilməsi təsadüfi deyildi. Belə ki, Ermənistanda əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabalığa çevrilmişdi.

Ermənistanın KP MK-nin 1975-ci il yanvar plenumunda deyilmişdir ki, həmin kəndlərin 476-dan çoxu istifadəsiz qalmışdır. Erməni millətçilərinin özləri də 90-cı illərdə etiraf etmişlər ki, azərbaycanlıların köçürülməsi ilə bağlı boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn ermənilərin yerləşdirilməsi üçün istifadə edilməmişdir.

Beləliklə göründüyü kimi Stalin repressiyalarının son akkordlarının yer aldığı 1946-1954-cü illəri əhatə edən bu dövrdə də ən çox ziyan çəkən yenə də Azərbaycan xalqı olmuşdur. Bütün bu baş verənlərin fonunda bu dövrdə, xüsusilə də 1950-1955-ci illər ərzində Azərbaycanın əhalisi kifayət qədər yüksək templərlə artmışdır. Bu artımda Rusiyadan Azərbaycana miqrasiyanın davam etməsi də az rol oynamamışdır. Bütövlükdə bu dövrdə əhalinin sayı 20%-dən çox artmışdır. 1950-1955-ci illərdə isə artım

14,6% təşkil etmiş və orta illik artım 83,7 min nəfər və ya 2,8% olmuşdur.

***1955-1970-ci illər.*** Bu dövr Azərbaycanın demoqrafik tarıxində ən uğurlu dövr kimi təsbit etdiyimiz bir dövrdür. 15 ili əhatə edən bu dövrdə əhalinin sayı 56,1% artaraq 1955-ci ildəki 3277,2 min nəfərdən, 1970-ci ildə 5.117,1 min nəfərə çatmışdır. Orta illik artım 122,7 min nəfər və ya 3%-dən bir qədər yüksək olmuşdur. Bu dövrü Azərbaycan üçün demoqrafik sıçrayış və ya demoqrafik partlayış dövrü adlandırsaq yanılmarıq. Çünki bu dövrdə əhalinin sayının dinamikasında miqrasiya proseslərinin heç bir rolu olmamış, əhali təbii artım hesabına yüksək templərlə artmışdır. Xüsusilə 1959-1962-ci illərdə əhalinin sayı çox yüksək templərlə artmışdır: orta illik artım 3,7%-ə bərabər olmuşdur. Azərbaycan tarixində ən yüksək əhali artımı isə 1960-cı ildə qeydə alınmışdır – 4,1%. Həmin illərdə əhalinin təbii artım templərinə görə Azərbaycan nəinki SSRİ-nin digər müttəfiq respublikaları ilə müqayisədə, hətta bütün dünyada birinci olmuşdur.

Bu dövrdə Azərbaycanda demoqrafik sıçrayışa səbəb olan başlıca amillər SSRİ-nin iqtisadiyyatında, xüsusilə də siyasi həyatında iri miqyaslı müsbət dəyişikliklərin baş verməsi idi. Belə ki, bu dövr stabil yüksək iqtisadi və texnoloji inkişafın və ictimai həyatın bütün sahələrində böyük irəliləyişlərin baş verməsi ilə fərqlənirdi. SSRİ hökümətinin daxili siyasətində baş verən köklü islahatlar

nəticəsində isə əhali repressiv hakimiyyər orqanlarının zülmündən və qorxu-hürküsündən azad oldu. Sürgündə və həbsdə olan milyonlarla əhaliyə öz doğma torpaqlarına və ev-eşiklərinə dönməsinə icazə verildi (Krım tatarları, Axıska türkləri və almanlar istisna olmaqla). Əhalinin sosial və iqtisadi fəallığını məhdudlaşdıran bir çox qadağalar aradan götürüldü. Məsələn, əhaliyə elmi texniki nailiyyətlərdən faydalanmağa, o cümlədən şəxsi nəqliyyat vasitələrinə sahib olmağa icazə verildi. Kəndlilərə öz həyətyanı sahələrində sərbəst təsərrüfat fəaliyyəti ilə məşğul olmağa və əldə etdikləri məhsulları istədikləri yerdə, istədikləri qiymətə pərakəndə satışına şərait yaradıldı. Bütün bu müsbət dəyişikliklər nəticəsində Azərbaycan əhalisinin, xüsusilə də kənd əhalisinin rifah səviyyəsi olduqca yüksəldi. Belə ki, öz həyətyani ərazilərində bol meyvə-tərəvəz yetişdirmiş kəndlilər bu məhsulları Rusiyanın iri şəhərlərində, xüsusilə Moskva bazarlarında daha baha qiymətə satmağa və yüksək gəlir əldə etməyə imkan tapdılar.

Bütün bunlarla yanaşı qeyd edək ki, bu dövrdə əhalinin təbii artımının kəskin şəkildə yüksəlməsinə bir başa təkan verən başlıca amil 50-ci illərdə tibb sahəsində inqilabi yeniliklərin baş verməsi idi. Bu yeniliklərin SSRİ-də, o cümlədən Azərbaycanda kütləvi şəkildə tədbiq edilməsi nəticəsində körpə ölümü sürətlə aşağı düşmüşdür. Təsadüfi deyildir ki, bu dövrdə təkcə Azərbaycanda deyil, doğum

səviyyəsinin yüksək olduğu və yeni tibbi preparatların tədbiq edildiyi bütün dünya ölkələrində əhalinin təbii artımında sıçrayişlı yüksəliş olmuşdur.

***1970-1988-ci illər.*** Bu 18 illik dövr Sovet dönəminin SSRİ-də siyasi böhranın, o cümlədən Qarabağ böhranının başlanğıcına qədərki son stabil dövrünü əhatə edir. Bu dövrdə Azərbaycanın əhalisi 1.811 min nəfər və ya 35,4% artaraq 1970-ci ildəki 5.117 min nəfərdən 1988-ci ildə 6.928 min nəfərə çatmışdır (bax: cədvəl 4).

Orta illik artım 100,6 min nəfər və ya 1,7% olmuşdur. Göründüyü kimi bu dövrdə əhalinin artim tempi əvvəlki dövrə nisbətən olduqca aşağı olmuşdur. Ancaq buna baxmayaraq, Azərbaycan bu göstəriciyə görə yalnız Orta Asiya respublikalarından geri qalırdı. Başqa sözlə bu dövrdə Azərbaycanda əhalinin sayı durmadan artmış və əhalinin artım templəri dünyanın bir çox ölkələri ilə müqayisədə yetərincə yüksək olmuşdur. Nəticədə SSRİ-nin, eləcə də bütün dünya əhalisinin tərkibində Azərbaycan əhalisinin xüsusi çəkisi xeyli yüksəlmişdir. Demoqrafik baxımdan bu dövrün xarakterik cəhəti əhalinin təbii artımının get-gedə aşağı düşməsi (80-ci illərin sonları istisna olmaqla) və respublikalararası miqrasiya proseslərində müsbət saldonun mənfi saldo ilə əvəz olunması idi. Xüsusilə 80-ci illərin sonuna doğru Azərbaycandan kənara miqrasiya axını daha da gücləndi və əhalinin sayının artım templərinin sürətlə aşağı düşməsinə yol açdı. Əhalinin təbii artımının azalması-

*Cədvəl 4.*

**Azərbaycan Respublikası əhalisinin sayının dinamikası (1970-2012-cu illər)**[16]

| illər | əhalinin sayı (min nəfərlə) | | | bütün əhaliyə nisbətən %-lə | |
|---|---|---|---|---|---|
| | bütün | şəhər | kənd | şəhər | kənd |
| 1970 | 5.117,1 | 2.564,6 | 2.552,5 | 50,1 | 49,9 |
| 1975 | 5.644,4 | 2.921,3 | 2.723,1 | 51,8 | 48,2 |
| 1979 | 6.028,3 | 3.200,3 | 2.828,0 | 53,1 | 46,9 |
| 1980 | 6.114,3 | 3.274,5 | 2.866,8 | 53,1 | 46,9 |
| 1985 | 6.624,4 | 3.524,5 | 3.097,9 | 53,2 | 46,8 |
| 1988 | 6.928,0 | 3.722,6 | 3.205,4 | 53,7 | 46,3 |
| 1989 | 7.021,2 | 3.805,9 | 3.215,3 | 54,2 | 45,8 |
| 1990 | 7.131,9 | 3.847,3 | 3.284,6 | 53,9 | 46,1 |
| 1991 | 7.218,5 | 3.858,3 | 3.360,2 | 53,5 | 46,5 |
| 1992 | 7.324,1 | 3.884,4 | 3.439,7 | 53,0 | 47,0 |
| 1993 | 7.440,0 | 3.928,5 | 3.511,5 | 52,8 | 47,2 |
| 1994 | 7.549,6 | 3.970,9 | 3.578,7 | 52,6 | 47,4 |
| 1999 | 7.953,4 | 4.064,3 | 3.889,1 | 51,1 | 48,9 |
| 2000 | 8.032,8 | 4.116,4 | 3.916,4 | 51,2 | 48,8 |
| 2005 | 8.447,3 | 4.477,6 | 3.969,7 | 53,0 | 47,0 |
| 2006 | 8.553,0 | 4.565,7 | 3.987,3 | 53,4 | 46,6 |
| 2007 | 8.665,9 | 4.636,6 | 4.029,3 | 53,5 | 46,5 |
| 2008 | 8.779,8 | 4.733,6 | 4.046,2 | 53,9 | 46,1 |
| 2009 | 8.922,4 | 4.739,1 | 4.183,3 | 53,1 | 46,9 |
| 2010 | 8.997,6 | 4.774,9 | 4.222,7 | 53,1 | 46,9 |
| 2011 | 9.111,1 | 4.829,5 | 4.281,6 | 53,0 | 47,0 |
| 2012 | 9.235,1 | 4.888,7 | 4.346,4 | 52,9 | 47,1 |

[16] Azərbaycanın əhalisi 2012, Bakı, 2012, s.19: 1970, 1979, 1989, 1999, 2009-cu illərin məlumatları əhali sayımları üzrə verilmişdir.

na təsir göstərən başlıca amil isə doğum səviyyəsinin durmadan aşağı düşməsi idi. Bu dövrdə əhalinin ölüm səviyyəsində təbii artıma təsir edə biləcək bir dəyişiklik baş verməmişdir. Ümumiyyətlə bu dövr Azərbaycanın demoqrafik inkişafında mənfi təmayüllərin formalaşması və güclənməsi ilə səciyyələnir. Ancaq qeyd etmək lazimdır ki, əgər doğumun aşağı düşməsi (xüsusilə 70-ci illərdə) əsasən obyektiv səbəblərlə bağlı idisə (məsələn, əhalinin urbanizasiya və təhsil səviyyəsinin yüksəlməsi, 1941-1945-ci illər doğumlu azsaylı nəslin nigah yaşlarına girdiyi illərdə yeni bağlanan nigahların sayının kəskin şəkildə azalması, əhalidə ailənin planlaşdırılması və nigahların gec bağlanılması meyllərinin güclənməsi və s.), Azərbaycandan kənara miqrasiya axınının geniş vüsət alması və bununla bağlı əhalinin yaş-cins tərkibində tarazlığın pozulması, ölümün stabil səviyyədə qalması və s. iqtisadi amillərin təsiri ilə baş vermişdir. Daha doğrusu bu dövrdə SSRİ-də iqtisadi böhranın başlanması və get-gedə dərinləşməsi Azərbaycana da güclü təsir göstərdi. Digər tərəfdən SSRİ hökümətinin həmişəki kimi Azərbaycana ögey münasibəti əhalinin rifah səviyyəsinin Sovet İttifaqı üzrə olan göstəricilərdən geri qalması və bu siyasətin məqsədyönlü şəkildə davam etdirilməsi Azərbaycan gənclərinin Rusiyanın müxtəlif bölgələrinə, qismən də SSRİ-nin Avropa hissəsindəki digər  respublikalara kütləvi miqrasiya etməsinə təkan verdi.

***1988-1999-cu illər.*** Özünəməxsus xarakterik xüsusiyyətləri ilə zəngin olduğu üçün ayırdığımğz bu 11 illik dövr birinci növbədə Azərbaycanın 1991-ci ildə müstəqillik qazanaraq dünyanın siyasi xəritəsində yer alması kimi şərəfli bir tarixi hadisənin təsadüf etdiyi bir dövr kimi əlamətdardır. Eyni zamanda bu dövr Azərbaycanın hərbi aqressiyaya və siyasi çalxantılara məruz qaldığı, sosial-iqtisadi böhranlarla üzləşdiyi və qanlı faciələrlə yadda qalan bir dövrdür. Əlbəttə, bütün bunlar Azərbaycanda əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə və bir sıra başqa problemlərin yaranmasına səbəb oldu. Bu isə öz növbəsində bu dövrdə demoqrafik proseslərin gedişatında dinamik dəyişikliklərin baş verməsinə gətirib çıxartdı.

Məlum olduğu kimi 1988-ci ilin əvvəllərindən başlamış erməni təcavüzü nəticəsində Ermənistanda yaşayan azərbaycanlılar Azərbaycana deportasiya edildi. 1994-cü ilə qədər davam edən bu təcavüzün sonunda Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) işğal edilmiş, təqribən bir milyona yaxın insan qaçqın olmuş və ya öz vətənində köçkün vəziyyətinə düşmüş; 20 min nəfər Azərbaycan vətəndaşı həlak olmuş; 50 min nəfər müxtəlif xəsarət almış; minlərlə adam əsir və girov götürülmüş, itkin düşmüşdür; 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 1025 təhsil, 798 səhiyyə ocağı, 1510 mədəniyyət müəssisəsi, 300

min iş yeri yox edilmişdir. 1992-ci il fevralın 26-da Xocalıda baş verən soyqırım hadisəsini xüsusilə qeyd etmək lazımdır. Belə ki, burada bir gün içində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş; 478 nəfər şikəst edilmiş, 1275 sakin – qocalar, uşaqlar, qadınlar isə əsir aparılaraq dəhşətli təhqirlərə və həqarətə məruz qalmışlar.[17]

Beş ildən çox davam edən Qarabağ müharibəsi, Azərbaycan torpaqlarının işğal altında qalması, Sovet İttifaqının dağılması və sosialist iqtisadi sistemindən bazar iqtisadiyyatına keçidlə bağlı keçmiş iqtisadi və ticari əlaqələrin pozulması və bir sıra başqa amillər Azərbaycanda bu dövrdə inflyasiyanın hipertrofik miqyas almasına və iqtisadiyyatın çökməsinə gətirib çıxartdı. Nəticədə yüz minlərlə insan iş yerini itirdi və beləliklə də əhalinin həyat səviyyəsi kəskin şəkildə pisləşdi. Bütün bunlar Azərbaycan əhalisinin kütləvi olaraq başqa ölkələrə, xüsusilə Rusiyaya miqrasiya etməsinə səbəb oldu və Azərbaycanda əhalinin sayı intensiv olaraq sürətlə azalmağa başladı. Ancaq 1999-cu ildə Azərbaycanda keçirilmiş əhali sayımının materiallarında Azərbaycan vətəndaşları hansı ölkədə yaşamasından asılı olmayaraq Azərbaycanın daimi əhalisi kimi qeydə alındıqları üçün bu azalmanın həcmini müəyyən etmək mümkün olmamışdır. Rəsmi məlumatlara görə isə

---

[17] Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı. “Azərbaycan” qəzeti, 31 mart 2001-ci il, №71(2784)

bu 11 ildə (1988-1999-cu illər) Azərbaycan əhalisinin sayı 1988-ci ildəki 6.928 min nəfərdən 14,8% və ya 1.025 min nəfər artaraq 1999-cu ildə 7.953 nəfərə çatmışdır. Orta illik artım 93,2 min nəfər və ya 1,3%-ə yaxın olmuşdur.

***1999-2012-ci illər.*** Bu on üç illik dövr Azərbaycanın stabil iqtisadi yüksəliş və demoqrafik dirçəliş mərhələsinə qədəm qoyması ilə fərqlənən bir dövr kimi təsbit edilmişdir. Bu dövrdə Azərbaycanda neft istesalı sürətlə artmış və illik neft istehsalı sovet dövründəki 40-cı illərin ən yüksək istehsal səviyyəsi ilə müqayisədə 2 dəfə, 90-cı illərin səviyyəsi ilə müqayisədə isə beş dəfə yüksək olmuşdur. Nəticədə Azərbaycan iri neft ixracatçısına çevrilmişdir. Eyni zamanda neftin beynəlxalq bazarlarda qiyməti 2008-ci ilin ortalarına qədər durmadan sürətlə artmış və 90-cı illərin əvvəlləri ilə müqayisədə 8-10 dəfə baha olmuşdur. Beləliklə bu dövrdə Azərbaycan böyük neft gəlirləri sayəsində iqtisadi inkişaf templərinə görə dünyanın birinci dövləti olmuşdur. Bu dövrdə Azərbaycanın dövlət büdcəsi də analoqu olmayan bir templə artaraq 2008-ci ildə 1999-cu ilə nisbətən 10 dəfədən çox olmuşdur. Müqayisə üçün göstərək ki, qonşu Gürcüstan və Ermənistanın dövlət büdcələri birlikdə Azərbaycanın büdcəsindən dəfələrlə geri qalır. Şübhəsiz ki, Azərbaycandakı bu iqtisadi yüksəliş əhalinin gəlirlərinin xeyli yüksəlməsinə, yeni iş yerlərinin yaranmasına və bütövlükdə əhalinin rifah səviyyəsinin yaxşılaşmasına səbəb oldu. Bu da öz növ-

bəsində Azərbaycandan kənara gedənlərin sayının, xüsusilə də gənclərin sayının azalmasına və onların əhalinin tərkibində xüsusi çəkisinin artmasına səbəb olmuşdur. Eyni zamanda 1999-2009 illərdə qadın əhalisi arasında fertil yaşlarda (15-49 yaşlar) olan qadınların və ümumi əhalinin tərkibində nigah yaşına daxil olan gənc oğlan və qızların xüsusi çəkisinin artması burada nigaha daxil olanların sayının və əhalinin doğum səviyyəsinin artmasına gətirib çıxarmışdır. 1998-2011-cu illərin statistik məlumatlarından aydın olur ki, bu dövrdə ölkəmizdə həm boşanmaların, həm də ölənlərin sayının artmasına baxmayaraq, diri doğulan uşaqların sayının ölənlərin sayına nisbətən daha sürətlə artması nəticəsində əhalinin təbii artımı xeyli yüksəlmişdir (bax: cədvəl 5).

Uyğun olaraq əhalinin təbii artım templəri də son illərdə durmadan artmışdır. Bütövlükdə 1999-2009-cu illər ərzində əhalinin sayı 969 min nəfər və ya 12,2% artaraq 1999-cu ildəki 7.953,4 min nəfərdən, 2009-cu ildə 8.922,3 min nəfərə çatmışdır. Orta illik artım 96,9 min nəfər və ya 1,2% olmuşdur. Şübhəsiz ki, bu göstəricilər 1955-1990-cı illər arası dövrdəki analoji göstəricilərdən olduqca geri qalır. Ancaq unutmaq olmaz ki, hazırki dövrdə bütün sahələrdə olduğu kimi, əhalinin demoqrafik davranışlarında da qloballaşma prosesi getməkdədir. Dünyanın demək olar ki, bütün bölgələrində, o cümlədən Azərbaycanda əhalinin doğum səviyyəsi durmadan aşağı düşməkdə davam edir.

*Cədvəl 5.*

**Azərbaycan Respublikasında əhalinin təbii artımını xarakterizə edən göstəricilərin dinamikası (1998-2011-ci illərdə-min nəfərlə)**[18]

| **illər** | **nigahla-rın sayı** | **boşanma-ların sayı** | **diri doğulmuş uşaqların sayı** | **ölənlərin sayı** | **əhalinin təbii artımı** |
|---|---|---|---|---|---|
| 1998 | 40,9 | 5,6 | 124,0 | 46,3 | 77,7 |
| 1999 | 37,4 | 5,0 | 117,5 | 46,3 | 71,2 |
| 2000 | 39,6 | 5,5 | 117,0 | 46,7 | 70,3 |
| 2001 | 41,9 | 5,4 | 110,4 | 45,3 | 65,1 |
| 2002 | 41,7 | 5,7 | 110,7 | 46,5 | 64,2 |
| 2003 | 56,1 | 6,7 | 113,5 | 49,0 | 64,5 |
| 2004 | 62,2 | 6,9 | 131,6 | 49,6 | 82,0 |
| 2005 | 71,6 | 8,9 | 141,9 | 52,0 | 89,9 |
| 2006 | 79,4 | 7,8 | 148,9 | 52,2 | 96,7 |
| 2007 | 81,8 | 8,3 | 152,0 | 53,7 | 98,3 |
| 2008 | 80,0 | 7,9 | 152,1 | 52,7 | 99,4 |
| 2009 | 78,1 | 7,8 | 152,1 | 52,5 | 99,6 |
| 2010 | 79,2 | 9,1 | 165,6 | 53,5 | 112,1 |
| 2011 | 88,1 | 10,7 | 176,1 | 53,8 | 122,3 |
| **2011-cu il 1998-ci ilə** nisbətdə %-lə | **215,4** | **191,1** | **142,0** | **116,2** | **157,4** |

[18] "Azərbaycanın demoqrafik göstəriciləri 2012", statistik məcmuə, Bakı-2012, səh.187, 318.

Buna baxmayaraq qeyd etmək lazımdır ki, əhalinin sayının artım templərinə görə Azərbaycan dünya ölkələri arasında hələ də irəlidə gedənlər arasındadır. Xüsusilə qeyd edək ki, 114 il ərzində (1897-2012-cu illər) ayrı-ayrı dövrlərdə Azərbaycanın başına gələn fəlakətlər nəticəsində verdiyi böyük əhali itkilərinə baxmayaraq, burada əhalinin sayı yetərincə yüksək templərlə artaraq 1897-ci ildəki 1.807 min nəfərdən 2012-ci ildə 9.235 min nəfərə çatmışdır. Başqa sözlə bu dövrdə Azərbaycan əhalisinin sayı 5,1 dəfə artmışdır. Müqayisə üçün göstərək ki, eyni dövr ərzində Rusiyanın əhalisi 2,1 dəfə, Ukraynanın əhalisi 1,6 dəfə, Gürcüstanın əhalisi 2,6 dəfə, Ermənistanın əhalisi 3,8 dəfə (rəsmi məlumatlara görə), bütovlükdə keçmiş SSRİ ərazisində yaşayan əhalinin sayı 2,3 dəfə, dünyanın əhalisi isə 4 dəfə artmışdır. Burada xüsusilə vurğulamaq lazımdır ki, bu dövrdə azərbaycanlıların sayı daha sürətlə artmışdır. Belə ki, bizim hesablamalarımıza görə keçmiş SSRİ sərhədləri daxilində yaşayan azərbaycanlıların sayı 1897-ci ildə təxminən 1,5 milyon nəfər, 2012-ci ildə isə 9,8 milyon nəfər olmuşdur. Yəni bu dövrdə onların sayı 6,5 dəfə artmışdır. Orta hesabla bu dövrdə azərbaycanlıların sayı hər il 72,8 min nəfər və ya 1,65% artmışdır.

Son olaraq qeyd edək ki, Rus-Sovet imperiyasının 1813-cü ildən başlamış 1991-ci ilə qədərki 177 il ərzində tarixi Şimali Azərbaycan torpaqlarında yerli xalqa qarşı apardığı etnodemoqrafik siyasətinin nəticəsi olaraq Azər-

baycanın bir sıra etnik bölgələri (Göyçə, Zəngəzur, Zəngibasar, Borçalı və Dərbənd) hazırki Azərbaycan Respublikasının ərazisindən kənarda qalmış, üstəlik Qarabağ bölgəsi də erməni separatizmi və işğalına məruz qalmışdır. Başqa sözlə, son 20 ildə Azərbaycanın etnik münaqişə ocağına çevrilməsi, daha doğrusu etnik zəmində Azərbaycana qarşı ərazi iddiaları əsasında torpaqlarının işğal edilməsi 150 ildən artıq bir dövrdə Azərbaycana qarşı aparılan etnodemoqrafik siyasətin nəticəsidir. Ona görə də Azərbaycanın beynəlxalq miqyasda erməni işğalına qarşı apardığı xarici siyasətində bu tip araşdırmalardan geniş istifadə olunmalıdır. Zaman-zaman Azərbaycanda və ayrı-ayrı bölgələrdə, o cümlədən indiki Ermənistan ərazisində baş verən iri miqyaslı etno-demoqrafik dəyişikliklər siyasi və iqtisadi baxımdan dəyərləndirilməli, indiki siyasi durumun formalaşmasındakı rolunun öyrənilməsi sahəsində elmi araşdırmalar daha da genişləndirilməlidir.

## Azərbaycan Respublikasında etnik tərkibin formalaşması: xüsusiyyətləri, dəyişməsi meylləri və reallıqlar

Azərbaycan Respublikası əhalisinin böyük əksəriyyətini təşkil edən azərbaycanlılar, türklər, türkmənlər, krım-tatarları, qaqauzlar və salarlarla (Çində yaşayan türk xalqlarından biri) birlikdə Altay dillər ailəsinin Türk dil qrupunun Oğuz altqrupuna aiddirlər. Azərbaycan əhalisinin qalan hissəsi əsasən Hind-Avropa və Qafqaz dillər ailəsinə aid olan etnoslardan və etnik qruplardan ibarət olmaqla, qarışıq bir etnik tərkibə malikdir. Rəsmi sənədlərdə, o cümlədən, əhali sayımının materiallarında göstərilməyən və ənənəvi olaraq, azərbaycanlı kimi qeydə alınan etnik qrupları da göz önünə alsaq, milli azlıqların əslində daha mozaik bir tərkibi olduğunu görmüş olarıq. Belə etnik qruplardan ingiloyları, krızları, hapıtları, lahıcları, qaraçıları və s. misal göstərmək olar.

Azərbaycanın etnik tərkibinin formalaşması bilavasitə etnik və demoqrafik faktorların təsiri altında baş verən uzun və mürəkkəb bir tarixi proses kimi özünü göstərmişdir. Həmin faktorların xarakteri və təsir gücü isə öz növbəsində həlledici və istiqamətləndirici təsir göstərən siyasi, sosial-iqtisadi və başqa önəmli faktorlardan asılı olmuşdur.

Bu prosesin müxtəlif aspektlərinin öyrənilməsi bir sıra iri elmi araşdırmalarda öz əksini tapmışdır. Ona görə də biz

yalnız etno-demoqrafik aspektlərə üstünlük verməklə bu prosesin qısa icmalı ilə kifayətlənəcəyik.

Sovet alimlərinin fikrincə, XI yüzilliyin əvvəlləri Azərbaycan tarixində çox önəmli bir dönüş nöqtəsi olmuşdur[19]. Belə ki, bu dövrdə səlcuq türklərinin Azərbaycana kütləvi axını nəticəsində türk etnik komponentləri kəskin şəkildə artmış və onlarla yerli türklər arasında gedən etnik konsolidasiya və müəyyən dərəcədə demoqrafik proseslərin inkişafı burada türklərin dominant bir etnosa çevrilməsinə gətirib çıxarmışdır. Yəni, ən azı son min il ərzində türklər Azərbaycanda əhalinin böyük əksəriyyətini təşkil etmiş və hakim etnos olmuşdur. Qədim dövrlərdən Azərbaycan Respublikasının ərazisində əsasən Hind-Avropa dillər ailəsinin İran qrupuna və Qafqaz dillər ailəsinin Dağıstan qrupuna aid olan başqa etnoslar da yaşayırdı. VIII yüzillikdə alban-xristian kilsəsinin erməni kilsəsinin tabeçiliyinə keçməsi erməni dilinin yerli xristian-alban etnik qrupları arasında öncə kilsə dili kimi, sonra isə yazı və danışıq dili kimi yayılmasına gətirib çıxartdı. Bu prosesin yüzillərlə davam etməsi və xristian-albanların qismən də olsa Bizansdan gəlmə ermənilərlə qohumluq əlaqələrinə girməsi isə son nəticədə Azərbaycanın bəzi rayonlarında ermənidilli kiçik əhali qruplarının forma-

[19] Большая Советская Энциклопедия (третье издание), 1-ci cild, Москва – 1969, səh. 250-251, 277-278, Советская Историческая Энциклопедия, 1-ci cild, Москва – 1961, səh. 230-235, 265

laşmasına da səbəb oldu[20].

XI yüzillikdən başlamış XIX yüzilliyin əvvəllərinə qədər Azərbaycan Respublikasının ərazisi əsasən Güney Azərbaycanla birlikdə indiki İran ərazisini də əhatə edən böyük türk dövlətlərinin tərkibində olmuşdur; daha doğrusu, Sovet yazılı mənbələrində «Persiya» və ya İran kimi göstərilən, əslində isə Azərbaycan türklərinin hakim etnos olduğu və azərbaycanlı şah sülalələrinin və tayfalarının adını daşıyan (Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s.) dövlətlərin təməlini bütöv Azərbaycan ərazisi təşkil edirdi.

Həmin dövrdə müxtəlif əhali qruplarının Azərbaycandan İrana və İrandan Azərbaycana köçməsi Azərbaycanın etnik tərkibinə xeyli təsir göstərmişdir; bu miqrasiyaların bir hissəsi o zamanki şahların fərmanı ilə siyasi və bəzən də iqtisadi maraqların təmin edilməsi üçün məcburi olaraq aparılırdı. Bəzən İrandan Azərbaycana köçürülənlər arasında irandilli qruplar çoxluq təşkil edirdi; bu da Azərbaycan əhalisinin etnik tərkibində onların xüsusi çəkisinin artmasına gətirib çıxarırdı.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalına qədərki dövrdə əhalinin etnik tərkibinin formalaşmasında etnolinqvistik, konsolidasiya və assimilyasiya prosesləri önəmli rol oynamışlar. Şübhəsiz ki, azərbaycanlılar və bir

---

[20] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Баку – 1991, səh. 198-245

çox yerli xalqlar arasında belə proseslərin intensiv inkişafına dini mənsubiyyətin eyniliyi həlledici təsir göstərmişdir: məlumdur ki, artıq VIII yüzillikdə Azərbaycan əhalisinin böyük əksəriyyəti (bəzi xristian təriqətli qruplar istisna olmaqla) islam dinini qəbul etmişdi. Dini mənsubiyyət birliyi kiçik etnosların azərbaycanlılar tərəfindən assimilyasiyasına və Azərbaycan türklərinin öz içərisindəki etnoqrafik qrupların bütöv etnos kimi konsolidasiyasına təkan vermişdir[21]. Eyni zamanda Azərbaycanda xristian təriqətli etnik qrupların ermənilərlə assimilyasiyası prosesləri də getmiş və çar Rusiyası dövründə daha intensiv xarakter daşımışdır. Azərbaycanda, həmçinin Qafqazın bir çox bölgələrində Azərbaycan dili etnoslararası əsas ünsiyyət dilinə çevrilmişdi. Bu da son nəticədə kiçik etnik qrupların dil assimilyasiyasına uğramasına gətirib çıxarırdı. Belə assimilyasiyaya uğrayanlar ilk növbədə azərbaycanlıların çoxluq təşkil etdiyi rayonlarda yaşayan müsəlman təriqətli etnik qruplar idi. Məsələn, Azərbaycanda, əsasən də Şirvan bölgəsində kiçik qruplarla məskunlaşmış ərəb əhalisi qədim dövrlərdən ikidilli olmuş, sonra isə tədricən öz dillərini unutmuş və başqa etnik qruplarla müqayisədə daha sürətlə və bütövlüklə assimilyasiya olmuşlar[22]. Hal-hazırda Azər-

[21] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Баку – 1991, səh. 403-405

[22] Yenə orada, səh. 401-403

baycanda ərəb etnonimli adları olan onlarla yaşayış məntəqəsi vardır. Ancaq XIX yüzilliyin sonlarından başlamış Azərbaycanda ərəb dilinin daşıyıcısı və ya özünü ərəb hesab edən əhali qrupları qeydə alınmamışdır. İran dil qrupuna aid olan tatlar, tatdilli dağlılar, lahıclar və parslar[23] (Suraxanının avtoxton əhalisi) da azərbaycanlılarla daha intensiv şəkildə assimilyasiya olunan etnik qruplar sırasındadır. Belə ki, əsasən kiçik areallarla məskunlaşmış və onları əhatə edən azərbaycanlılardan heç bir mədəni-dini fərqləri olmayan bu qrupların da əksəriyyəti keçmiş dövrlərdən ikidilli olmuşdur. Bu etnik qruplardan fərqli olaraq, Azərbaycanın cənub-şərqində və İranın qonşu rayonlarında yaşayan talışların, eləcə də tatların xeyli hissəsinin və bəzi başqa müsəlman təriqətli kiçik etnosların azərbaycanlılarla assimilyasiyası başlıca olaraq Sovet dövründə vüsət almışdır. Bu da həmin etnosların daha kompakt şəkildə və ya ucqar bölgələrdə yaşaması və ya coğrafi yerləşməsi (çətin gedilən dağ kəndlərində yaşamaları) ilə bağlı olaraq, azərbaycanlılarla mədəni-məişət və iqtisadi əlaqələrinin intensiv olmaması ilə izah edilir. Bununla yanaşı, onu da qeyd edək ki, Dağlıq Qarabağ bölgəsində, eləcə də Azərbaycanın şimalındakı bəzi məntəqələrində yaşayan və Dağıstan dil qrupuna aid olan xristian təriqətli kiçik etnik qruplar dini mənsubiyyət birliyi olan

[23]Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Баку – 1991, səh. 181

ermənilərlə daha sıx təmasda olmuş və erməni dilinin assimilyasiyasına uğramışlar. Artıq XIX yüzilliyin ortalarına doğru onların əksəriyyəti yalnız erməni dilində danışırdılar. Bu xristian etnik qruplardan fərqli olaraq, Şirvanda yaşayan xristian təriqətli tatların ermənilərlə assimilyasiyası Çar Rusiyası dövründə başlamış və Sovet dövründə başa çatmışdır [24]. Ancaq Qəbələ və Oğuz rayonlarında yaşayan xristian təriqətli udilər (kiçik bir qrupu da Gürcüstanın Kvareli rayonunda məskunlaşmışlar) yüz illərlə erməni dilinin və mədəniyyətinin təsiri altında olsalar da öz etnik kimliklərini və dillərini qoruyub saxlaya bilmişlər.

Beləliklə, bütövlükdə rus işğalına qədərki dövrdə Azərbaycanda etnik proseslər əsasən etnolinqivistik proseslərdən ibarət idi. Bir çox etnik qruplar dil assimilyasiyasına uğrasalar da hələ öz etnik kimliklərini qoruyub saxlamışdılar. Ona görə də Rusiyaya qatıldığı anda Azərbaycanın etnik azlıqları daha mozaik tərkibə malik idilər.

XVIII yüzilliyin sonlarında hüquqi baxımdan Qacarlar dövlətinin ərazisi sayılan, ancaq Nadir şah Əfşarın ölümündən sonra (1747-ci il) mərkəzi hakimiyyət zəif olduğu üçün müstəqil xanlıqlara bölünmüş Azərbaycan ərazisinin şimal hissəsi XIX yüzilliyin əvvəllərində rus

[24] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Баку – 1991, səh. 185-186

ekspansiyasına məruz qaldı[25]. Azərbaycan xalqının və Qacarlar dövlətinin həmin dövrdə rus işğalına qarşı apardığı müharibələrdə Rusiya qalib gəldi. Nəticədə 1813-cü və 1828-ci illərdə Rusiya ilə Qacarlar dövləti arasında bağlanan müqavilələrə görə, indiki Ermənistan Respublikasının ərazisini əhatə edən İrəvan xanlığı da daxil olmaqla bütün Şimali Azərbaycan xanlıqları Rusiya imperiyasının hakimiyyəti altına keçdi. Azərbaycanın siyasi həyatında dönüş nöqtəsi olan bu faciəli tarixi hadisələr Azərbaycan əhalisinin milli tərkibində köklü dəyişikliklərin başlanğıcı oldu. Əvvəla, 1804-1813-cü və 1826-1828-ci illəri əhatə edən bu uzun müddətli müharibələrdə hərbi texnikasına görə qat-qat güclü olan rus ordularına qarşı ölüm-dirim mübarizəsi aparan Azərbaycanın müsəlman əhalisi böyük itkilər verdi. O biri tərəfdən demək olar ki, müsəlmanların hər 3-4 nəfərindən biri qırğınlardan və mal-dövlətlərinin qarət olunmasından canını qurtarmaq üçün Güney Azərbaycana qaçmışdılar ki, onların da bir hissəsi orada məskunlaşaraq bir daha geri dönmədilər[26]. Əvəzində isə Rusiya hökümətinin təşəbbüsü ilə İranda yaşayan ermənilərin sistemli şəkildə Azərbaycana köçürülməsi prosesi başlandı. Belə ki, bu müharibələrdə xristianlıq faktoru əsasında müsəlmanlara xəyanət edərək rus ordularına hər cür yardım edən

---

[25]Современный Иран (справочник), Москва1975, səh. 133-135
[26] История Азербайджана, 2-ci cild, Bakı – 1960, səh. 22-23

ermənilər təbii olaraq rusların müttəfiqlərinə çevrilmişdilər. Ona görə də Rusiya Qafqazda möhkəmlənmək üçün ermənilərin simasında özünə sadiq olan sosial bazanın formalaşdırılmasına çalışırdı. Eyni zamanda Rusiya ermənilərin hesabına Türkiyə və İran kimi iri müsəlman ölkələrinə qarşı ekspansiyanist niyyətlərini gerçəkləşdirmək üçün zəmin yaratmağı və erməniləri səfərbər edərək, siyasi-hərbi gücə çevirməklə onlardan istifadə etməyi planlaşdırırdı.

1813-1825-ci illərdə ermənilər əsasən Qarabağın müsəlmanlardan boşalan ərazilərinə və xristian təriqətli etnik qrupların yaşadıqları başqa bölgələrə köçürülürdü. 1828-ci ildə bu proses daha da gücləndirildi və sistemli şəkil aldı. Belə ki, Rusiya çarı İrəvan və Naxçıvan xanlıqları ərazisində **«Erməni vilayəti»** (rus dilində: **«Армянская область»**) adlı inzibati bölgənin yaradılmasına fərman vermişdi. Türkmənçay müqaviləsinə görə İran hökuməti rus emissarlarının İran ərazisində sərbəst olaraq ermənilər arasında təbliğat kompaniyası aparmasına şərait yaratmış və ermənilərin Azərbaycana, müsəlmanların isə İrana köçməsinə heç bir maneçilik törətməyəcəyini öhdəsinə ğötürmüşdü[27]. Ermənilərin Azərbaycana köçürülməsini stimullaşdırmaq məqsədilə Rusiya hökuməti köçməyə qərar verən hər bir erməni ailəsinə yol xərci

---

[27] Глинка С. Описания переселения армян адзербиджанских в пределы России, М. 1831, səh. 44-45

ödəyir, köçəcəyi ərazidə torpaq sahəsi ayırır, mal-mülk sahibi olmaq üçün maddi güzəştlər edir və hətta, İranda qoyub getdiyi ev-eşiyinin və torpaq sahəsinin 5 il ərzində satdırılmasına hüquqi şərait yarat-maqla kompensasiya olunması qayğısına da qalırdı[28]. 1829-cu ildəki Rusiya-Türkiyə müharibəsindən sonra Türkiyədən də ermənilərin Qafqaza axını başlandı və sonrakı rus-türk müharibələrində bu proses daha geniş miqyas aldı. Ancaq qeyd edək ki, təkcə 1828-1829-cu illərdə İran və Türkiyədən gələn ermənilərin sayı 200 min nəfərdən çox idi[29]. Onların yarıya qədəri «Erməni vilayəti»ndə, qalan hissəsi isə Azərbaycanın başqa bölgələrində və Gürcüstanda məskunlaşdılar. Eyni dövrdə keçmiş İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərindən on minlərlə müsəlman ailəsi Güney Azərbaycana və Türkiyəyə köçüb getdilər. Hal-hazırda Türkiyənin Kars və İqdır vilayətlərində yaşayan əhalinin bir çoxunu əslən Azərbaycandan olan soydaşlarımız təşkil edir[30]. Həmçinin İranın Maku və Xoy bölgələrində yaşayan və Qaradağlılar kimi tanınan əhali və Urmiya gölünün cənubunda kompakt şəkildə yaşayan qarapapaxlar 1813-1828-ci illərdə Şimali Azərbaycandan

---

[28] Глинка С. Описания переселения армян адзербиджанских в пределы России, М. 1831, səh. 97-111

[29] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказие, СПБ, 1911, səh. 59

[30] Брук С.И. Население мира (этнодемографический справочник), Москва 1986, səh. 432-433

köçüb getmiş azərbaycanlılardır [31]. Şübhəsiz ki, bütün bunların nəticəsi olaraq Azərbaycanın milli tərkibində ermənilərin xüsusi çəkisi kəskin şəkildə yüksəldi; o cümlədən «Erməni vilayətində» artıq 1832-ci ildə ermənilər əhalinin 50%-ni təşkil edirdi [32]. Halbuki rus işğalı ərəfəsində bu bölgədə ermənilər əhalinin 15%-ni təşkil edirdi [33]. Beləliklə, Rusiya tərəfindən himayə edilən ermənilər Azərbaycanda imtiyazlı bir etnosa çevrildilər. Təbii ki, bu da öz növbəsində onların demoqrafik inkişafına və başqa yerli xristian etnik qrupların daha sürətlə erməniləşməsinə təkan verdi.

1840-cı ildə Rusiyada inzibati ərazi bölgüsü üzrə aparılan dəyişikliklər nəticəsində «Erməni vilayəti» ləğv edildi və 1849-cu ildə Erivan quberniyasına çevrildi. Azərbaycanın digər əraziləri isə Çar Rusiyasının sonuncu inzibati bölgüsünə görə əsasən Bakı və Yelizavetpol (Gəncə) quberniyalarının tərkibində idi. Bu ərəfədə Azərbaycana rus əhalisinin köçürülməsi prosesi də sistemli şəkil aldı. 1833-1843-cü illər ərzində intensiv olaraq Rusiyanın mərkəzi quberniyalarından və Ukraynadan

[31] Брук С.И. Население мира (этнодемографический справочник), Москва 1986, səh. 360-361

[32] Шопен Н. Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи, СПБ,1852, səh. 635-642

[33] Safarov R.F. Batı Azerbaycan: Etno-politik degişiklikler ve Ermenistanın kurulması (1801-1921) II Türkler. Ankara – 2002, 19-cu cild, səh. 167-174

«duxobor», «molokan» və s. kimi adlanan rusların konfessional qrupları Azərbaycana köçürüldü. Bu dövrdə Azərbaycanda 20-yə yaxın rus kəndi salındı[34]. 1840-ci illərin ortalarında Azərbaycanda daha üç rus kəndi – Astraxanka, Andreyevka və Slavyanovka kəndləri yarandı[35]. Hələ 1819-cu ildə Yelizavetpol qəzasında Vürtemberq knyazlığından köçüb gəlmiş almanların iki yaşayış məntəqəsi salındı – Yelenendorf və Annenfeld[36].

Azərbaycan ərazisinin ruslar tərəfindən kolonizasiyası 1860-1890-cı illərdə daha geniş miqyas aldı. Özəlliklə də 1890-cı illərdə Azərbaycana köçürülən rusların, eləcə də ukraynalıların sayı daha çox idi. Qısa dövr ərzində Azərbaycanda onlarla rus kəndi yarandı: Qazax qəzasında – Mixaylovka və Novıy Dilijan; Yelizavetpol qəzasında – İvanokva, Borisovka, Qolitsino, Varvarinovka; Göyçay qəzasında – Gümüşlü; Quba qəzasında – Astraxanka, Cebranı, Zubrovka; Lənkəran qəzasında – Andreyevka, Astraxanka, Novoqolovka, Pravoslavnoye, Petrovka, Prişib, Nikolayevka; və s[37]. Əksər hallarda bu kəndlərin salınması yerli əhalinin torpaqlarının zəbt olunması hesabına aparılırdı. Bu isə yerli əhalinin üsyanlarına səbəb olurdu. Üsyanların rus qoşunları tərəfindən amansızcasına

---

[34] История Азербайджана, 2-ci cild, Bakı – 1960, səh. 76
[35] Yenə orada: səh. 76
[36] Yenə orada: səh. 76
[37] История Азербайджана, 2-ci cild, Bakı – 1960, səh. 76, 188

yatırılması nəticəsində yerli əhali qırğınlara məruz qalırdı; İranla həmsərhəd olan bölgələrdə isə İrana köçüb gedənlər də az deyildi. Bu dövrdə Azərbaycanda rusların, ermənilərin, eləcə də Avropa əsilli bir sıra millətlərin nümayəndələrinin sürətlə artmasına təkan verən başqa faktor da var idi: bu da Bakıda neft sənayesinin canlanması və ilə bağlı olaraq, Azərbaycanda kapitalizmin intensiv inkişafı ilə şərtlənən miqrasiya prosesləri idi. Artıq XIX yüzilliyin son onilliklərində adları çəkilən etnosların, xüsusilə də rusların Bakıya axını kütləvi xarakter daşıyırdı. Bütün bunlar Azərbaycan əhalisinin etnik tərkibində gəlmə etnosların xüsusi çəkisinin durmadan artmasına gətirib çıxarırdı.

Azərbaycan əhalisinin etnik tərkibinin dinamikasının təhlili üçün 1897-ci il Ümumrusiya əhali sayımı materiallarını başlanğıc kimi götürmək olar. Bəzi çatışmazlıqlara baxmayaraq, bu əhali sayımı demoqrafik və etnoqrafik araşdırmalar üçün Azərbaycan tarixində ilk yetkin etnostatistik mənbədir; onun materialları əsasında XX yüzilliyin astanasında Azərbaycanın etnodemoqrafik durumunu yetərli səviyyədə ətraflı müəyyən etmək mümkündür.

1897-ci il əhali sayımının əsas çatışmazlığı etnik mənsubiyyətin deyil, ana dilinin qeydiyyata alınması idi. Halbuki Azərbaycanda gedən dil assimilyasiyası prosesləri heç də həmişə tam etnik assimilyasiyaya gətirib çıxarmırdı.

Bundan başqa, 1897-ci il sayımının materiallarında Azərbaycan dili ayrıca dil kimi tanınmayaraq «tatar dilinə» aid edilmiş və bu dilin tərkibinə qatılmışdı; azərbaycanlılar isə adətən «Azərbaycan tatarları» və ya «Zaqafqaziya tatarları» kimi adlandırılırdı. Ona görə də 6 saylı cədvəldə göstərilən azərbaycanlıların sayına o zamana qədər Volqaboyundan köçüb gələrək Bakıda məskunlaşmış bir neçə min tatar da daxildir. Bütün bunlar 1897-ci il əhali sayımı materiallarının 1926-cı ildə keçirilən əhali sayımının materialları ilə müqayisəli şəkildə təhlil edilməsini tələb edir. Bir şərtlə ki, 1897-ci ilin məlumatları Azərbaycan Respublikasının sərhədləri çərçivəsinə uyğun şəkilə gətirilsin. Belə ki, 1897-ci ilin materiallarında Azərbaycanın indiki ərazisini Bakı quberniyası bütünlüklə; Zəngəzur və Qazax qəzalarının bir hissəsi çıxılmaqla bütün Yelizavetpol quberniyası; Zaqatala dairəsinin əsas hissəsi; Tiflis quberniyasının Tiflis, Siqnax və Borçalı qəzalarının bir hissəsi; Erivan quberniyasının Naxçıvan qəzasının əsas hissəsi, Şərur-Dərələyəz və Erivan qəzalarının bir hissəsi əhatə edirdi. Ancaq 1897-ci il sayımının bütün materiallarını 1926-cı il sərhədlərində tam dəqiqləşdirmək mümkün olmadığı üçün hesablanılaraq müəyyən edilmiş bəzi rəqəmlər 6 saylı cədvəldə mötərizədə verilmişdir.

6 saylı cədvəlin təhlilinə keçməzdən öncə onu da qeyd etmək lazımdır ki, 1926-cı ilin əhali sayımında Azərbaycan dili «türk» dili kimi və azərbaycanlılar «türk»

*Cədvəl 6.*

**1897-ci və 1926-cı illərin əhali sayımları üzrə Azərbaycan əhalisinin etnik strukturu**

| milliyyətlər | 1897-ci il[38] (ana dili) | | 1926-cı il[39] | | | |
|---|---|---|---|---|---|---|
| | | | «milliyyət» | | «ana dili» | |
| | min nəfər | % | min nəfər | % | min nəfər | % |
| azərbaycanlılar | (1117) | 61,8 | 1468,8 | 63,5 | 1431,8 | 63,1 |
| ermənilər | (299) | 16,6 | 284,4 | 12,3 | 278,8 | 12,3 |
| tatlar | 91,3 | 5,1 | 30,5 | 1,3 | 73,9 | 3,3 |
| ruslar | 87,9 | 4,9 | 220,6 | 9,5 | 254,4 | 11,2 |
| ləzgilər | 63,7 | 3,5 | 37,3 | 1,6 | 68,3 | 3,0 |
| avarlar | 35,0 | 1,9 | 19,1 | 0,8 | 18,3 | 0,8 |
| talışlar | 35,0 | 1,9 | 77,5 | 3,3 | 80,6 | 3,6 |
| gürcülər[40] | (10,5) | 0,6 | 9,5 | 0,4 | 10,7 | 0,5 |
| yəhudilər | 8,4 | 0,5 | 31,4 | 1,4 | 10,3 | 0,4 |
| Saxurlar[41] | 7,4 | 0,4 | 15,6 | 0,7 | 7,4 | 0,3 |
| kürdlər | (5,4) | 0,3 | 41,3 | 1,8 | 7,4 | 0,3 |
| ukraynalılar | 4,4 | 0,2 | 18,2 | 0,8 | 7,0 | 0,3 |
| başqaları | 41,7 | 2,3 | 60,4 | 2,6 | 21,2 | 0,9 |
| **bütün əhali** | **1806,7** | **100** | **2314,6** | **100** | **2270,1**[42] | **100** |

38 Первая всеобшая перепись населения Российской империи 1897 года: 61, 63, 69, 71 cildlər; Народное хозяство Азербайджанской ССР к 60-летию Великого Октября, Баку, 1977, səh. 7

39 Всесоюзная перепись населения 1926 года, Москва 1929, 14-cü cild

40 Meqrellər və acarlar da «gürcülər»in tərkibində verilmişdir.

41 1897-ci ilin materiallarında saxur dili yanlış olaraq dargin dili kimi qeydə alınmışdır.

42 Xarici vətəndaşlar nəzərə alınmamışdır. Onların sayı 44,5 min nəfər olmaqla əhalinin 1,9%-ni təşkil edirdilər.

kimi qeydə alınmışdılar. Yəni millətimiz öz tarixi etnonimi ilə qeydə alınmışdı. «Türk» etnoniminin bərpası isə 1918-ci ildə müstəqil Azərbaycan Cumhuriyyəti qurulduqdan sonra mümkün olmuşdu. 1937-ci ildə keçirilən və sonradan Stalin repressiyasına uğrayaraq gizli saxlanılan əhali sayımının materiallarında da azərbaycanlılar «türk» kimi qeydə alınmışdılar[43]. 1939-cu ildə keçirilən əhali sayımının materiallarında isə artıq «türk» etnonimi «azərbaycanlı» ilə əvəz edilmişdi. Beləliklə, 1938-ci ildə «Stalin milli siyasətinin» islahatları nəticəsində millətimizin etnonimi növbəti dəfə dəyişdirilərək indiki şəklini almışdır. Həmin cədvəldən göründüyü kimi, 1897-ci ildə Azərbaycan əhalisinin etnolinqivistik tərkibi kifayət qədər mürəkkəb idi. Etnik azlıqlar əhalinin 38,2%-ni təşkil edirdi. Ancaq gözə çarpan əsas cəhət əhalinin etnik tərkibində ermənilərin xüsusi çəkisinin o biri etnik azlıqlarla müqayisə olunmaz dərəcədə yüksək olmasıdır (16,6%). Yəni Çar Rusiyasının Azərbaycanda apardığı ermənipərəst milli siyasəti öz bəhrəsini vermişdi. Artıq Azərbaycanda hər 6 nəfərdən biri erməni idi. Bu siyasət şəhərlərdə və qəza mərkəzlərində özünü daha qabarıq şəkildə göstərirdi. Məsələn, 1897-ci ildə əhalisinə görə Azərbaycanın üçüncü şəhəri olan Şuşada ermənilər əhalinin 55,7%-ni təşkil edirdi; Zaqatala şəhərində, həmçinin qəza mərkəzləri olan Qazaxda və Cəbrayılda da

[43] Всесоюзная перепись населения 1937 г. – Вестник статистики, 1990, №7, səh. 77

ermənilər sayca azərbaycanlılardan çox idi. Gəncədə əhalinin 35,9%-ni, Naxçıvanda – 25,7%-ni, Bakıda – 17,1%-ni və Şəkidə - 16,9%-ni ermənilər təşkil edirdi. Yeri gəlmişkən onu da xatırladaq ki, 1897-ci ildə bizim hesablamalarımıza görə indiki Ermənistan Respublikasının ərazisində yaşayan 798 min nəfər əhalinin 62,4%-ni ermənilər, 30,7%-ni isə azərbaycanlılar təşkil edirdi. Ermənilərdən fərqli olaraq rusların Azərbaycanda kütləvi şəkildə məskunlaşması 1897-ci il əhali sayımı ərəfəsindəki 10-15 illik qısa bir dövrü əhatə edirdi. Ancaq buna baxmayaraq, cədvəldən göründüyü kimi ruslar artıq Azərbaycan əhalisinin milli tərkibində önəmli yer tuturdular. Ruslarla yanaşı bu dövrdə Azərbaycana miqrasiya edən ukraynalılar, gürcülərin və yəhudilərin bir hissəsi, tatarlar, eləcə də əsasən Bakıda məskunlaşan və az sayda olduqlarına görə cədvələ salınmayan digər gəlmə xalqlar (o cümlədən almanlar – 6,7 min nəfər, beloruslar – 3,5 min nəfər, polyaklar – 2,3 min nəfər, yunanlar – 0,7 min nəfər, mordvalılar – 0,6 min nəfər, litvalılar – 0,4 min nəfər, isveçlilər – 0,3 min nəfər və s.) hesabına Azərbaycan əhalisinin milli tərkibi xeyli zənginləşmiş oldu. Bu dövrdə Azərbaycan əhalisinin etnik tərkibində diqqəti çəkən cəhətlərdən biri də əhalinin böyük bir qrupunun (əhalinin 15%-i) yerli etnik azlıqlardan ibarət olmasıdır. O cümlədən, təkcə tat dilli etnik qrup əhalinin 5,1%-ni təşkil etməklə sayca Azərbaycanın üçüncü etnosu idi.

1897-ci ilin yanvarında və 1926-cı ilin dekabrında keçirilən əhali sayımları arasındakı 30 illik dövrdə Azərbaycan əhalisinin etnik tərkibi böyük dəyişikliklərə uğramışdır. Çünki bu dövr I Dünya Müharibəsi illərini, erməni terrorçularının Azərbaycanda apardığı etnik təmizləmə siyasətinə qarşı aparılan və xalq arasında **«Erməni-Müsürman davası»** kimi xatırlanan müharibə illərini, Azərbaycan Cümhuriyyətinin 1918-1920-ci illərdəki müstəqillik dövrünü və nəhayət, bolşevik işğalı ilə bağlı kataklizmləri əhatə edirdi. Bununla yanaşı onu da qeyd edək ki, 1905-1907-ci illərdə Rus çarizminin fitvası ilə baş verən və etnik zəmində qırğınlara gətirib çıxaran ermənilərin azərbaycanlılarla hərbi münaqişəsi istisna olmaqla, 1914-cü ilə qədərki dövr Azərbaycanda sosial-iqtisadi yüksəliş dövrü olmuşdur. Əsasən neft sənayesinin inkişafı ilə bağlı olan bu yüksəliş dövrü Azərbaycanda çağdaş milli ziyalı sinfinin, milli burjuaziyanın və proletariatın yetkin səviyyədə formalaşdığı bir dövr idi. Bütün bunlar Azərbaycanda demoqrafik inkişafa təkan vermiş və azərbaycanlıların etnoqrafik qrupları olan ayrımlar, şahsevənlər, əfşarlar, padarlar, tərəkəmələr, qarapapaxlar, kəngərlilər, qacarlar və s. konsolidasiyasının əsasən başa çatmasına şərait yaratmışdır.

1913-cü ildə Azərbaycan əhalisinin sayı 2.339 min nəfərə çatmışdı. Yəni 1897-ci ilə nisbətən əhalinin sayı 29,5% artmışdı. O cümlədən, Bakı şəhərində əhalinin sayı

3 dəfə artaraq, 334 min nəfərə çatmışdı. Rusiya imperiyasının 5 ən böyük şəhərindən birinə çevrilən Bakıda əhali başlıca olaraq, miqrasiya hesabına artmışdı. Belə ki, bu dövrdə Azərbaycanda əhali artımının böyuk bir hissəsi əhalinin mexaniki artımının payına düşürdü. Əsasən Bakıda məskunlaşan miqrantların əksəriyyətini ruslar təşkil edirdi. Ermənilərin sayı da miqrasiya hesabına yüksək templərlə artmış və Bakı əhalisinin milli tərkibində onların xüsusi çəkisi 17,5%-ə qədər yüksəlmişdi[44]. Eyni zamanda Bakıda yaşayan digər milli azlıqların da sayı dəfələrlə artmışdı. Məsələn, yəhudilərin sayı 5,7 dəfə artaraq, 10,8 min nəfər olmuş, ləzgilərin sayı isə min nəfərdən 8 min nəfərə qədər artmışdı. Bu dövrdə Bakıda azərbaycanlıların (İranlı soydaşlarımızı çıxmaq şərti ilə) sayının artımı 74% təşkil etməklə ümumi artımdan olduqca geri qalırdı. Bunun nəticəsində Bakı əhalisinin milli tərkibində onların xüsusi çəkisi 1897-ci ildəki 36,0%-dən, 1913-cü ildə 21,0%-ə enmişdi. Ancaq digər tərəfdən bu dövrdə Güney Azərbaycandan da on minlərlə soydaşımızın Azərbaycana miqrasiya etməsi mümkün olmuşdur. Onlar da əsasən Bakıda məskunlaşırdılar. Hətta, Bakıda «həmşəri» («həmşəhərli» mənasında) kimi adlandırılan Güneyli

---

[44] Перепись Баку 1913, часть III, Население, выпуск 1, гор. Баку, Баку – 1916 г. səh. 4-5. Перепись Баку 1913 года, часть III, Население, выпуск 2, Промыслово-заводский районъ, Баку – 1915 г. səh. 4-5

soydaşlarımızın «Həmşəri» və «Şahsevənlər» məhəlləsi adlı yaşayış massivləri formalaşmışdı. 1913-cü ildə Bakıda keçirilən əhali sayımının materiallarında «pers» kimi qeydə alınan Güneyli soydaşlarımızın sayı 47,9 min nəfər idi. Yəni Bakıda hər 6 nəfərdən biri «həmşəri» idi. Beləliklə, azərbaycanlıların Bakı əhalisinin etnik tərkibində xüsusi çəkisinin azalması güneyli soydaşlarımız hesabına xeyli dərəcədə kompensasiya olmuşdu. Ancaq Bakı əhalisinin bütün Azərbaycan əhalisi tərkibində xüsusi çəkisinin kəskin şəkildə artması şübhəsiz ki, bütövlükdə Azərbaycan əhalisinin etnik tərkibinin Bakıya uyğun şəkildə dəyişməsinə təsir göstərmişdir. Məsələn, 1897-1913-cü illər ərzində Azərbaycanda rusların sayı təxminən 2 dəfə artmış və əhalinin etnik tərkibində onların xüsusi çəkisi olduqca yüksəlmişdir. Ermənilərin sayı da yeni gəlmələr hesabına nisbətən daha yüksək templərlə artmış və əhalinin etnik tərkibində az da olsa onların da xüsusi çəkisi qalxmışdı. Azərbaycanlıların, eləcə də digər müsəlman xalqlarının sayı isə əsasən təbii artım hesabına artdığına görə əhalinin etnik tərkibində onların xüsusi çəkisi bir qədər aşağı düşmüşdü.

1914-1917-ci illərdə Rusiyanın I Dünya Müharibəsində aktiv iştirakı bütün imperiya ərazisində, o cümlədən, Azərbaycanda həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə və təbii ki, demoqrafik proseslərin pisləşməsinə səbəb oldu. Ancaq bu dövrün ən fərqli cəhəti isə Rusiya

Ordusu sıralarına yalnız Azərbaycanın xristian xalqlarının (bəzi istisnalarla), o cümlədən, ermənilərin kişi əhalisinin kütləvi şəkildə səfərbər edilməsi idi. Müsəlmanlardan əsgərlik əvəzinə rüsum alınırdı. Bu da şübhəsiz ki, xristian xalqları arasında müharibə ilə bağlı insan tələfatının çox olmasına və nigah əlaqələrinin pozulması səbəbi ilə doğumun kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarırdı. Ona görə də güman etmək olar ki, həmin illərdə Azərbaycanda rusların və ermənilərin sayı xeyli azalmış və uyğun olaraq, əhalinin etnik tərkibində onların xüsusi çəkisi aşağı düşmüşdü.

Qeyd edək ki, Çar hökumətinin siyasətinə uyğun olaraq, erməni millətçilərinin başçılığı ilə Qafqazın erməni əhalisi və Osmanlı dövlətinin ərazisində yaşayan ermənilər aktiv şəkildə Rusiya lehində müharibəyə cəlb edilmişdilər. Ermənilərdən təşkil olunmuş yüksək hərbi hazırlığı olan ordu bölmələri Rusiya tərəfində Osmanlı dövlətinə qarşı döyüşür və işğal olunmuş Türkiyə ərazilərində yerli müsəlman əhalisinə qarşı soyqırım siyasəti aparırdılar. 1917-ci ilin sonunda Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi ilə rus qoşunları hərb meydanlarını kütləvi şəkildə tərk etməyə başladılar və ölkə Vətəndaş müharibəsinə sürükləndi. Eyni zamanda Rusiya imperiyasının tərkibində olan xalqlar, o cümlədən, Azərbaycan xalqı milli azadlıq uğrunda hərəkata başladılar. Bu ərəfədə, birinci fəsildə qeyd edildiyi kimi Azərbaycanı «Böyük Ermənistan»

ideyası üçün hədəf seçmiş erməni-daşnak ideoloqlarının formalaşdırdığı erməni ordusu Erivan quberniyasında və indiki Azərbaycan ərazisində müsəlman əhaliyə qarşı soyqırım əməliyyatlarına başladı. Bakıda hakimiyyəti ələ keçirən bolşeviklərlə («26 Bakı Komissarı» kimi xatırlanır) ittifaqda olan daşnaklar 1918-ci ilin mart ayında Bakıda, Şamaxı və Quba qəzalarında etnik təmizləmə əməliyyatları apardılar. Bu əməliyyatlarda ermənilərlə birlikdə bolşeviklərin və yerli rus-molokan əhalisinin silahlı qruplaşmaları da iştirak etmişdir. Azərbaycanlıların ən kütləvi qırğınları isə 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində törədilmişdir. 1828-ci ildən bəri ordu təşkilatı olmayan və hərbi ənənələrini unutmuş olan azərbaycanlılar təcrübəli erməni hərbi maşınına qarşı hələ çox zəif idilər. Ancaq 1918-ci il mayın 28-də müstəqilliyini elan edən və Gəncədə hakimiyyətini qura bilən Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi tezliklə Osmanlı dövlətinin hərbi yardımı ilə Milli Ordunun yaradılmasına nail oldu və Osmanlı ordusu ilə birlikdə hərəkətə keçərək, Azərbaycanın daşnak-bolşevik işğalı altında olan ərazilərini azad etməyə başladı. 1918-ci il sentyabrın 15-də Bakı daşnak-bolşevik qara-güruhunun işğalından azad edildi. Bütün bu siyasi-hərbi proseslərin nəticəsi olaraq, Azərbaycanda əhalinin sayı 1913-cü ilə nisbətən 1920-ci ildə 387 min nəfər və ya 16,5% azalaraq, 1.952 min nəfər

olmuşdu[45]. 1920-ci ildə Azərbaycan yenidən bolşevik işğalına uğradıqdan sonra ölkənin əhalisi sonrakı iki il ərzində azalmağa davam etmiş və 1922-ci ildə 1.863 min nəfər olmuşdur[46]. Bu illər üçün Azərbaycan əhalisinin milli tərkibi haqqında məlumat olmadığı üçün etnoslar üzrə əhali itkisi və ya artımı haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq 1926-cı ilin etnostatistik məlumatları və bəzi başqa materiallar əsasında apardığımız hesablamalar təxmini də olsa, bir sıra nəticələr əldə etməyə imkan verir. Öncə onu qeyd edək ki, 1926-cı ilin məlumatlarından göründüyü kimi, bəzi müsəlman təriqətli etnik azlıqların etnik mənsubiyyətinə görə olan sayı ana dilinə görə olan sayından kəskin olaraq fərqlənir; bundan başqa bəzi etnik azlıqlar haqqında 1897 və 1926-cı illər üçün verilən məlumatlar arasında kəskin fərqlər vardır. Bu halların müxtəlif səbəbləri vardır və biz bu mövzuya dönəcəyik. Hələlik isə etnik zəmində aparılan soyqırımın nəticələrini üzə çıxarmaq və xətalarımızı minimuma endirmək məqsədi ilə hesablarımız Azərbaycanın bütün müsəlman əhalisini şərti olaraq bir xalq kimi qəbul etməklə aparılmışdır. Həm də unutmaq olmaz ki, erməni terrorçularının soyqırım əməliyyatları təkcə azərbaycanlılara qarşı deyil, bütün yerli müsəlman xalqlarına qarşı yönəlmişdi.

---

[45] Население СССР 1987 (статистический сборник), Москва – 1988, səh.11
[46] Yenə orada, səh.11

1897-ci ildə Azərbaycanda «müsəlmanların» sayı 1.375 min nəfər, ermənilərin sayı isə 299 min nəfər idi. 1917-ci ilin sonunda bizim hesablamalarımıza görə «müsəlman»-ların sayı 1.830 min nəfər, ermənilərin sayı isə Rusiya ordusunda müharibədə iştirak edən erməni əskərləri ilə birlikdə 390 min nəfərdən çox deyildi. 1918-1921-ci illər ərzində baş verən kataklizmlər nəticəsində Azərbaycanda «müsəlman»ların sayı azalaraq 1.550 min nəfər, ermənilərin sayı isə 250 min nəfər olmuşdur. Üstəlik onu da qeyd edək ki, sayını 1.550 min nəfər müəyyən etdiyimiz müsəlman əhalisinin təxminən 50-100 min nəfərini həmin illərdə Daşnak Ermənistanından qaçqın düşmüş azərbaycanlılar təşkil edirdi. Bizim hesabımıza görə, 1917-ci ilin sonunda indiki Ermənistan ərazisində 310 min nəfər azərbaycanlı yaşayırdısa, 1922-ci ildə həmin ərazidə cəmi 83 min nəfər azərbaycanlı qalmışdı. Yəni Ermənistanda daşnakların hakimiyyəti zamanı 227 min nəfər azərbaycanlı ya erməni terrorunun qurbanı olub, ya da Azərbaycana və qismən də Türkiyəyə köçüb gediblər. Beləliklə, 1918-1921-ci illərdə indiki Azərbaycan ərazisində yaşayan «müsəlman»ların sayı 330-380 min nəfər azalaraq, 1.450-1.500 min nəfər olmuşdur. Eyni dövrdə Azərbaycanda yaşayan ermənilərin sayı 140 min nəfər azalmışdır. Bu azalmanın bir hissəsini təbii ölümlə ölənlər və I Dünya Müharibəsində qırılan erməni əskərləri, bir hissəsini «müsəlman»lara qarşı hərbi əməliyyatlar zamanı ölən ermənilər, qalan

əksəriyyətini də Ermənistana miqrasiya edənlər təşkil edirdi. 1922-ci ildən başlayaraq, Azərbaycanda əhalinin sayı həm təbii artım, həm də yeni miqrantlar hesabına sürətlə artmağa başladı. 1926-cı ildə müsəlman əhalisinin sayı 1.708 min nəfər olmuşdu ki, bu da Azərbaycan əhalisinin 73,8%-nə bərabər idi. Halbuki 1897-ci ildə onlar əhalinin 76,2%-ni təşkil edirdi. Ermənilərin sayı 1922-1926-cı illərdə artaraq 284,4 min nəfər olmuşdu. Ancaq onların bütün əhalinin tərkibində xüsusi çəkisi 1897-ci ildəki 16,6%-dən 12,3%-ə qədər aşağı düşmüşdü. Müqayisə üçün göstərək ki, eyni dövrdə Ermənistan əhalisinin tərkibində azərbaycanlıların xüsusi çəkisi 30,7%-dən (1917-ci ildə – 28%) 10,2%-ə düşmüşdü. Belə ki, Ermənistanda 880,5 min nəfər əhalidən 89,7 min nəfəri azərbaycanlı idi. Ancaq maraqlıdır ki, onların 76,9 min nəfəri (əhalinin 8,7%-i) «türk» kimi (yəni azərbaycanlı kimi), 6,3 min nəfəri «qarapapax» kimi (ayrıca milliyyət kimi), 5 min nəfəri «pers» kimi və 1,5 min nəfəri «türk-osman» kimi qeydə alınmışdılar[47]. Halbuki bütün bu adlar altında siyahıya alınanlar eyni millətin nümayəndələri idi. Onların hamısının həmin əhali sayımında ana dillərinə görə eyni dilin, yəni Azərbaycan ("türk") dilinin daşıyıcıları kimi qeydə alınması da bunu bir daha sübut edir. Görünür ki, Ermənistan əhalisinin milli tərkibində azərbaycanlıların

[47] Всесоюзная перепись населения 1926 года, Москва – 1929, 14-cü cild.

xüsusi çəkisinin süni olaraq aşağı salınması bu respublikada azərbaycanlılar üçün milli muxtariyyət qurumunun yaradılması ehtimalının qarşısını almağa xidmət edirdi. Belə ki, artıq 1923-cü ildə Azərbaycanda ermənilər üçün «Dağlıq-Qarabağ Muxtar Vilayəti» yaradılmışdı.

Rus əhalisinin sayının dinamikası ermənilərlə müqayisədə bəzi oxşar cəhətləri olsa da olduqca fərqli idi. Belə ki, 1914-1920-ci illərdə I Dünya Müharibəsi və Vətəndaş müharibəsi ilə bağlı olaraq onların sayı xeyli azalmışdı. Ancaq Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk günlərdən başlayaraq, rusların Azərbaycana böyük axını başladı. Bolşevik Rusiyası Azərbaycanda neft sənayesinin və onunla bağlı sahələrin tezliklə inkişaf etdirilməsində çox maraqlı idi. Bu marağın gerçəkləşdirilməsi isə işçi qüvvəsinə olan tələbatın yerli əhali hesabına deyil, məhz Rusiyadan sövq edilən miqrantlar hesabına təmin edilməsi əslində Azərbaycanın ruslaşdırılması siyasətinə xidmət edirdi. 1920-1926-cı illəri əhatə edən qısa bir dövr ərzində Rusiyadan Azərbaycana miqrasiya edənlərin sayı 150 min nəfər idi. Bu dövrdə ana dili rus dili olanların sayı 2,5-3 dəfə artmış, onların əhalinin etnik tərkibində xusüsi çəkisi isə 1897-ci ildəki 4,9%-dən yüksələrək, 11,0%-ə çatmışdı.

Yerli (avtoxton) etnik azlıqların əhalinin etnik tərkibində uğradığı dəyişikliklərə gəldikdə isə yuxarıda

qeyd etdiyimiz kimi kəskin təzadlar müşahidə edilir. Məsələn, 1897-ci ilə nisbətən sayı xeyli azalmış olan tatdilli əhalinin əksəriyyəti 1926-cı ildə milliyyətcə «türk» kimi qeydə alınmışdı. Eyni təmayül ləzgilərdə, həmçinin buduxlarda, krızlarda və xınalıqlarda (“ketlərdə”) da müşahidə edilməkdədir. Belə ki, 1926-cı ildə ana dili ləzgi dili olanların yalnız 54,6%-i (37,3 min nəfər) milliyyətcə ləzgi kimi, qalanı isə «türk» kimi qeydə alınmışdılar. Avarlarda isə avardillilərin sayında kəskin azalma getsə də milliyyətcə avar kimi qeydə alınanların sayı onlardan bir qədər çox olmuşdur. Saxurlarda ana dilinin daşıyıcılarının sayı dəyişməz qalmış və milliyyətcə saxur olanların sayı ikiqat çox olduğu üzə çıxmışdır. Saxurlarda və qismən də avarlarda qeyd etdiyimiz halları etno-linqivistik proseslərin nəticəsi kimi dəyərləndirmək olar. Ancaq tatların, ləzgilərin və s. etnik qrupların o dövrdə özlərini milliyyətcə «türk» kimi (yəni azərbaycanlı kimi) qeydə alınmasına meylli olmaları bizcə stimullaşdırıcı amillərlə və qismən də etnik assimilyasiya ilə izah edilə bilər. Kürdlərdə isə bu meyllərin tam əksi müşahidə edilməkdədir. Belə ki, 1926-cı ildə cəmi 7,4 min nəfər olan kürddilli əhalinin sayı milliyyətcə kürd kimi qeydə alınanlardan 5,6 dəfə az idi. Başqa sözlə, kürd kimi qeydə alınanların 83%-nin ana dili Azərbaycan dili idi. Xatırladaq ki, 1897-ci ildə də kürddilli əhalinin sayı cəmi 5,4 min nəfər idi. Bu rəqəmlərdən belə nəticəyə gəlmək olar ki, artıq XIX yüzilliyin sonunda

Azərbaycanda yaşayan kürdlərin əksəriyyəti kürd dilini unutsa da öz etnik kimliklərini qoruyub saxlamışdılar. Ancaq nəzərə almaq lazımdır ki, dilin assimilyasiyası prosesi adətən bir etnosun başqa etnosla sıx təmasda olduğu zaman birinin digərinin içərisində azlıqda qalması nəticəsində baş verir. Halbuki 1926-cı ilin əhali sayımına görə indiki Kəlbəcər, Laçın və Qubadlı rayonlarını əhatə edən və «Kürdüstan» qəzası adlandırılan o zamanki inzibati bölgədə 51,4 min nəfər əhalidən 72,3%-ni kürdlər təşkil edirdi. Üstəlik onu da nəzərə alsaq ki, bu dağlıq bölgə başqa azərbaycandilli bölgələrdən coğrafi baxımdan demək olar ki, təcrid olunmuşdur, onda kürd dilinin öz-özünə unudulmasını anlamaq mümkün deyildir. Digər tərəfdən, 1930-cu illərdə Azərbaycanda yaşayan kürdlərin etnoqrafiyasını tədqiq edən Sovet alimi A.Bukşpanın yazdığına görə, 1926-cı ildə «Kürdüstan» qəzasında əhalinin sayımı prosesində Azərbaycanın o zamanki Sovet hökumətinin nümayəndələri yerli əhali arasında təbliğat işi aparmış, hətta, onların özlərini kürd kimi qeydə aldırması üçün maddi cəhətdən stimullaşdırmışlar[48]. Belə ki, o dövrdə Sovet hökuməti «Qırmızı Kürdüstan» adlı kürd muxtariyyətinin qurulmasına çalışırdı. Görünür ki, buradan məqsəd: Dağlıq-Qarabağ vilayəti ilə Ermənistan Respublikasını coğrafi baxımdan ayıran bu bölgəyə etno-siyasi rəng verməklə gələcəkdə Azərbaycandan qoparılması üçün siyasi zəmin

[48] Букшпан А. Азербайджанские курды, Баку – 1932

yaratmaq idi. Onu da qeyd edək ki, Çar Rusiyası zamanı və Azərbaycan Cümhuriyyəti dövründə Zəngəzur qəzasının bir hissəsi olan bu bölgə yalnız Sovet hökuməti qurulduqdan sonra «Kürdüstan» kimi adlandırılırdı. Beləliklə, bizim qənaətimizə görə 1926-cı ilin məlumatlarında kürdlərin sayı süni olaraq şişirdilmişdi. Talışların da sayının bu dövrdə kəskin şəkildə artması diqqəti çəkən cəhətlərdən biridir. Ancaq cədvəldən göründüyü kimi, talışdilli əhalinin sayı heç də milliyyətcə talış kimi qeydə alınanlardan az deyildi. Hətta, ana dili talış dili olan 3 min nəfər «türk» kimi qeydə alınmışdı. 30 illik dövrdə (1897-1926 cı illər) talışdilli əhalinin sayı 2,3 dəfə artmış və Azərbaycanın etnik tərkibində onların xüsusi çəkisi 2 dəfəyə yaxın yüksəlmişdi.

Nəticədə talışlar ruslardan və ermənilərdən sonra 3-cü etnik azlığa çevrilmişdilər. Eyni zamanda qeyd edək ki, o dövrdə talışlar Azərbaycanda baş verən sosial-siyasi kataklizmlərdən bir qədər kənarda qalmış olsalar da onların sayının təbii artım hesabına bu qədər çoxalması şübhə doğurur. Belə ki, həmin dövrdə əhalinin doğum göstəriciləri yüksək olsa da ölüm göstəriciləri də yüksək idi. Özəlliklə də uşaq ölümünün çox yüksək olması təbii artımın aşağı düşməsinə həlledici təsir göstərirdi. Onu da göstərək ki, talışların yaşadığı Lənkəran qəzasında həmin dövrdə azərbaycanlıların sayı 31,1% artmışdı, bütövlükdə isə bu qəzanın müsəlman əhalisinin sayı 57,3% artmışdı.

Yəni, azərbaycanlıların sayının artım tempi talışlardan 7 dəfə geri qalırdı. Həmin bölgədə mədəni-məişət xüsusiyyətlərinə görə bir-birindən demək olar ki, fərqlənməyən bu iki xalqın təbii artımında belə fərqlərin olması mümkünsüzdür. Bütün bunlar göstərir ki, 1897-ci və ya 1926-cı ilin əhali sayımında bu bölgədə də əhalinin milli mənsubiyyətinin qeydiyyata alınmasında ciddi xətalar olmuşdur.

1926-cı ildən sonrakı dövrlərdə əhalinin etnik tərkibinin dinamikası baş verən sosial-iqtisadi dəyişikliklər və başqa önəmli sosial-siyasi və tarixi hadisələrlə sıx bağlı olan bir sıra özəlliklərə malik idi. Bunların araşdırılmasına keçməzdən öncə qeyd edək ki, bizim üçün başlıca statistik qaynaq olan əhali sayımlarının keçirildiyi illər Azərbaycan əhalisinin etnik tərkibinin dinamikasının izlənilməsi üçün qəbul etdiyimiz dövrlərin xronoloji çərçivələrini müəyyən etmişdir.

**1926-cı ilin dekabrında və 1939-cu ilin yanvarında keçirilmiş əhali sayımları arasındakı 12 illik dövrdə** (bax: cədvəl 7) əhalinin etnik strukturu yenidən güclü deformasiyaya uğramışdır. Sovet sisteminin qızğın quruculuq illərini, o cümlədən, kolxozlaşdırma və sənayeləşdirmə ilə bağlı total islahatların və siyasi repressiyaların keçirildiyi illəri əhatə edən bu dövrdə bəzi istisnaları çıxmaq şərti ilə bütün milliyyətlərin sayında artım müşahidə edilməkdədir. Ancaq bu dövrün əsas

*Cədvəl 7.*[49]

**Azərbaycan əhalisinin milli tərkibi (1926, 1939, 1959, 1970 və 1979-cu illərin əhali sayımlarına görə)**

| milliyyətlər | 1926-cı il | | 1939-cu il | | 1959-cu il | | 1970-ci il | | 1979-cu il | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | min nəfər | % | min nəfər | % | min nəf. | % | min nəfər | % | min nəf. | % |
| azərbaycanlılar | 1468,8 | 63,5 | 1870,5 | 58,4 | 2494,4 | 67,4 | 3776,8 | 73,8 | 4708,8 | 78,1 |
| ermənilər | 284,4 | 12,3 | 388,0 | 12,1 | 442,1 | 11,9 | 483,5 | 9,4 | 475,4 | 7,9 |
| ruslar | 220,6 | 9,5 | 528,3 | 16,5 | 501,3 | 13,6 | 510,1 | 10,0 | 475,3 | 7,9 |
| ləzgilər | 37,3 | 1,6 | 111,7 | 3,5 | 98,2 | 2,7 | 137,3 | 2,7 | 158,1 | 2,6 |
| avarlar | 19,1 | 0,8 | 15,7 | 0,5 | 17,3 | 0,5 | 30,7 | 0,6 | 36,0 | 0,6 |
| saxurlar | 15,6 | 0,7 | 6,5 | 0,2 | 2,9 | 0,1 | 6,2 | 0,1 | 8,5 | 0,1 |
| yəhudilər | 31,4 | 1,4 | 41,3 | 1,3 | 40,2 | 1,1 | 41,3 | 0,8 | 35,4 | 0,6 |
| tatarlar | 10,0 | 0,4 | 27,6 | 0,9 | 29,6 | 0,8 | 31,8 | 0,6 | 31,4 | 0,5 |
| ukraynalılar | 18,2 | 0,8 | 23,6 | 0,7 | 25,8 | 0,7 | 29,2 | 0,6 | 26,4 | 0,4 |
| günrcülər | 9,5 | 0,4 | 10,2 | 0,3 | 9,5 | 0,2 | 13,6 | 0,3 | 11,4 | 0,2 |
| tatlar | 30,5 | 1,3 | 41,0 | 1,3 | 5,9 | 0,2 | 7,8 | 0,2 | 8,8 | 0,1 |
| kürdlər | 41,3 | 1,8 | 6,0 | 0,2 | 1,5 | 0,0 | 5,5 | 0,1 | 5,7 | 0,1 |
| talışlar | 77,5 | 3,3 | 87,5 | 2,7 | - | - | - | - | - | - |
| başqaları | 50,4 | 2,2 | 47,3 | 1,5 | 29,0 | 0,8 | 43,3 | 0,8 | 45,3 | 0,8 |
| **bütün əhali** | **2314,6** | **100** | **3205,2** | **100** | **3697,7** | **100** | **5117,1** | **100** | **6026,5** | **100** |

[49] Всесоюзная пегепись населения 1926 г., 14-cü cild, Москва, 1929; Mərkəzi Dövlət Arxivi, fond 2511; Итоги Всесоюзной переписи населения 1959 г., Азерб. ССР. Москва, 1963; Итоги Всесоюзной переписи населения 1970 г., 4-cü cild; «Вестник статистики», №10, Москва, 1980.

fərqləndirici cəhəti rusların sayının hipertrofik şəkildə artması idi (2,4 dəfə). Bu dövrdə Azərbaycanda artan əhalinin 34,5%-i rusların payına düşürdü. Rusların Azərbaycana kütləvi axını nəticəsində əhalinin etnik tərkibində onların xüsusi çəkisi 9,5%-dən 16,5%-ə yüksəlmişdi. Yəni 1939-cu ildə Azərbaycanda hər 6 nəfərdən biri rus idi. Əhalisinin sayı 787,6 min nəfərə çatmış Bakı şəhərində (bütün ətraf qəsəbə və kəndlər daxil olmaq şərti ilə) isə ruslar əhalinin 43,6%-ni, azərbaycanlılar isə 27,4%-ni təşkil edirdilər (bax: cədvəl 12). Bu dövrdə azərbaycanlıların sayının artımı Azərbaycan Respublikası üzrə əhalinin artımından xeyli geri qalırdı. Halbuki 1926-cı ildə kürd kimi qeydə alınan azərbaycandilli əhali, həmçinin buduxlar, krızlar və xınalıqlar 1939-cu ildə azərbaycanlı kimi qeydə alınmışdılar. Eyni zamanda azərbaycanlıların sayı talışların və avarların bir qisminin, saxurların böyük bir hissəsinin etnik assimilyasiyası hesabına da artmışdı. Bütün bunlara baxmayaraq, əhalinin etnik tərkibində azərbaycanlıların xüsusi çəkisi 63,5%-dən 58,4%-ə qədər aşağı düşmüşdü. Çünki bu dövrdə ermənilərin də sayının artım templəri azərbaycanlılardan fərqli dərəcədə yüksək olmuşdur. Belə ki, əsasən təbii artım hesabına artan ermənilərin orta illik artım tempi 2,6% olduğu halda, azərbaycanlılarda bu göstərici 2% olmuşdur. Ona görə də əhalinin etnik tərkibində ermənilərin xüsusi çəkisi demək olar ki, dəyişməz qalmışdı. Ancaq bu, heç də o demək deyil

ki, azərbaycanlılarda doğum göstəriciləri və təbii artım ermənilərdən aşağı olmuşdur. Sadəcə bu dövrdə kolxozlaşdırma siyasəti və siyasi repressiyalar nəticəsində məhz azərbaycanlılar kütləvi şəkildə SSRI-nin şərq rayonlarına sürgün edilmiş və ya öldürülmüşlər (bizim hesablamalarımıza görə təxminən 180-200 min nəfər). Bu dövrdə əhalinin etnik tərkibində ləzgilərin və tatarların xüsusi çəkisinin xeyli yüksəlməsi müşahidə edilir. Tatarlarda bu artım onların Rusiyadan Azərbaycana axını ilə izah edilir. Ləzgilərin sayının bu dövrdə kəskin şəkildə artması isə (3 dəfə) əsasən 1926-cı ildə özlərini «türk» kimi qeydə aldıran ləzgi dilli əhalinin 1939-cu ildə öz gerçək etnik mənsubiyyətləri ilə qeydə alınmaları ilə izah edilə bilər. Eyni zamanda qeyd edək ki, Balakən rayonunda yaşayan avarların xeyli hissəsi, həmçinin Qax və Zaqatala rayonlarında yaşayan saxurların bir qismi yanlış olaraq 1939-cu ildə ləzgi kimi qeydə alınmışlar. Görünür ki, bu da Azərbaycanda bütün Dağıstan xalqlarının ənənəvi olaraq, ləzgi kimi tanınmasından irəli gəlirdi. Digər tərəfdən, bu dövrdə Dağıstandan Azərbaycana miqrasiya edən ləzgilər də olmuşdur.

Talışların sayının bu dövrdə çox aşağı templərlə artması isə yuxarıda söylədiyimiz kimi onların azərbaycanlılarla etnik assimilyasiyası ilə izah edilə bilər.

**1939-1959-cu illəri əhatə edən dövrdə** əhalinin etnik tərkibində baş verən dəyişikliklər əvvəlki dövrlərdəki

dəyişikliklərdən kəskin şəkildə fərqlənirdi. Bu dövrün demoqrafik tarixinin xarakterik cəhətləri 1941-1945-ci illlərdə SSRI-nin II Dünya Müharibəsində iştirakı ilə bağlı hadisələrlə və müharibənin nəticələri ilə sıx bağlı idi.

Müharibə illərində Azərbaycan Respublikası əhalisinin sayı kəskin şəkildə azalmışdı. Əvvəla, bu illərdə Azərbaycanın 600-650 min nəfər kişi əhalisi Sovet Ordusuna səfərbər edilərək hərb meydanlarına göndərilmişdi ki, onların da təxminən yarısı müharibədə həlak olmuşdu[50]. Bu isə öz növbəsində mövcud nigah əlaqələrinin pozulmasına gətirib çıxarır və yeni nigah cütlüklərinin yaranmasını yubadırdı. Bütün bunlar müharibə illərində doğumun kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu. Ən başlıcası isə əhalinin həyat səviyyəsinin pisləşməsi nəticəsində ölüm göstəricilərinin olduqca yüksəlməsi idi. 3/4-nü azərbaycanlıların təşkil etdiyi kənd əhalisi daha böyük itkilər vermişdi. Belə ki, kəndlərdə əsgərlik yaşına çatan bütün kişi əhalisi müharibəyə göndərilmişdi. Halbuki şəhərlərdə dövlət idarələrində və müəssisələrində işləyən kişi əhalisinin xeyli hissəsi hərbi səfərbərlikdən saxlanılmışdı. Ən əsası isə kəndlərdə talon sisteminin tətbiq edilməməsi idi. Bunların nəticəsi olaraq, kənd yerlərində əhali aclıq və xəstəlikdən kütləvi şəkildə qırılırdı.

---

[50] Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне, Баку – 1975, səh. 26

Müharibə dövründə Azərbaycan öz əhalisinin təxminən 1/4-ni itirmişdi. Müharibənin nəticəsi olaraq əhalinin yaş-cins tərkibində kəskin uyğunsuzluqlar yaranmışdı. Bütün bunlara baxmayaraq, müharibədən sonrakı illərdə doğumun səviyyəsi sürətlə artmağa başladı. Ölümün səviyyəsi də tibb sahəsində baş verən tərəqqi nəticəsində sürətlə enməyə başladı. Artıq 1955-ci ildə Azərbaycan əhalisinin sayı müharibədən əvvəlki səviyyəsinə gəlib çatmışdı. 1959-cu ildə isə əhalinin sayı 1939-cu ilə nisbətən 15,4% çox idi. Ancaq əhalinin milliyyətlər üzrə sayının artımı olduqca fərqli idi. Onların bəzilərinin sayı, hətta, 1959-cu ildə belə müharibədən əvvəlki səviyyəsinə gəlib çatmamışdı. Məsələn, rusların Azərbaycana miqrasiyası müharibədən sonrakı dövrdə də davam etməsinə baxmayaraq, onların sayı 1939-cu il ilə müqayisədə 1959-cu ildə 5,1% az idi. Məsələ burasındadır ki, müharibə ərəfəsində rusların yaş tərkibində hərbi səfərbərlik yaşında olanların xüsusi çəkisi olduqca yüksək idi. Çünki rus əhalisinin böyük əksəriyyəti qısa bir dövr ərzində Azərbaycana miqrasiya edən gənclərin hesabına formalaşmışdı. Ona görə də müharibədən sonra rusların cins tərkibində kəskin uyğunsuzluq yarandı və bu da onlar arasında doğum səviyyəsinin durmadan aşağı düşməsinə, ölümün isə bir qədər yüksəlməsinə səbəb oldu. O biri tərəfdən qeyd etmək lazımdır ki, müharibədən sonra azərbaycanlılarla ruslar arasında nigahlar geniş yayılmağa başlamışdı. Çünki həmin

dövrdə Azərbaycana miqrasiya edən rusların əksəriyyətini yüngül sənaye müəssisələrinə işləməyə gələn qızlar təşkil edirdi. Belə nigahlardan olan uşaqlar adətən atanın milliyyətini qəbul edirdilər.

Bu dövrün əsas xarakterik cəhəti əhalinin etnik tərkibində azərbaycanlıların xüsusi çəkisinin kəskin şəkildə yüksəlməsi idi. Belə ki, əgər bu dövrdə azərbaycanlıların sayı 624 min nəfər və ya 33,4% artmışdısa, milli azlıqların sayı, əksinə, 131 min nəfər və ya 9,8% azalmışdı (bax: cədvəl 7). Bunun bir sıra səbəbləri var idi. Əvvəla, qeyd edək ki, müharibə başlayan kimi Azərbaycanda yaşayan 23 min nəfər alman Sibirə və Qazaxıstana sürgün edilmişdi. İkincisi, 1959-cu ilin əhali sayımında bütün talışlar azərbaycanlı kimi qeydə alınmışdılar. Artıq onlar bir etnos kimi rəsmi sənədlərdə göstərilmirdi. Eyni zamanda bütün tatlar da azərbaycanlı kimi qeydə alınmışdılar. Ancaq onların əvəzinə yalnız tatdilli dağ yəhudiləri (5,9 min nəfər) tat kimi qeydə alınmışdılar. 7 saylı cədvəldən göründüyü kimi, ləzgilərin də sayı bir qədər azalmışdı. Çünki onların dağınıq yaşadığı və əhalinin çoz kiçik hissəsini təşkil etdiyi rayonlarda (məsələn, Ağdaş, Göyçay, Ucar, Kürdəmir və s.) azərbaycanlılarla etnik assimilyasiyası nəticəsində sayları kəskin şəkildə azalmışdı. Ləzgilərin kompakt yaşadığı ərazilərdə isə onların sayı xeyli artmışdı. Bizim hesablamalarımıza görə, bu süni və təbii etnotransformasiya prosesləri nəticəsində azərbaycanlıların sayı ən

azı 170 min nəfər və ya 9% artmışdı. Üçüncüsü, 1948-ci və 1952-ci illərdə Ermənistanda yaşayan azərbaycanlıların 100 min nəfərindən çoxu Azərbaycana deportasiya edilmişdi (bax: fəsil 1). Nəhayət, dördüncüsü, vaxtı ilə SSRİ-nin şərq rayonlarına sürgün edilmiş və Stalin öldükdən sonra bəraət qazanmış on minlərlə azərbaycanlı bu dövrdə vətənə dönmüşdülər. Bütün bunlar nəzərə alındıqda məlum olur ki, azərbaycanlıların bu dövrdə təbii artım hesabına artımı 14-15% olmuşdur. 1946-cı ilə qədər əhalinin kəskin olaraq azaldığını yada salsaq, bu artımın da yetərincə yüksək olduğu üzə çıxar. Bu dövrdə ermənilərin də sayı 14% artmışdı. Ona görə də əhalinin etnik tərkibində onların xüsusi çəkisi demək olar ki, dəyişməz qalmışdı. Bakıda isə ermənilərin sayı əsasən miqrasiya hesabına 43,4% artmış və şəhərin etnik tərkibində onların xüsusi çəkisi 17,2%-ə yüksəlmişdi. Qeyd edək ki, bu dövrdə az da olsa, Ermənistana, xüsusilə, İrəvan şəhərinə miqrasiya edən ermənilər də olmuşdur. Çünki Moskvanın yardımı ilə Ermənistan sosial-iqtisadi baxımdan daha sürətlə inkişaf etdirilirdi.

**1959-1970-ci illərin əhali sayımları arasındakı sonrakı dövr** Azərbaycanın demoqrafik tarixində ən uğurlu dövr olmuşdur. Belə ki, bu dövr özəlliklə də 1960-cı illərin əvvəlləri əhalinin təbii artımının ən yüksək olduğu dövr idi. Dünyanın demoqrafik tarixində «beybi-bum» adlanan dövrə təsadüf edən bu 11 ildə Azərbaycan

əhalisinin sayı 34,4% artmışdı. Doğumun yüksək olduğu bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda «beybi-bum»un başlıca səbəbi körpə ölümünün kəskin olaraq aşağı düşməsi idi. Ona görə də əhalinin təbii artımı başlıca olaraq, doğumun səviyyəsindən asılı idi. Bu dövrdə Azərbaycanın əsas milliyyətlərinin doğum əmsalları arasında böyük fərqlərin olması onların sayının artımında daha kəskin fərqlərin yaranmasına səbəb olmuşdur. Başqa sözlə bu dövrdə ilk dəfə olaraq, əhalinin etinik tərkibinin güclü dəyişikliklərə uğraması məhz demoqrafik faktorun həlledici təsiri altında baş vermişdir (bax: cədvəl 7 və 8).

***Cədvəl 8.***[51]

**1959-1960 və 1970-1971 illər üzrə Azərbaycanın əsas millətlərinin doğum əmsalı (1000 nəfər əhaliyə düşən doğulanların sayı)**

| milliyyətlər | **1959-1960-cı illər** | **1970-1971-ci illər** |
|---|---|---|
| azərbaycanlılar | 46,7 | 33,0 |
| ermənilər | 34,4 | 17,5 |
| ruslar | 22,4 | 15,1 |
| başqa milliyyətlər | 39,9 | 25,6 |
| bütün əhali | 41,5 | 29,2 |

[51] К.В.Мамедов. Rождаемость и ее факторы в Азербайджанской ССР. Ваку 1976, səh.32

Belə ki, 1959-1960-cı illərdə ruslar arasında doğum əmsalı ermənilərlə müqayisədə 1,5 dəfə, azərbaycanlılarla müqayisədə isə 2,1 dəfə aşağı olmuşdur. Bu millətlərdə ölüm səviyyələri arasındakı fərqlər isə çox kiçik olduğundan, təbii artım arasındakı fərqlər daha böyük idi. Məsələn, ruslarda təbii artım əmsalı azərbaycanlılarla müqayisədə 3,5 dəfə aşağı idi. Qeyd edək ki, bu dövrdə artıq Azərbaycandan kənara miqrasiya edən rusların sayı gələnlərdən çox idi. Bu deyilənlərin nəticəsi olaraq, 1959-1970-ci illər ərzində Azərbaycanda rusların sayı cəmi 1,8% artmışdı. Müqayisə üçün göstərək ki, bütün SSRİ-də onların sayı bu dövrdə 13,1% artmışdı. Ruslarla müqayisədə ermənilərin sayı gözə çarpacaq dərəcədə artmışdı. Ancaq artıq onlarda da təbii artım azərbay-canlılarla müqayisədə olduqca aşağı idi. Azərbaycandan kənara miqrasiya edən ermənilərin sayı da bir qədər artmışdı. Ona görə də bu vaxta qədər ermənilər əhalinin etnik tərkibində xüsüsi çəkisinin stabilliyinə görə fərqlənirdisə, bu dövrdə onlardakı bu göstərici xeyli aşağı düşərək, 11,9%-dən 9,4%-ə enmişdi.

Bu dövrdə Azərbaycanın bütün etnik azlıqlarının sayında artım müşahidə edilmişdir. Ancaq avarların, saxurların və özəlliklə də kürdlərin sayının kəskin şəkildə artması (orta hesabla 2 dəfə) başlıca olaraq, 1970-ci il əhali sayımında onların etnik mənsubiyyətinin daha düzgün qeydə alınması ilə bağlı idi. Bu dövrdə ləzgilərin, gürcü

kimi qeydə alınan ingiloyların və tat kimi qeydə alınan dağ yəhudilərinin sayının yüksək templərlə artması isə əsasən təbii artım hesabına mümkün olmuşdur. Yəhudilərin, tatarların və ukraynalıların demoqrafik göstəriciləri isə demək olar ki, ruslarla eyni idi. Ona görə də onların sayının artımı olduqca aşağı olmuş və əhalinin etnik tərkibində bu millətlərin xüsusi çəkisi xeyli aşağı düşmüşdü. Qeyd edək ki, 1970-ci ildə Azərbaycanda 8,5 min nəfər türk qeydə alınmışdı (cədvəldə göstərilməmişdir). Məsələ burasındadır ki, 1944-cü ildə Gürcüstandan Orta Asiya və Qazaxıstana deportasiya edilmiş Axıska türklərinin bir qrupuna 1958-ci ildən başlayaraq Azərbaycanda məskunlaşmağa icazə verilmişdi[52]. Onlar əsasən Saatlı rayonunda məskunlaşmışdılar.

Bu 11 ildə təbii artımın çox yüksək olması sayəsində azərbaycanlıların sayı 51,4% artmışdı. 1960-cı illərin əvvəllərində azərbaycanlıların sayının orta illik artım tempi 4%-dən çox olmuşdur. Orta Asiyanın yerli xalqlarını çıxmaq şərti ilə dünyanın heç bir ölkəsində indiyə qədər belə təbii artım qeydə alınmamışdır. Bu dövrdə Gürcüstandan və Ermənistandan Azərbaycana miqrasiya edən soydaşlarımızın sayı təxminən 25-30 min nəfər olmuşdur ki, bu da bütövlükdə azərbaycanlıların sayının

[52] Чингиз Нейман-Заде. Ахалцикские турки – трагедия длиною в 58 лет…II «Terra inkognita» Elm və informasiya jurnalı, Bakı 2002, səh. 17-18

artımına çox cüzi təsir göstərmişdir. Azərbaycanlıların əhalinin etnik tərkibində xüsusi çəkisi də intensiv olaraq artaraq 67,4%-dən 73,8%-ə qədər yüksəlmişdi. Bakı əhalisinin tərkibində isə azərbaycanlıların xüsusi çəkisi daha sürətlə artmış və 1959-cu ildəki 37,8%-dən 1970-ci ildə 46,3%-ə yüksəlmişdi. Xatırladaq ki, 1959-cu ildə olduğu kimi 1970-ci ildə də talışlar və tatlar azərbaycanlı kimi qeydə alınmışdılar. Əgər tatların əksəriyyəti artıq azərbaycanlılarla etnik assimilyasiyaya uğramış hesab edilə bilərdilərsə, talışlar haqqında bunu demək yanlış olardı. Talışların əksəriyyəti kompakt yaşadıqları üçün ana dillərini və etnik kimliklərini qoruyub saxlayırdılar. Bu baxımdan 1970-ci ildə (həmçinin 1979-cu ildə) azərbaycanlıların sayı bir qədər şişirdilmiş sayıla bilər.

1960-cı illərin ortalarından başlayaraq Azərbaycanda doğumun və uyğun olaraq təbii artımın səviyyəsi sürətlə aşağı düşməyə başladı. Bütün milliyyətlərdə, o cümlədən azərbaycanlılarda gedən bu prosesin bir sıra səbəbləri var idi. Bu səbəblər arasında ən başlıcası müharibə illərində (əsasən 1942-1945-ci illərdə) doğulan nəslin olduqca az saylı olması idi. Bu nəslin nigah yaşına çatması 1960-cı illərin ortalarına təsadüf etdiyi üçün həmin dövrdə nigahda olanların sayının artımı kəskin şəkildə aşağı düşdü. Buna uyğun olaraq doğumun səviyyəsi də aşağı düşməyə başladı. Doğumun aşağı düşməsinə şəhərləşmə (urbanizasiya) prosesinin güclənməsi də xeyli təsir göstərmişdir: Azər-

baycanda şəhər əhalisinin xüsusi çəkisi 1939-cu ildəki 36%-dən 1970-ci ildə 50%-ə yüksəlmişdi; o cümlədən azərbaycanlılarda 22,7%-dən 41,3%-ə yüksəlmişdi. Şəhər həyat tərzi, yeni dəyərlər sistemi, qadınların sosial aktivliyinin yüksəlməsi və onların evdən kənarda işə cəlb edilməsi ailədə uşaqların sayının məhdudlaşdırılması meyllərinin yayılmasına təkan verirdi. Təhsil səviyyəsinin yüksəlməsi də böyük önəm daşıyırdı. Əgər 1939-cu ildə 9 yaşdan yuxarı əhali arasında 1000 nəfərə düşən ali və orta (tam və natamam) təhsili olanların sayı 113 nəfər idisə, artıq 1970-ci ildə 471 və 1979-cu ildə 652 nəfər idi. Bütün bunların nəticəsi olaraq 1959-1970-ci illər ərzində azərbaycanlılar arasında doğumun səviyyəsi 1,4 dəfədən çox aşağı düşmüşdü (bax: cədvəl 8). Böyük əksəriyyəti şəhərlilərdən ibarət olan ermənilərdə doğum və təbii artımın aşağı düşməsi prosesi daha sürətlə getmişdir. 1970-ci ildə artıq ermənilərdə doğumun səviyyəsi ruslarda olduğu səviyyəyə yaxın idi. Qeyd edək ki, 1970-ci ildə təkcə Bakıda 207,5 min nəfər erməni yaşayırdı ki, bu da bütün Azərbaycanda yaşayan ermənilərin 43%-nə bərabər idi.

**1970-ci illərdə** əsasən azərbaycanlılar arasında doğumun səviyyəsi stabilləşməyə başladı, çünki ailənin planlaşdırılması meyllərinin güclənməsi müharibədən sonrakı illərdə doğulan çoxsaylı koqortaların nigah yaşına girməsi ilə kompensasiya olunurdu. Ona görə də, əhalinin etnik tərkibinin dinamikasında 1959-1970-ci illərdə

müşahidə edilən tendensiyalar 1970-ci və 1979-cu illərin əhali sayımları arasındakı dövrdə də davam etmişdir. Əhalinin tərkibində azərbaycanlıların xüsusi çəkisi artmaqda davam etmiş, rusların və ermənilərin xüsusi çəkisi isə başlıca olaraq, doğumun azalması səbəbi ilə aşağı düşmüşdür.

**1970-1979-cu illərdə** azərbaycanlıların sayının orta illik artımı əvvəlki sayımlar arası dövrdəkinə nisbətən bir qədər azalmışdı. Ancaq eyni zamanda bu dövr rusların, eləcə də yəhudilərin və ukraynalıların sayının xeyli azalması ilə müşahidə edilmişdir. Bu dövrdə ermənilərin də sayı azalmağa başlamışdı. Qeyd edək ki, 1979-cu ildə artıq ermənilərin 75,6%-i, rusların isə 94,1%-i şəhər əhalisi idi. Bütövlükdə bu dövrdə əksəriyyəti kənd əhalisi olan ləzgiləri, avarları və saxurları çıxmaq şərti ilə bütün etnik azlıqların sayı ya azalmış, ya da çox az artmışdı. Bunun əsas səbəblərindən biri də respublikalararası miqrasiya proseslərinin intensivləşməsi idi. Daha doğrusu, bu dövrdən başlayaraq Azərbaycan öz tarixində ilk dəfə olaraq miqrantlar qəbul edən ölkədən miqrant göndərən ölkəyə çevrildi. Milliyyətindən asılı olmayaraq bütün gənc əhali arasında Rusiyaya, eləcə də SSRİ-nin bir sıra başqa bölgələrinə miqrasiya edənlərin sayı durmadan artmaqda idi. Bunun da əsas səbəbi əhalinin həyat səviyyəsinə görə Azərbaycanla SSRİ-nin bir çox bölgələri arasında böyük fərqlərin yaranması idi. Təkcə onu qeyd etmək kifayətdir

ki, bu dövrdə Azərbaycan adambaşına düşən illik büdcəsinin həcminə görə nəinki Rusiyadan və SSRI-nin bütün qərb respublikalarından, hətta, qonşu Gürcüstandan və Ermənistandan olduqca geri qalırdı. Əhalinin etnik tərkibinə uyğun olaraq Azərbaycandan kənara miqrasiya edənlərin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Hərçənd ki, bu dövrdə Gürcüstandan və xüsusilə Ermənistandan Azərbaycana miqrasiya edən soydaşlarımızın da sayı xeyli artmışdı. Belə ki, bizim hesablarımıza görə 9 illik dövrdə (1970-1979-cu illər) bu respublikalardan Azərbaycana köçən (əsasən Bakı şəhəri və onun ətrafında məskunlaşırdılar) soydaşlarımızın sayı təxminən 40 min nəfər idi. Ancaq ölkədən kənara miqrasiya edən azərbaycanlıların sayı daha çox idi (təxminən 60-65 min nəfər). Azərbaycanlılarda, eləcə də ləzgilərdə, avarlarda və saxurlarda əhalinin təbii artımı ruslarla, ermənilərlə və başqaları ilə müqayisədə hələ çox yüksək olduğu üçün onların sayının dinamikasında miqrasiya proseslərinin təsiri zəif idi. Bunun əksinə olaraq, təbii artımın olmadığı və ya çox aşağı olduğu etnik azlıqlarda miqrasiya prosesləri onların sayının dinamikasında həlledici rol oynamışdır.

Azərbaycan əhalisinin etnik tərkibinin dinamikasının araşdırdığımız dövrlər üçün müəyyən etdiyimiz xarakterik cəhətləri bütövlükdə Naxçıvan MR və Dağlıq-Qarabağ MV-də də təzahür etmişdir (bax: cədvəl 9 və 10). Bununla yanaşı qeyd edək ki, Naxçıvan MR-da 1939-cu ildən

*Cədvəl 9.*[53]

**Naxçıvan Muxtar Respublikasının əhalisinin milli tərkibinin dinamikası**

| milliyyətlər | **1926-cı il** | | **1939-cu il** | | **1959-cu il** | | **1970-ci il** | | **1979-cu il** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** |
| azərbaycanlılar | 88,4 | 84,3 | 108,5 | 85,6 | 127,5 | 90,2 | 189,7 | 93,8 | 230,0 | 95,6 |
| ermənilər | 11,3 | 10,7 | 13,4 | 10,6 | 9,5 | 6,7 | 5,8 | 2,9 | 3,4 | 1,4 |
| ruslar | 1,8 | 1,8 | 2,5 | 2,0 | 3,2 | 2,2 | 3,9 | 1,9 | 3,8 | 1,6 |
| başqa milliyyətlər | 3,4 | 3,2 | 2,3 | 1,8 | 1,2 | 0,9 | 2,8 | 1,4 | 3,3 | 1,4 |
| **bütün əhali** | **104,9** | **100** | **126,7** | **100** | **141,4** | **100** | **202,2** | **100** | **240,5** | **100** |

[53]Всесоюзная пегепись населения 1926 г., 14-cü cild, Москва, 1929; Mərkəzi Dövlət Arxivi, fond 2511; Итоги Всесоюзной переписи населения 1959 г., Азерб. ССР. Москва, 1963; Итоги Всесоюзной переписи населения 1970 г., 4-cü cild; «Вестник статистики», №10, Москва, 1980.

*Cədvəl 10.*[54]

**Dağlıq-Qarabağ Muxtar Vilayətinin əhalisinin milli tərkibinin dinamikası**

| milliyyətlər | **1926-cı il** | | **1939-cu il** | | **1959-cu il** | | **1970-ci il** | | **1979-cu il** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** | **min nəfər** | **%** |
| azərbaycanlılar | 12,6 | 10,1 | 14,1 | 9,3 | 18,0 | 13,8 | 27,2 | 18,1 | 37,2 | 23,0 |
| ermənilər | 111,7 | 89,1 | 132,8 | 88,1 | 110,0 | 84,4 | 121,1 | 80,5 | 123,1 | 75,9 |
| başqa milliyyətlər | 1,0 | 0,8 | 3,9 | 2,6 | 2,4 | 1,8 | 2,0 | 1,4 | 1,8 | 1,1 |
| **bütün əhali** | **125,3** | **100** | **150,8** | **100** | **130,4** | **100** | **150,3** | **100** | **162,2** | **100** |

[54] Всесоюзная пегепись населения 1926 г., 14-cü cild, Москва, 1929; Mərkəzi Dövlət Arxivi, fond 2511; Итоги Всесоюзной переписи населения 1959 г., Азерб. ССР. Москва, 1963; Итоги Всесоюзной переписи населения 1970 г., 4-cü cild; «Вестник статистики», №10, Москва, 1980 г.

sonrakı dövrlərdə ermənilərin sayı daim azalmışdır. Nəticədə onların bu bölgənin əhalisinin tərkibində xüsusi çəkisi 1939-cu ildəki 10,6%-dən 1979-cu ildə 1,4%-ə enmişdir. Bu, ermənilərin urbanizasiya prosesində daha aktiv iştirak etməsi ilə izah edilir. Daha doğrusu, onların intensiv olaraq Ermənistanın böyük şəhərlərinə, başlıca olaraq İrəvan şəhərinə miqrasiya etməsi ilə izah edilir. Qeyd edək ki, Ermənistanın öz daxilində ətraf rayonlardan kütləvi miqrant axını qəbul edən İrəvan şəhəri Naxçıvan MR-nın sərhədindən cəmi 50 km məsafədə yerləşir. Məsafənin yaxınlığı, etno-psixoloji mühitin uyğunluğu və başlıcası isə Ermənistanda sosial-iqtisadi durumun Naxçıvan MR-dan olduqca üstün olması şübhəsiz ki, ermənilərin Naxçıvan MR-dan Ermənistana miqrasiyasını gücləndirmişdir. Bu, muxtar respublikada böyük əksəriyyətini kənd əhalisi təşkil etdiyi azərbaycanlılarda təbii artımın səviyyəsi Azərbaycan üzrə orta göstəricilərdən xeyli yüksək olmuşdur. Üstəlik Ermənistanda azərbaycanlılara qarşı aparılan milli-ayrıseçkilik siyasəti nəticəsində Naxçıvan MR ilə həmsərhəd olan Ermənistan ərazilərində yaşayan azərbaycanlılar zaman-zaman bu bölgəyə miqrasiya etmişlər. Ancaq eyni zamanda Naxçıvan MR-dan da Bakı şəhərinə daim miqrasiya olduğu üçün burda yaşayan azərbaycanlıların sayının artım templəri Azərbaycan üzrə azərbaycanlıların sayının artım templərindən bir qədər geri qalırdı.

Dağlıq Qarabağ MV-də də əhalinin etnik tərkibi 1939-cu ildən sonrakı dövrlərdə daha dinamik şəkildə dəyişməyə başlamışdı. Diqqəti çəkən əsas cəhət isə 1939-1959-cu illər arasında ermənilərin sayının xeyli azalmasıdır. Şübhəsiz ki, 1941-1945-ci illərdəki müharibə itkiləri bu bölgədə böyük əksəriyyəti kənd əhalisi olduğu üçün daha təsirli olmuş və vilayətin demoqrafik potensialını olduqca zəiflətmişdir. Bu da öz növbəsində vilayətdə müharibədən sonrakı dövrdə əhalinin təbii artımının kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarmışdır. Ancaq burda ermənilərin sayının azalmasının əsas səbəbi onların Bakı şəhərinə miqrasiya proseslərində azərbaycanlılarla müqayisədə olduqca aktiv iştirak etməsidir. Müqayisə üçün göstərək ki, 1939-1959-cu illər ərzində Dağlıq Qarabağda ermənilərin sayı 22,8 min nəfər və ya 17,2% azaldığı halda, Bakıda onların sayı 51,5 min nəfər və ya 43,4% artmış (bax: cədvəl 11) və Bakı əhalisinin milli tərkibində onların xüsusi çəkisi 15,1%-dən 17,2%-ə yüksəlmişdir. Bu dövrdə ermənilər Sumqayıt şəhərində də məskunlaşmağa başlamışdılar; artıq 1970-ci ildə Sumqayıtda 13,3 min nəfər erməni yaşayırdı. Bütövlikdə ermənilərin kənddən şəhərə axını onların şəhər həyat təzrinə daha meylli olmaları və Bakının o dövrdə SSRI-nin ən böyük və inkişaf etmiş şəhərlərindən biri olması ilə izah edilirdi. Digər tərəfdən qeyd etmək lazımdır ki, həmin dövrdə, xüsusilə, Stalinin sağlığında Azərbaycanın idarəetmə orqanlarında, o cümlədən, fövqəladə

*Cədvəl 11.*[55]

**Bakı şəhəri əhalisinin milli tərkibinin dinamikası**

| milliyyətlər | 1897-ci il | | 1926-cı il | | 1939-cu il | | 1959-cu il | | 1970-ci il | | 1979-cu il | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | min nəfər | % | min nəfər | % | min nəfər | % | min nəfər | % | min nəfər | % | min nəfər | % |
| azərbaycanlılar | 40,3 | 36,1 | 140,0[2*] | 30,9 | 215,5 | 27,4 | 372,7 | 37,8 | 586,1 | 46,3 | 854,4 | 55,7 |
| ruslar | 37,4 | 33,4 | 159,5 | 35,2 | 343,1 | 43,6 | 337,8 | 34,2 | 351,1 | 27,7 | 338,0 | 22,0 |
| ermənilər | 19,1 | 17,1 | 76,7 | 16,9 | 118,6 | 15,1 | 170,1 | 17,2 | 207,5 | 16,4 | 215,8 | 14,1 |
| ləzgilər | 0,3 | 0,3 | 3,7 | 0,8 | 12,3 | 1,6 | 15,4 | 1,6 | 23,7 | 1,9 | 29,0 | 1,9 |
| tatarlar | ... | ... | 9,2 | 2,0 | 23,5 | 3,0 | 25,2 | 2,6 | 26,5 | 2,1 | 26,5 | 1,7 |
| yəhudilər | 1,9 | 1,7 | 21,6 | 4,8 | 31,1 | 3,9 | 29,2 | 3,0 | 29,7 | 2,3 | 26,4 | 1,7 |
| ukraynalılar | 0,9 | 0,8 | 7,9 | 1,7 | 10,5 | 1,3 | 14,0 | 1,4 | 14,4 | 1,1 | 15,0 | 1,0 |
| başqa milliyyətlər | 12,0 | 10,7 | 34,7 | 7,7 | 33,0 | 4,2 | 22,8 | 2,3 | 26,5 | 2,1 | 28,1 | 1,8 |
| **bütün əhali** | **111,9** | **100** | **453,3** | **100** | **787,6** | **100** | **987,2** | **100** | **1265,5** | **100** | **1533,2** | **100** |

---

[55] Первая всеобщая перепись населения Российской империи, 1897 г., 61-ci cild. Всесоюзная перепись населения 1926 г., 14-cü cild, Москва, 1929; Mərkəzi Dövlət Arxivi, fond 2511; Итоги Всесоюзной переписи населения 1959 г., Азерб. ССР. Москва, 1963; Итоги Всесоюзной переписи населения 1970 г., 4-cü cild; Москва-1973 г., Итоги Всесоюзной переписи населения 1979 года по Азегбайджанской ССР, 2-ci cild, Баку, 1981 г.

[*] İran vətəndaşı olan azərbaycanlılar da bu saya daxil edilmişdir. Onların sayı 21 min nəfərdən çox idi.

səlahiyyətləri olan və məşhur «NKVD» adı ilə hamını qorxuya salan o zamankı polis-xəfiyyə idarəsində aparıcı vəzifələri ermənilərlə ruslar tuturdu. Ruslardan fərqli olaraq, ermənilər milliyyətçiliyə söykənən lobbiçilik fəaliyyəti göstərirdilər və bu səbəbdən də həmin dövrdə Bakıda əsil nüfuz sahibləri ermənilər idi. Buna görə də miqrant ermənilərin Bakı şəhərində qeydiyyata düşmək, işlə təmin edilmək və başqa problemlərinin həlli ilə bağlı çətinlikləri yox idi. Üstəlik Bakıda «Ermənikənd» adlı iri erməni məhəlləsinin olması, yəni etno-psixoloji mühitin varlığı Qarabağ ermənilərinin, eləcə də Azərbaycanın başqa bölgələrində yaşayan ermənilərin Bakı şəhərinə miqrasiya etməsi üçün əlverişli şərait yaradırdı. Ermənilərin Qarabağdan Bakıya və Sumqayıta miqrasiyası sonralar xeyli zəifləmiş, İrəvana miqrasiyası isə, əksinə, üstünlük təşkil etmişdir. Çünki İrəvan daha sürətlə inkişaf etməyə başlamış və SSRİ-nin iri şəhərlərindən birinə çevrilmişdi. Ermənilərin iri sənaye və mədəni mərkəzi kimi formalaşmış İrəvan şəhərində 1979-cu ildə artıq bir milyondan çox əhali yaşayırdı ki, onun da 95,8%-i erməni idi. 1940-cı və 1950-ci illərdə Qarabağ ermənilərinin Bakıya intensiv miqrasiyası nəticəsində vilayətin erməni əhalisi demoqrafik qocalmaya məruz qalmışdır; belə ki, miqrasiyada başlıca olaraq gənclər iştirak edirdi. Nəticədə vilayətin erməni əhalisi arasında doğum yaşlı koqortalar olduqca seyrəlmiş, bu isə öz növbəsində doğumun kəskin

şəkildə aşağı düşməsinə səbəb olmuşdu. Ona görə də, 1959-cu ildən sonrakı dövrlərdə də vilayətdə yaşayan ermənilərin sayı çox aşağı templərlə artmışdı. Qeyd edək ki, Dağlıq Qarabağın daxilində də ermənilər arasında urbanizasiya prosesi daha sürətlə getmişdir. Vilayətin inzibati mərkəzi olan Xankəndi (Stepanakert) şəhərinin əhalisinin sayı Azərbaycanın başqa şəhərləri ilə müqayisədə daha sürətlə artmışdı. Əgər 1939-cu ildə vilayətin erməni əhalisinin cəmi 6,8%-i Xankəndidə yaşayırdısa, 1979-cu ildə bu ğöstərici 27,5%-ə çatmışdı. Dağlıq Qarabağda yaşayan azərbaycanlıların sayı stabil olaraq yüksək templərlə artmışdır. 1959-1979-cu illərdəki dövrdə isə onların sayı nəinki ermənilərlə müqayisədə, həmçinin Abşeron bölgəsi istisna olmaqla, respublikanın bütün azərbaycanlı əhalisi ilə müqayisədə daha yüksək templərlə artmışdır. Məsələ burasındadır ki, Dağlıq Qarabağın sosial-iqtisadi inkişaf səviyyəsi Azərbaycanın digər bölğələrindən gözə çarpacaq dərəcədə yüksək olduğu üçün burada yaşayan azərbaycanlılar vilayətdən kənara miqrasiya proseslərində demək olar ki, iştirak etməmişlər. Ona görə də vilayətdə yaşayan azərbaycanlıların yaş və cins tərkibindəki tarazlıq pozulmamış və onlar ənənəvi həyat tərzləri ilə yaşamağa davam etmişlər. Bu səbəbdən də onlarda doğumun səviyyəsi demək olar ki, dəyişməz qalmış və təbii artım başqa bölgələrdən fərqli şəkildə yüksək olmuşdur. Bu fərqlər 1970-ci illərdə daha qabarıq şəkildə

özünü göstərmişdir. Belə ki, 1970-1979-cu illərdə Azərbaycanın əksər rayonlarında doğumun səviyyəsi xeyli aşağı düşmüş, Abşeron bölgəsinə miqrasiya güclənmiş və SSRİ-nin başqa respublikalarına miqrasiya axını başlamışdı.

Yuxarıda söylədiklərimizin nəticəsi olaraq, Dağlıq Qarabağda əhalinin milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1939-cu ildən sonrakı dövrdə durmadan artmağa davam etmişdir. Artıq 1979-cu ildə Dağlıq Qarabağda əhalinin dörddə birini azərbaycanlılar təşkil edirdi (müqayisə üçün göstərək ki, 1939-cu ildə 9,3% təşkil edirdi). Gənc əhali arasında isə azərbaycanlıların xüsusi çəkisi daha yüksək olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda yaşayan ermənilərin yalnız 1/4-i Dağlıq Qarabağda yaşayırdı. Başqa sözlə, **Azərbaycanda yaşayan ermənilərin etno-coğrafi ərazi bütövlüyü olmamışdır. Dağlıq Qarabağ MV-nin özünün də etno-coğrafi ərazi bütövlüyü formal xarakter daşıyırdı. Belə ki, Dağlıq Qarabağın inzibati sərhədləri çox girintili-çıxıntılı olmaqla yanaşı, onun ərazisində yerləşən bir çox azərbaycanlı kəndləri qonşu Azərbaycan rayonlarının inzibati ərazisinə aid idilər. Eyni zamanda bu rayonların daxilində yerləşən erməni kəndləri Dağlıq Qarabağ MV-nin inzibati ərazisinə aid idilər. Beləliklə, əgər ərazi bölgüsündə bu tip inzibati-coğrafi istisnalar tətbiq edilməsəydi, Dağlıq Qarabağ**

**əhalisinin milli tərkibində ermənilərlə azərbaycanlılar arasında böyük fərqlər olmazdı.**

Bütövlükdə qeyd edək ki, 1959-1979-cu illər arasındakı dövrdə Azərbaycanın demoqrafik inkişafında böyük etnik fərqlərin olmasına baxmayaraq, etnik azlıqlar, özəlliklə də ruslar və ermənilər hələ ki, əhalinin milli tərkibində önəmli yer tuturdular. Şəhərlərdə isə onların faizi daha yüksək idi. Belə ki, 1979-cu ildə təkcə ruslarla ermənilər ölkənin şəhər əhalisinin 1/4-dən çoxunu, Bakıda isə 36,1%-ni təşkil edirdilər.

**Sonrakı əhali sayımları arası on illik dövr (1979-1989-cu illər)** Azərbaycanın siyasi tarixində olduğu kimi demoqrafik inkişafında da önəmli yer tutur. Bu dövrün demoqrafik proseslərində əsas aparıcı faktor nigah yaşına çatmış gənclərin sayının yüksək templərlə artması idi. Daha doğrusu, doğumun rekord səviyyədə olduğu 1960-cı illərdə doğulan uşaqlar məhz 1980-ci illərdə gənc yaşlarına qədəm qoyurdular. Bütövlükdə 1960-1969-cu illərdə Azərbaycanda doğulan uşaqların sayı 1.655 min nəfər olmuşdur[56]. Müqayisə üçün göstərək ki, həmin dövrdə qonşu Gürcüstanda doğulanların sayı 960 min nəfər olmuşdur, halbuki, 1960-cı ildə Gürcüstanda əhalinin ümumi sayı Azərbaycandan 346 min nəfər və ya 8,6% çox idi[57]. Diqqəti

[56] Население СССР 1987 (статистический сборник), Москва – 1988, səh. 118
[57] Yenə orada: səh. 11, 117

çəkən faktlardan biri də odur ki, bu yaş koqortası, yəni 1960-1969-cu illərdə doğulanlar artıq 1970-ci ildə Azərbaycan əhalisinin üçdə birini təşkil edirdi; onların da 85%-dən çoxunu azərbaycanlılar təşkil edirdi. Gənc əhalinin sayının birdə birə bu cür sürətlə artması və bunun nəticəsi olaraq əhalinin yaş tərkibində onların xüsusi çəkisinin kəskin olaraq yüksəlməsi Azərbaycanda gənclərlə bağlı sosial-iqtisadi problemlərin kəskinləşməsinə gətirib çıxarırdı. Belə ki, yeni iş yerlərinin sayının artım templəri əmək qabiliyyətli əhalinin artım templərindən olduqca geri qalırdı. Mənzil problemi gənclərin evlənməsini tormozlayan başlıca əngələ çevrilmişdi. Ən başlıcası isə o idi ki, 1970-ci illərin sonrlarında "durğunluq dövrü" adlanan mərhələyə qədəm qoymuş Sovet İttifaqında əhalinin maddi-rifah səviyyəsinə görə Azərbaycan ümumittifaq göstəricilərindən get-gedə daha da geri qalırdı. Məsələn, təkcə onu demək kifayətdir ki, 1980-ci ildə dövlət qurumları tərəfindən tikilən yaşayış evlərinin sahəsinə görə Azərbaycan 1000 nəfər əhaliyə düşən göstəriciyə görə 15 müttəfiq respublika arasında sonuncu yeri tuturdu (bax: cədvəl 12). O cümlədən bu göstəriciyə görə Azərbaycan SSRİ üzrə olan göstəricidən2,3 dəfə, Rusiyadan isə 2,7 dəfə geri qalırdı; maraqlıdır ki, tikinti materialları üzrə təbii sərvətlərinə görə Ermənistandan qat-qat zəngin olan Azərbaycan bu göstəriciyə görə Ermənistandan 1,8 dəfə geri qalırdı. Müqayisə üçün onu da qeyd edək ki, 1965-ci ildə

*Cədvəl 12.*[58]

**1980-ci ildə SSRİ-də tikilib istifadəyə verilmiş əhalinin hər 1000 nəfərinə düşən mənzil sahəsi ($m^2$-lə)**

| № | Müttəfiq respublikalar | $m^2$ |
|---|---|---|
| 1 | Estoniya | 386,0 |
| 2 | Rusiya | 355,3 |
| 3 | Qazaxıstan | 335,9 |
| 4 | Belarusiya | 308,2 |
| 5 | Latviya | 295,4 |
| 6 | Litva | 265,8 |
| 7 | Ermənistan | 227,7 |
| 8 | Ukrayna | 220,0 |
| 9 | Özbəkistan | 191,4 |
| 10 | Gürcüstan | 188,1 |
| 11 | Moldova | 185,0 |
| 12 | Türkmənistan | 170,8 |
| 13 | Qırğızıstan | 141,6 |
| 14 | Tacikistan | 131,8 |
| 15 | Azərbaycan | 129,9 |
| | **SSRİ üzrə** | **295,7** |

Azərbaycan bu göstərici üzrə ümumittifaq səviyyəsindən azacıq geri qalırdısa da Gürcüstan, Latviya, Moldova və s. kimi respublikalardan irəlidə idi[59]. Əhalinin yaşayış

58 Народное хозяйство СССР в 1989 г., «Финансы и статистика», Москва – 1990, səh. 157; Население СССР 1987, «Финансы и статистика», Москва 1988, səh. 8-15
59 Народное хозяйство СССР в 1977 г. (статистический ежегодник), Москва – 1978, səh. 414

səviyyəsini xarakterizə edən digər göstəricilərə görə də Azərbaycanla SSRİ-nin bir çox bölgələri arasındakı fərqlər böyüməkdə idi. Hətta, qonşu respublikalardan fərqli olaraq Azərbaycan əhalisinin ərzaq təminatı da aşağı səviyyədə idi. Kənd rayonlarında isə vəziyyət dözülməz həddə çatmışdı. Belə ki, "7-dən 70-ə" bütün əhali məcburi qaydada pambıq plantasiyalarında qul kimi işləməyə məhkum edilmişdi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycandan kənara, xüsusi ilə Rusiyaya miqrasiya edənlərin sayı 1970-ci illərin sonlarından başlayaraq, sürətlə artmağa başladı. Belə ki, əgər 1970-1978-ci illər ərzindəki dövrdə orta illik miqrasiya saldosu (Azərbaycandan gedənlərlə gələnlərin sayının fərqi: - və ya+) – 6,1 min nəfər idisə, artıq 1979-1986-cı illərdəki dövrdə bu göstərici – 26 min nəfərə qədər yüksəlmişdi. Şübhəsiz ki, miqrantların böyük əksəriyyətinin 1960-cı illərdə doğulan nəslin nümayəndələri təşkil edirdi. Onların da demək olar ki, hamısı kişilərdən ibarət olduğu üçün Azərbaycan əhalisinin gənc yaş qruplarının cins tərkibində böyük disproporsiyalar yaranırdı. Bu tendensiya kənd yerlərində daha kəskin xarakter almışdı. Nəticədə isə əhalinin demoqrafik potensialı durmadan zəifləyirdi.

Bizim fikrimizcə bütün bu proseslər, yəni 1970-ci illərdən başlayaraq Azərbaycanda yaşayış səviyyəsinin SSRİ ilə müqayisədə sürətlə geriləməsi və bunun nəticəsi

olaraq, artıq 1980-ci illərdə Azərbaycandan kənara miqrasiyanın kütləviləşməsi və demoqrafik durumun pisləşməsi bütövlükdə Moskvanın məqsədyönlü etnodemoqrafik siyasətinin nəticəsi idi. Daha doğrusu, bu siyasət qondarma «Sovet xalqının» formalaşdırılmasına, əslində isə ruslaşdırma siyasətinə yönələn assimilyasiya siyasətinin tərkib hissəsi idi. Bu etnodemoqrafik siyasətin məhz 1970-ci illərdən başlayaraq tətbiq edilməsi təsadüfi deyildi. Çünki məhz 1970-ci ildə SSRİ-də keçirilən əhali sayımının etnostatistik materialları göstərdi ki, Rus-Sovet imperiyası tarixində ilk dəfə olaraq 1959-1970-ci illər arasındakı dövrdə ölkənin hakim etnosu olan rusların, eləcə də digər slav xalqlarının təbii artımı müsəlman xalqlarının təbii artımı ilə müqayisədə olduqca geri qalmağa başlamışdır. Belə ki, həmin 11 il ərzində slav xalqlarının sayı 12% artdığı halda, azərbaycanlıların və digər müsəlman xalqlarının sayı orta hesabla 1,5 dəfə artmışdı. SSRİ-də etnodemoqrafik durumun rusların əlehinə belə kəskin şəkildə dəyişməyə başlaması isə Kremlin rəhbərlərini narahat etməyə bilməzdi.

Ona görə də sanki yenidən kəşf edilən etnodemoqrafiya və hətta, hərbi demoqrafiya adlı elmi təlimlər Moskva alimlərinin əsas tədqiqat obyektinə çevrildi. Başlıca hədəf Orta Asiya və Azərbaycan idi. Çünki bu bölgələrdə əhalinin etnik tərkibində yerli aparıcı etnosların xüsusi çəkisi intensiv olaraq sürətlə artmaqda idi. Halbuki 1950-ci

illərin ortalarına qədər bütün dövrlərdə rus əhalisinin bu ərazilərə köçürülməyə sövq edilməsi nəticəsində əhalinin etnik tərkibi daim rusların xeyrinə dəyişmiş, respublikaların paytaxtları isə rusların çoxluq təşkil etdiyi rusdilli şəhərlərə çevrilmişdi. Ancaq yuxarıda deyildiyi kimi, etnodemoqrafik durumun kəskin şəkildə dəyişməyə başlaması bu ənənənin davam etdirilməsinə və ya heç olmazsa, mövcud durumun dondurulmasına imkan vermirdi. Üstəlik, Rusiyanın miqrant göndərən bölgələrinin demoqrafik potensialı tükənməkdə idi; Mərkəzi qaratorpaq bölgəsinin bəzi vilayətlərində isə artıq, əhali azalmağa başlamışdı. Bütün bunları nəzərə alan Moskva rəhbərliyi yeni etnodemoqrafik siyasət proqramı hazırladı. Proqramın mahiyyəti Azərbaycan və Orta Asiyanın yerli etnoslarının Rusiyanın ucsuz-bucaqsız şərq bölgələrinə kütləvi miqrasiyasına nail olmaqdan ibarət idi. Bu məqsədlə tezliklə strateji və iqtisadi baxımdan əsaslandırılan Baykal-Amur magistralının (BAM) tikintisinə qərar verildi; Sibir və Uzaq Şərgin təbii sərvətlərinin daha dolğun şəkildə mənimsənilməsini gerçəkləşdirmək bəhanəsi ilə bu bölgələrin əmək ehtiyatları ilə təmin edilməsi problemi ortalığa atıldı. Azərbaycan və Orta Asiya əmək ehtiyatlarının artıqlıq etdiyi, Sibir və Uzaq Şərq isə əmək ehtiyatlarının çatışmadığı bölgələr elan edildi. Sovet rəhbərliyinin siyasi direktivlərində və iqtisadi ədəbiyyatda **«трудоизбиточные регионы»** (“trudoizbitoçnıye regi-

onı” - əmək artıqlığı bölgələri) və **«трудонедостоточные регионы»** (“trudonedostatoçnıye regionı” - əmək çatışmazlığı bölgələri) ifadələri az qala faciəli notlarla işlədilirdi.

Nəticə olaraq artıq 1970-ci illərdə bəzi güzəştlər və maddi stimullarla şirnikləndirilməklə, bəzən də inzibati metodlarla minlərlə azərbaycanlının Xabarovsk, Amur, Krasnoyarsk, Tümen və s. vilayətlərə köçürülməsi mümkün oldu. Beləliklə 1970-ci illərdə azərbaycanlıların Rusiyaya miqrasiyası ənənəsinin təməli qoyuldu. Ancaq 1980-ci illərdə miqrasiyanın kütləvi xarakter alması «BAM» siyasəti ilə deyil, «əmək artıqlığı» bölgələri ilə Rusiya arasında yaşayış şərtlərinə görə fərqlərin formalaşması siyasəti ilə mümkün oldu. Hətta 1980-cı illərdə «regional demoqrafik siyasət» adı altında Rusiyada doğumla bağlı qadınlara bir sıra maddi imtiyazlar da verildi. 1980-ci illərin ortalarından başlayaraq bu siyasət daha da gücləndirildi. Beləliklə o dövrkü Sovet lideri M.Qorbaçovun elan etdiyi “aşkarlıq” siyasəti sanki milli ayrıseçkilik siyasətinin də açıq-aşkar aparılmasına təkan verdi.

Bütün bunların nəticəsi olaraq, 1979 və 1989-cu illər arası 10 illik dövrdə bizim hesablamalaramıza görə SSRİ-nin şimal bölgələrinə miqrasiya edən və daimi əhali kimi qeydə alınan azərbaycanlıların sayı 200 min nəfərdən çox idi. O cümlədən Rusiyaya miqrasiya edənlərin sayı 160 min

nəfərdən çox olmuşdur. Belə ki, Dərbənd azərbaycanlılarının yaşadığı Dağıstan Respublikasını çıxmaq şərtilə Rusiyada yaşayan soydaşlarımızın sayı miqrasiya hesabına 3 dəfə artaraq, 1979-cu ildəki 87,9 min nəfərdən 1989-cu ildə 260,4 min nəfərə qədər çoxalmışdır. Bu dövrdə azərbaycanlıların ən çox miqrasiya etdiyi bölgə Tümen vilayəti olmuşdur. Belə ki, əgər 1979-cu ildə bu vilayətdə 2,6 min nəfər azərbaycanlı yaşayırdısa, 1989-cu ilə qədər onların sayı 7,5 dəfə artaraq 19,5 min nəfər olmuşdu[60].

Şübhəsiz ki, get-gedə daha da güclənməkdə olan miqrasiya prosesləri 1980-cı illərdə Azərbaycan əhalisinin say artımını xeyli tormozlamış oldu. Ancaq əhalinin etnik tərkibi 1970-ci illərdə müşahidə edilən tendensiya ilə dəyişməyə davam etmişdir. Çünki etnik mənsubiyyətindən asılı olmayaraq bütün əhali eyni səviyyədə miqrasiya proseslərinə cəlb olunduğu halda, əhalinin təbii artımındakı etnik fərqlərin səviyyəsi və xarakteri nəinki dəyişməmiş, hələ bir qədər də qabarmışdı.

Bu dövrdə Azərbaycan əhalisinin etnik tərkibinin dəyişməsinə güclü təsir göstərən başlıca hadisə isə 1987-ci ildə Ermənistanın başlatdığı etnik münaqişə oldu. 20-ci yüzilliyin əvvəllərində olduğu kimi «Böyük Ermənistan» arzusunda olan erməni millətçiləri böhranlı dövrlərdən

---

[60] Итоги всесоюзной переписи населения по РСФСР, Москва – 1992, səh. 137-138

faydalanmağa çalışaraq yenidən Azərbaycana qarşı ərazi iddialarını irəli sürdülər. Qərb ölkələrindəki erməni təşkilatları və Moskvadakı erməni lobbisi Dağlıq-Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistan SSR-ə birləşdirilməsi istiqamətində hərtərəfli və fundamental fəaliyyətə başladılar. Çox keçmədi ki, «Miatsum» («birləşmə», «bir olma» mənasına gəlir) şuarı altında İrəvanda və Xankəndidə (Stepanakert) kütləvi aksiyalar vüsət aldı. Beləliklə Moskvanın üstüörtülü dəstəyini əldə etmiş Ermənistan SSR rəsmilərinin və erməni millətçi qeyri-hökümət təşkilatlarının birgə fəaliyyəti nəticəsində erməni tərəfi «Naqornı Karabax məsələsi» kimi tanınan etnik münaqişənin qloballaşmasına nail oldu. Erməni ideoloqları həm SSRİ-də, həm də aparıcı dünya ölkələrində Azərbaycana qarşı informasiya müharibəsi aparır, onu haqsız tərəf kimi təqdim edirdi. Üstəlik azərbaycanlılar geridə qalmış, ədalətsiz, zalım, islam fundamentalizminə meylli və sairə obrazlarda təsvir edilməklə bir millət kimi gözdən salınırdı. Hazırlıqsız yaxalanan Azərbaycan tərəfi isə həm də Moskvanın informasiya blokadasında qalmışdı. Belə ki, yalnız Moskvanın göstərişləri ilə fəaliyyət göstərməyə vərdiş etmiş Azərbaycan SSR hökümətinin bu arada gördüyü iş xalqın kütləvi etiraz mitinqlərinin qarşısını almağa çalışmaq və əhalini Moskvanın bu məsələni ədalətlə həll edəcəyinə inandırmaqdan ibarət idi.

«Söz» müharibəsində Azərbaycanı ciddi məğlubiyyətə uğradan erməni tərəfi isə paralel olaraq hərbi hazırlıqlarla məşğul olur silahlı dəstələr yaradırdı. Artıq Ermənistanda yaşayan azərbaycanlılara yerli məmurlar və ekstremist qruplar tərəfindən hədə-qorxu gəlinir, onlardan Ermənistanı tərk etmələri tələb olunurdu. Get-gedə erməni ekstremistləri gərginliyi daha da artırır, azərbaycanlılara qarşı zor işlətməyə başladılar. Mənəvi və fiziki işgəncələr törədilir, qətl hadisələri baş verirdi. Bunun nəticəsi olaraq, artıq 1988-ci ilin əvvəllərində Ermənistandan ilk qaçqın ailələri Azərbaycana üz tutdular. Ancaq azərbaycanlıların Ermənistandan total deportasiyası üçün öncə **Sumqayıt provakasiyası** törədilir. Daha doğrusu, erməni tərəfinin və Moskvanın xüsusi gizli orqanlarının iş birliyi ilə Sumqayıtda erməni azlığına qarşı terrorla nəticələnən kütləvi anti-erməni aksiyası təşkil edilir. Belə ki, Ermənistanda terrora məruz qalmış ilk azərbaycanlı qaçqın ailələri məqsədli şəkildə məhz fəhlə şəhəri olan Sumqayıtda yerləşdirilir. Ardınca Sumqayıtlıların erməni terroruna qarşı etiraz mitinqi təşkil edilir və qəzəblənmiş mitinq istirakçılarının bir hissəsi erməni mənzillərinə basqın edidməsinə təhrik edilir. Nəticədə 20-dən çox erməni qətlə yetirilir. Bu qanlı hadisənin əvvəlcədən planlı şəkildə həyata keçirilməsini sübut edən əsas fakt isə o idi ki, mitinq iştirakçılarını qətl törətməyə təhrik edənlər kütlə arasına soxulmuş və özlərini azərbaycanlı kimi göstərə

bilən erməni milliyyətindən olan şəxslər olmuşdur. Məhz onlardan ikisi ilk qətilləri öz əlləri ilə törədərək 11 erməni öldürmüşdülər. Bu iki qatil həbs olunanaraq cinayətləri sübut olundusa da, bir müddət sonra Moskvaya, oradan da İrəvana təhvil verildi. Həmin dövrdə Azərbaycanın informasiya blokadasında qalması və Azərbaycan rəsmilərinin susması bu faktın gizli qalmasına, əvəzində isə erməni tərəfinin «Sumqayıt faciəsi», «Ermənilərin yeni soyqırımı» adı altında azərbaycanlıları bütün dünyada vəhşi kimi qələmə vermək istiqamətində daha effektli təbliğat aparmasına yol açdı.

Bu anti-Azərbaycan təbliğat kompaniyası fonunda Ermənistanda yaşayan azərbaycanlılara qarşı terror hadisələri intensivləşməyə başladı. Yüzlərlə azərbaycanlı qətlə yetirildi. Nəticədə minlərlə azərbaycanlı ev-eşiklərini qoyaraq Azərbaycana gəlməyə başladı. Ancaq qeyd edək ki, bu qaçqınlar əsasən erməni əhalisi ilə əhatə olunan məntəqələrdə yaşayan və azlıqda qalan azərbaycanlılar idi. Ermənistanda azərbaycanlıların çoxluq təşkil etdiyi və kompakt yaşadığı bölgələrdə isə vəziyyət nisbətən sabit idi. 1988-ci ilin dekabr ayında isə bu sabitlik də pozuldu. Belə ki, həmin bölgələrə ezam edilmiş Sovet Ordusu bölmələri azərbaycanlı əhalisinin sadəlöhvcəsinə ümid bəslədiyi kimi əhalinin əmin-amanlığını təmin etmək əvəzinə azərbaycanlıların Ermənistandan total deportasiyasına başladılar. Bütün nəqliyyat vasitələrindən, o cümlədən

vertolyotlardan istifadə edildiyi bu köçürmə əməliyyatı cəmi 10-15 gün çəkdi. Və Naxçıvan bölgəsini Azərbaycandan ayıran Ermənistanın Mehri rayonunda yerləşən Nüvədi kəndi istisna olmaqla Ermənistanın bütün ərazilərindən milliyətcə azərbaycanlı olan əhali Azərbaycana sürgün edildi. Beləliklə Ermənistanda Sovet Ordusunun vasitəçiliyi ilə 1988-ci ilin dekabr ayının ortalarında erməni millətçilərinin çoxdan arzuladığı etnik təmizləmə əməliyyatı əsasən başa çatmış oldu. Maraqlısı isə o idi ki, əsasən kənd əhalisindən ibarət olan və ən azı min illik tarixi-etnik ərazilərdən qovulmuş soydaşlarımızın əksəriyyəti Bakıda məskunlaşdırıldı.

Bizim hesablamalaramıza görə 1987-ci ilin sonu və 1988-ci ilin əvvəllərində, yəni etnik münaqişənin başlanğıcı ərəfəsində Ermənistanda yaşayan azərbaycanlıların sayı təxminən 200 min nəfər olmuşdur. Ən önəmlisi o idi ki, azərbaycanlılar Ermənistanın kənd əhalisinin 1/6-ni təşkil edirdi. Bu isə o deməkdir ki, Ermənistan ərazisinin təxminən 1/6-i azərbaycanlıların məskunlaşdığı etnik ərazidən ibarət idi.

Bu arada Azərbaycanda da etno-siyasi durum erməni millətçilərinin və onların havadarlarının istəkləri istiqamətində inkişaf edirdi. Artıq Azərbaycanda ermənilərin kompakt yaşadığı ərazilər, yəni Şuşa rayonu və azərbaycanlıların yaşadığı digər məntəqələr istisna olmaqla Dağlıq-Qarabağ, eləcə də keçmiş Şaumyan rayonu və

Xanlar rayonunun cənub hissəsi siyasi və hərbi baxımdan yetkin səviyyədə təşkilatlanmış erməni separatçılarının diktəsi və nəzarəti altında idi. Azərbaycan SSR hökümətinin adı çəkilən ərazilərdə siyasi hakimiyyəti artıq formal xarakter daşıyırdı. **Bölgədəki Sovet Ordusu bölmələri və moskvalı siyasilər isə separatizmin qarşısını almaq əvəzinə DQMV-nin həm iqtisadi, həm də siyasi baxımdan Azərbaycandan qopmasına xidmət edən ardıcıl tədbirlər görür, bununla da ermənilərlə azərbaycanlılar arasındakı milli münasibətləri daha da kəskinləşdirirdilər. Ona görə də Bakıda, Gəncədə və Azərbaycanın digər məntəqələrində azlıqda yaşayan ermənilər perspektivi olmayan sıxıntılı bir duruma sürükləndiklərini dərk edərək Azərbaycanı tərk edirdilər. Onların böyük əksəriyyəti Rusiyaya, əsasən də Şimali Qafqaz bölgəsinə miqrasiya edirdilər.** Ancaq bu miqrasiya kütləvi xarakter daşısa da, Bakı ermənilərinin və DQMV istisna olmaqla Azərbaycanın digər ərazilərində yaşayan erməni əhalisinin bütünlükdə Azərbaycandan köçüb getməsi prosesi 1991-ci ilə qədər davam etmişdir. 1989-cu ilin əvvəlinə, yəni SSRİ-də keçirilən sonuncu əhali sayımı zamanı bizim müşahidələrimizə görə onların yarıya qədəri hələki Azərbaycanın sakinləri idi. Halbuki həmin tarixdə, yuxarıda deyildiyi kimi, artıq Ermənistanın azərbaycanlı sakinlərinin deportasiyası başa çatdırılmışdı.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı başlatdığı siyasi və hərbi aqressiya nəticəsində yüz minlərlə insan etnik mənsubiyyətinə görə öz daimi yaşayış yerlərindən didərgin düşdülər. O cümlədən 1988-ci il ərzində Ermənistandan Azərbaycana deportasiya edilən azərbaycanlı qaçqınların sayı təxminən 200 min nəfər, Azərbaycandan köçüb gedən ermənilərin sayı isə 150 min nəfər idi. Şübhəsiz ki, bir il ərzində baş verən bu kütləvi yerdəyişmələr 1979-1989-cu illər arasındakı dövrdə Azərbaycanın etnik tərkibinin azərbaycanlıların xeyrinə dəyişməsində başlıca rol oynadı. Eyni zamanda onu da qeyd edək ki, bu bir il ərzində Ermənistan demək olar ki, mono-etnik bir bölgəyə çevrildi.

Təbii ki, 1988-ci ildə baş verən bu etno-siyasi kataklizmlər 1989-cu il əhali sayımının materiallarında öz əksinini tapmalı idi və ya heç olmazsa əlavə qeydiyyatla qaçqınların sayı və tərkibi haqqında məlumat verilməli idi. Ancaq təəssüf ki, 1989-cu ilin əhali sayımı haqqında dərc olunan rəsmi statistik materiallarda qaçqınlar haqqında heç bir məlumat verilməmişdi. Moskvanın göstərişi ilə qaçqınlar və 1988-ci ildə Azərbaycanı həmişəlik tərk edib gedən erməni miqrantlar əvvəlki yaşayış yerlərinin daimi əhalisi kimi qeydə alınmışdılar. Ancaq 1989-cu il əhali sayımının materiallarını araşdırarkən onların daimi əhali kimi qeydiyyata alınmasının da ciddi nöqsanlarla aparıldığı və qərəzli xarakter daşıdığı üzə çıxır. Belə ki, Ermənistanda

1989-cu il sayımına görə daimi əhali kimi 84,9 min nəfər azərbaycanlının yaşadığı göstərilmişdir. Halbuki azərbaycanlı qaçqınların sayı 200 min nəfərdən az olmamışdır. **Deməli 100 min nəfərdən çox qaçqın azərbaycanlı nə Ermənistan, nə də Azərbaycan sakıni kimi qeydə alınmayaraq əhali sayımı materiallarında əks olunmamışlar. Əksinə 1988-ci ildə Azərbaycandan getmiş erməni miqrantlar Azərbaycanın daimi əhalisi kimi artıqlaması ilə siyahıya alınmışlar.** Belə ki, 13 saylı cədvəldən göründüyü kimi, 1989-cu ildə bütövlükdə Azərbaycanda yaşayan ermənilərin sayı 1979-cu ildə olduğu kimi rusların sayı ilə eyni olmuş və 1979-cu il ilə müqayisədə 85 min nəfər və ya cəmi 17,8% azalmışdır. Bundan belə nəticə çıxır ki, guya 1979-1989-cu illər ərzində Azərbaycanda rusların və ermənilərin sayı eyni templərlə azalmışdır. Halbuki bu azalma heç də Azərbaycanda 1988-ci ildəki etno-siyasi durumun kəskinləşməsi ilə izah edilə bilməz. Bir az əvvəldə qeyd etdiyimiz kimi, 1980-ci illərdə SSRİ-də sosial-iqtisadi inkişaf baxımından regional fərqlərin dərinləşməsi hər il Azərbaycandan 30-40 min nəfər əhalinin, o cümlədən rusların, ermənilərin və başqalarının Rusiyaya və qismən də başqa bölgələrə miqrasiya etməsinə səbəb olmuşdur. Əhalinin təbii artımının çox kiçik olduğu və ya heç olmadığı milli azlıqlarda, o cümlədən ermənilərdə bu miqrasiyanın təsiri onların sayının sürətlə azalmasına gətirib

*Cədvəl 13.*[61]

**Azərbaycan əhalisinin milli tərkibi**
**(1979 və 1989-cu il əhali sayımlarına görə)**

| milliyyətlər | 1979 il | | 1989 il | |
|---|---|---|---|---|
| | min nəfər | % | min nəfər | % |
| azərbaycanlılar | 4708,8 | 78,1 | 5805,0 | 82,7 |
| ruslar | 475,3 | 7,9 | 392,3 | 5,6 |
| ermənilər | 475,5 | 7,9 | 390,5 | 5,6 |
| ləzgilər | 158,1 | 2,6 | 171,4 | 2,4 |
| avarlar | 36,0 | 0,6 | 44,1 | 0,6 |
| ukraynalılar | 26,4 | 0,4 | 32,3 | 0,5 |
| yəhudilər | 35,5 | 0,6 | 30,8 | 0,4 |
| tatarlar | 31,4 | 0,5 | 28,0 | 0,4 |
| talışlar | - | - | 21,2 | 0,3 |
| axıska türkləri | 7,9 | 0,13 | 17,7 | 0,25 |
| gürcülər | 11,4 | 0,19 | 14,2 | 0,2 |
| saxurlar | 8,5 | 0,14 | 13,3 | 0,19 |
| kürdlər | 5,7 | 0,09 | 12,2 | 0,17 |
| tatlar | 8,8 | 0,15 | 10,2 | 0,15 |
| beloruslar | 4,8 | 0,08 | 7,8 | 0,11 |
| udilər | 5,8 | 0,1 | 6,1 | 0,09 |
| başqaları | 26,6 | 0,44 | 24,1 | 0,34 |
| bütün əhali | **6.026,5** | **100** | **7.021,2** | **100** |

[61] Население Азербайджанской Республики 1989 (статистический сборник), Баку 1991, səh.38; «Вестник статистики», 1991, №1, səh. 67-69

çıxarmışdır. **Digər tərəfdən xüsusilə qeyd etmək lazımdır ki, DQMV ərazisində də 1989-cu il əhali sayımı qüsurlu aparılmış və erməni əhalisinin xeyrinə saxtakarlığa yol verilmişdir (bax: cədvəl 14).**

*Cədvəl 14*

**DQMV əhalisinin milli tərkibi (1989-cu il)**

| milliyyətlər | rəsmi rəqəmlər | | hesablanmış rəqəmlər | |
|---|---|---|---|---|
| | min nəfər | % | min nəfər | % |
| azərbaycanlılar | 40,7 | 21,5 | 49 | 26,2 |
| ermənilər | 145,5 | 76,9 | 135 | 72,2 |
| başqaları | 2,9 | 1,5 | 3 | 1,6 |
| **bütün əhali** | **189,1** | **100** | **187** | **100** |

DQMV əhalisinin milli tərkibi haqqında 1970, 1979 və 1989-cu illərin əhali sayımı məlumatlarını müqayisəli şəkildə araşdırarkən ən bəsit hesablamalar da bu fikrin doğru olduğunu və 1989-cu ilin rəsmi rəqəmlərinin heç bir demoqrafik məntiqə sığmadığını göstərir. Məsələn: əgər DQMV-də ermənilərin sayı 1970-1979-cu illər ərzində cəmi 1,9 min nəfər və ya 1,6% artmışdırsa, 1979-1989-cu illər ərzində birdən birə 22,4 min nəfər və ya 18,2% artmışdı. Əksinə, azərbaycanlıların sayı 1970-1979-cu illərdə ermənilərə nisbətən 5 dəfə çox, yəni 10 min nəfər və ya 36,8% artmışdısa, 1979-1989-cu illərdə ermənilərə nisbətən 6,4 dəfə az, yəni cəmi 3,5 min nəfər və ya 9,4%

artmışdı. 1979-1988-ci illəri əhatə edən dövrdə illər üzrə DQMV-də əhalinin təbii və mexaniki hərəkəti və başqa etno-demoqrafik statistik məlumatlar əsasında apardığımız hesabalamalara görə əldə etdiyimiz nəticələr isə əslində fərqli bir mənzərənin olduğundan xəbər verir. Bu nəticələri 1989-cu il əhali sayımı materialları ilə tutuşdurduqda ermənilərin sayının xeyli şişirdilmiş olduğu, azərbaycanlıların sayının isə əksinə, gözlənildiyindən xeyli az olduğu üzə çıxır. Xatırladaq ki, 1989-cu ilin yanvarında keçirilən əhali sayımı zamanı DQMV-də erməni əhalisinin siyahıya alınması Azərbaycan rəsmilərinin nəzarəti olmadan, erməni məmurlarının özləri tərəfindən aparılmışdır. Öz növbəsində vilayətin azərbaycanlı əhalisinin siyahıya alınması Azərbaycan tərəfinin məmurları tərəfindən aparılmışdı. Ancaq erməni yaraqlılarının təhdidləri və törətdiyi çətinliklər üzündən bir çox azərbaycanlı kəndlərində əhali sayımı ekstremal şəraitdə aparılmış və görünür elə buna görə də azərbaycanlıların xeyli hissəsi sayıma cəlb edilməmiş qalmışdır. Nəticədə formal olaraq DQMV əhalisinin milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1979-cu ilə nisbətən olduqca aşağı düşmüş, ermənilərin xüsusi çəkisi isə əksinə, daha da yüksəlmişdir. Halbuki onillər boyu erməni gənclərin DQMV-dən intensiv miqrasiyası nəticəsində demoqrafik qocalmaya məruz qalmış erməni əhalisinin təbii artımı bütün dövrlərdə, o cümlədən 1980-ci illərdə

azərbaycanlılardan qat-qat geri qalmış və buna görə də vilayətin milli tərkibində onların xüsusi çəkisi durmadan azalmışdı.

Erməni separatizminə xidmət edən bu etnostatistik saxtakarlıqlar DQMV əhalisinin milli tərkibi haqqında yanlış təsəvvür yaratsa da, bütövlükdə Azərbaycan üzrə əhalinin milli tərkibi haqqındakı 1989-cu il əhali sayımının rəsmi göstəricilərinə çox cüzi təsir göstərmişdir. Ancaq 200 min nəfər azərbaycanlı qaçqının 85 min nəfərinin Ermənistanın daimi əhalisi kimi qeydə alınması, qalan hissəsinin isə ümümiyyətlə sayımdan kənarda qalması, eləcə də Azərbaycanı həmişəlik tərk edib gedən erməni miqrantların Azərbaycanın daimi əhalisi kimi qeydə alınması Azərbaycanın, xüsusilə də Ermənistanın milli tərkibində bir il ərzində (1988-ci ildə) baş verən dəyişiklikləri ört-basdır etmiş və rəsmi rəqəmlərin reallıqdan xeyli uzaqlaşmasına gətirib çıxarmışdır.

Bütün yuxarıda qeyd olunanları hesaba almaqla sonda bu nəticəyə gəlmək olur ki, əslində 1989-cu ilin əvvəlinə Azərbaycanda azərbaycanlıların sayı 8 saylı cədvəldə göstərildiyi kimi 5805 min nəfər deyil, 6 milyon nəfərdən çox olmuşdur; həmçinin ermənilərin sayı 390,5 min nəfər deyil, təxminən 240 min nəfər olmuşdur. Uyğun olaraq 1989-cu ilin əvvəlinə Azərbaycan əhalisnin milli tərkibində azərbaycanlıların xüsusi çəkisi rəsmi statistikada göstərildiyi kimi 82,7% deyil, 85% olmuş, ermənilərin

xüsusi çəkisi isə 5,6% deyil, 3,4% olmuşdur. Eynilə göstərək ki, Ermənistan əhalisinin milli tərkibində 1989-cu ilin əvvəlinə ermənilərin xüsusi çəkisi rəsmi statistikada göstərilən 93,3%-ə qarşı 95,6%, azərbaycanlıların xüsusi çəkisi isə 2,6%-ə qarşı 0,1% olmuşdur.

Bütövlükdə 1979-1989-cu illər sayımları arası dövrdə Azərbaycanın etnodemoqrafik durumunda baş verənləri qısaca belə dəyərləndirmək olar: bu onillik dövrdə miqrasiya axınının dəfələrcə çoxalması, bunun təsiri ilə demoqrafik proseslərdəki etnik fərqlərin əvvəlki dövrlərə nisbətən daha da artması və 1988-ci ildə baş verən etnik çaxnaşmalar Azərbaycan ictimaiyyətinin siyasi iradəsindən asılı olmayaraq, əhalinin milli tərkibində azərbaycanlıların xüsusi çəkisinin daha böyük nisbətlə yüksəlməsinə səbəb oldu. Nəticədə Azərbaycan yerli aparıcı etnosun öz respublikasının milli tərkibində xüsusi çəkisinin səviyyəsinə görə SSRİ-nin müttəfiq respublikaları arasında Ermənistandan sonra 2-ci oldu (bax: cədvəl 15).

Cədvəldən göründüyü kimi 1979-cu ildə Azərbaycan bu göstəriciyə görə 5-ci respublika idi. Bu dövrdə (1979-1989) Azərbaycan əhalisinin milli tərkibində bir sıra başqa xarakterik dəyişikliklər də olmuşdur. Onların arasında ən başlıcası bir çox etnik azlıqların əhalinin milli tərkibində xüsusi çəkisinin kəskin artmasıdır. Bu da onunla izah olunur ki, onların sayının nisbi artımı azərbaycanlılarla mü-

*Cədvəl 15.*[62]

**Müttəfiq respublikalar üzrə əhalinin milli tərkibində yerli aparıcı etnosun xüsusi çəkisi (%-lə)**

| | 1979 il | 1989 il |
|---|---|---|
| 1. Ermənistan (ermənilər) | 89,7 | 93,3 (95,6)* |
| 2. Azərbaycan (azərbaycanlılar) | 78,1 | 82,7 (85,0)* |
| 3. Rusiya (ruslar) | 82,6 | 81,5 |
| 4. Litva (litvalılıar) | 80,0 | 79,6 |
| 5. Belorusiya (beloruslar) | 79,4 | 77,9 |
| 6. Ukrayna (ukraynalılar) | 73,6 | 72,7 |
| 7. Türkmənistan (türkmənlər) | 68,4 | 72,0 |
| 8. Özbəkistan (özbəklər) | 68,7 | 71,4 |
| 9. Gürcüçtan (gürcülər) | 68,8 | 70,1 |
| 10. Moldova (moldovlar) | 63,9 | 64,5 |
| 11. Tacikistan (taciklər) | 58,8 | 62,3 |
| 12. Estoniya (estonlar) | 64,7 | 61,5 |
| 13. Qırğızıstan (qırğızlar) | 47,9 | 52,4 |
| 14. Latviya (latışlar) | 53,7 | 52,0 |
| 15. Qazaxıstan (qazaxlar) | 36,0 | 39,7 |

qayisədə olduqca yüksək olmuşdur. Məsələn, bu on ildə kürdlərin sayı 2,1 dəfə, Axıska türklərinin sayı 2,2 dəfə, saxurların sayı 56% və belorusların sayı 63% artmışdır.

---

[62] Население СССР 1987, «Финансы и статистика», Москва 1988, səh.101-106; «Вестник статистики», 1991, № 1-2

* Mötərizədə bizim hesablamalara görə əldə etdiyimiz rəqəmlər göstərilmişdir.

Ancaq bu etnik azlıqların belə sıçrayışlı artımı heç də təbii artımın yüksək olması və ya mexaniki artımla bağlı olmamışdır. İş burasındadır ki, 1980-ci illərin sonlarında vüsət alan və bütün SSRİ-ni bürümüş milli dirçəliş hərəkatlarının təsiri altında insanların etnik kimlik düşüncəsinin səviyyəsi olduqca yüksəlmişdi. Bunun nəticəsi olaraq 1989-cu il əhali sayımı zamanı respondentlər pasportlarındakı milliyyət sətirində nə yazıldığından asılı olmayaraq öz etnik mənsubiyyətlərini əsl aid olduğu milliyyətin nümayəndəsi kimi və ya özlərinin dərk və qəbul etdiyi kimi qeydə aldırmışlar. Məsələn, Axıska türklərinin sayının bu dövrdə 2,2 dəfə artması onların əksəriyyətinin pasportlarında milliyyətlərinin azərbaycanlı kimi göstərilməsi və buna görə də əvvəlki əhali sayımlarında çoxlarının azərbaycanlı kimi qeydə alınması ilə bağlı idisə, ukraynalıların, xüsusilə də belorusların sayının kəskin artımı onların xeyli hissəsinin əvvəlki əhali sayımlarında rus kimi qeydə alınmaları ilə bağlı idi. Əslində isə ukraynalılar, beloruslar və bəzi başqa rusdilli qruplar demoqrafik davranışlarına görə ruslardan fərqli olmamış və daim ruslarla assimilyasiyaya uğradıqları üçün onların sayının dinamikası həmişə ruslardan geri qalmışdır. Axıska türkləri haqqında onu da xatırladaq ki, 1989-cu ildə onların soydaşlarının Özbəkistandan qaçqın düşmüş 40 min nəfərlik bir qrupunun Azərbaycan tərəfindən qəbul edilməsi və burada məskunlaşdırılması 1989-cu il əhali sayımı

keçirilən tarixdən sonrakı yaxın dövrdə baş vermişdi. Beləliklə sonrakı aylarda onların sayı mexaniki artım hesabına daha çox artmış və 1990-cı ilin əvvəlinə 60 min nəfərə çatmışdı.

Diqqəti çəkən çəhətlərdən biri də 1989-cu il əhali sayımında talışların öz etnonimi ilə siyahıya alınmasıdır. Belə ki, Moskvanın yeritdiyi milli siyasətində edilən düzəlişlərə uyğun olaraq əhali sayımında ayrıca etnos kimi qeydə alınan SSRİ milliyyətləri siyahısına talışlar və daha dörd milliyət əlavə edildi. Bu dörd milliyyət Latviyada yaşayan və həmişə latış kimi qeydə alınan livlərdən (sayı cəmi 226 nəfər olmuşdur) və Sibirdə yaşayan çuvan (1511 nəfər), en (209 nəfər) və orok (190 nəfər) adlı azsaylı etnik qruplardan ibarət idi. Bizim fikrimizcə, talışlardan fərqli olaraq sayları yüz nəfərlərlə ölçülən bu etnik qrupların milliyyətlər siyahısına daxil edilməsi simvolik xarakter daşıyırdı. Halbuki keçmiş SSRİ ərazisində, o cümlədən Azərbaycanda indi də öz dillərini və digər etnik özəlliklərini qoruyub saxlamış və sayı minlərlə, hətta yüzminlərlə olan onlarla xalq vardır. 1930-cu illərin sonlarında aparılan «yuvarlaqlaşdırma» siyasəti nəticəsində həmin xalqlar və etnik qruplar nisbətən iri etnoslara aid edilərək milliyətlər siyahısından çıxardılmışdı. Şübhəsiz ki, hər bir xalqın öz etnonimi ilə tanınması onların milli hüquqlarının qorunmasının əsas şərti olmaqla yanaşı, ölkədə milli münasibətlərin ədalətlə tənzimlənməsinə,

bəzən də cəmiyyətdə kök salmış digər problemlərin həllinə kömək etmiş olardı. Məsələn, qeyd edək ki, Zaqatala, Qax və Balakən rayonlarında yaşayan və ən azı 10 min nəfər sayı olan ingiloyların bir hissəsi azərbaycanlı kimi; digər hissəsi isə gürcü millətçilərinin uzun illər apardığı təbliğat nəticəsində özlərini gürcü kimi qeydə aldırmaqdadırlar. Halbuki onlar rəsmən öz ingiloy adları ilə tanınsaydılar bu gülməli və təzadlı qeyri-müəyyənlikdən xilas olardılar. Və yaxud Azərbaycanda sayları minlərlə olan (bəlkə də on minlərlə) qaraçıları misal göstərmək olar. Azərbaycanda rəsmən azərbaycanlı kimi qeydə alınan, başqa ölkələrdə isə öz etnonimləri ilə tanınan (məsələn, Rusiyada – siqan, Türkiyədə – çingənə və s.) və dünyanın hər yerində kök salmış bu hind mənşəli etnos heç bir xalqla qaynayıb qarışmamışdır. **Azərbaycanda tarixən anti-sanitar yaşayış tərzi ilə tanınan və görünür elə buna görə də «qaraçı» kimi adlanan bu etnosun ənənəvi məşquliyyəti insanların mərhəmətindən faydalanmaqla dilənçilik və fala baxmaqla cəmiyyəti istismar etməkdən ibarətdir. Ona görə də bizim fikrimizcə qaraçıların Azərbaycanda da öz etnik mənsubiyyəti ilə tanınması onların tufeyli anti-sanitar həyat tərzinin ictimaiyyət tərəfindən məhz qaraçılara xas olan etnik xüsusiyyət kimi qəbul edilməsinə, qınaq obyektinə çevrilməsinə və beləliklə də onların cəmiyyətə ziyan gətirən və pis nümunə kimi**

**yayıla bilən belə həyat tərzindən çəkindirilməsinə təkan verərdi.**

Bir sözlə, sayından asılı olmayaraq hər bir etnosun öz adi ilə və özü kimi tanınması bütün mənalarda müsbət dəyərləndirilməlidir. Ancaq bizcə, Moskva siyasilərinin məhz talışların öz etnonimi ilə tanınmasına göstəriş verməsi heç də onlara göstərilən qayğıdan irəli gəlmirdi. Sadəcə olaraq, Moskva qədim dövrlərdən sınaqdan çıxmış «Parçala, hökm sür!» siyasətini işə salaraq Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Azərbaycanda sonrakı illərdə gedən siyasi proseslər də bu fikri bir daha təsdiq etdi. Bununla yanaşı qeyd edək ki, 1989-cu il sayımında, 13 saylı cədvəldən göründüyü kimi cəmi 21,2 min nəfər özünü «talış» kimi qeydə aldırmışdı. Talışların əksəriyyəti isə ənənəvi olaraq özlərini azərbaycanlı kimi qeydə aldırmışdılar.

Azərbaycan əhalisinin etnik tərkibində gedən dəyişiklikləri öyrənmək üçün müəyyən etdiyimiz **sonrakı xronoloji dövr 1989 və 1999-cu illərdə keçirilən əhali sayımları arasındakı 10 illik dövrü əhatə edir.** Yuxarıda deyildiyi kimi bu dövr Azərbaycanın 1991-ci ildə müstəqillik qazanaraq dünyanın siyasi xəritəsində yer alması kimi şərəfli bir tarixi hadisənin təsadüf etdiyi bir dövrdür. Eyni zamanda bu dövr Azərbaycanın hərbi aqressiyaya və siyasi çalxantılara məruz qaldığı, sosial-iqtisadi böhranlarla üzləşdiyi və qanlı faciələrlə yadda

qalan bir dövrdür. Təbii ki, bütün bunlar Azərbaycanda əhalinin həyat səviyyəsinin sürətlə aşağı düşməsinə və bir çox problemlərin yaranmasına, o cümlədən milli münasibətlərin kəskinləşməsinə səbəb oldu. Bu isə öz növbəsində bu dövrdə demoqrafik proseslərin gedişatında və əhalinin etnik tərkibində daha kəskin və dinamik dəyişikliklərin baş verməsinə gətirib çıxartdı.

Öncə qeyd edək ki, 1989-cu ilin sonlarından başlayaraq Qarabağ bölgəsində erməni silahlı dəstələri ilə azərbaycanlılar arasında hərbi toqquşmaların intensivləşməsi azərbaycanlılar və ermənilər arasında milli münasibətlərin son dərəcə kəskinləşməsinə səbəb oldu. Bundan yararlanmaqla Azərbaycanda xalq hərəkatının yatızdırılmasına çalışan Qorbaçov hökuməti 1990-cı il yanvar ayının ortalarında Sumqayıt provokasiyasına bənzər hadisələrin Bakıda da törədilməsinə nail oldu və Bakıya qoşun yeridərək dinc əhalini güllə-baran etdi. Nəticədə yüzlərlə insan Sovet imperiyasına qarşı əliyalın direniş göstərərək şəhid oldu. Eyni zamanda bu hadisələr Bakıda, Gəncədə və başqa yerlərdə azlıqda yaşayan ermənilərin əksəriyyətinin Azərbaycanı tərk etməsi ilə nəticələndi. Beləliklə, Azərbaycanda yaşayan erməni əhalisinin sayı kəskin şəkildə azaldı. Artıq Azərbaycanın erməni əhalisinin sayı təxminən 160 min nəfər olmaqla əsasən DQMV, keçmiş Şaumyan rayonu və Xanlar rayonunun bir neçə kəndində yaşayan ermənilər təşkil edirdi.

Həmin günlərdə Moskvanın anti-Azərbaycan təbliğatına aldanan və Azərbaycan xalqının Rusiyaya qarşı hiddətindən təşvişə düşən Bakılı ruslar və onlara yaxın olan rusdilli etnik qrupların nümayəndələri arasında da Azərbaycanı tərk edib Rusiyaya gedənlər oldu. 1991-ci ildə SSRİ-nin dağılması və bütün müttəfiq Sovet respublikalarının, o cümlədən Azərbaycanın milli istiqla-liyyətlərini elan etməsi də həmin dövlətlərdə yaşayan rus əhalisi və onlara yaxın olan rusdilli əhali tərəfindən birmənalı qarşılanmadı və onlar arasında Rusiyaya miqrasiya edənlərin kəskin şəkildə artmasına səbəb oldu. Eyni zamanda SSRİ-nin dağılması Qarabağ müharibəsinin şiddətlənməsi ilə müşayiət olundu. DQMV-də azərbaycanlı kəndləri bir-birinin ardınca erməni təcavüzünə məruz qaldı. Beləliklə on minlərlə azərbaycanlı artıq öz ölkələri daxilində qaçqın vəziyyətinə düşürdü. Bu ərəfədə Ermənistanda Nüvədi kəndində yaşayan sonuncu azərbay-canlılar da ev-eşiklərini tərk edərək qaçqınlar cərgəsinə qoşuldular. 1992-ci il 26 fevral tarixində isə erməni quldurları Xankəndidə yerləşən rus polku ilə birlikdə Xocalı şəhərinin əhalisinə qarşı soyqırım aksiyasını törətdilər (bax:səh.41). Onlar bir gecədə yaşından və cinsindən asılı olmayaraq, minə yaxın insanı azərbaycanlı olduğuna görə qətl edərək misli görünməmiş anti-bəşəri bir cinayətə imza atdılar. Çox keçmədi ki, ermənilər Şuşa şəhərini də işğal etdilər və bununla da DQMV-də yaşayan

50 min nəfər azərbaycanlı əhalisi bütünlüklə bu ərazidən qovulmuş oldu.

Ermənistanın və bəzən də Azərbaycanın üstünlüyü ilə davam edən və on minlərlə insanın ölümü ilə müşayiət olunan Qarabağ müharibəsi 1994-cu ildə qarşılıqlı atəşkəs razılaşması ilə dayandırıldı. Sonunda bu müharibə Azərbaycanın daha 5 inzibati rayonunun tamamilə və 2 rayonunun böyük hissəsinin erməni işğalçıları tərəfindən zəbt olunması ilə nəticələndi. Eyni zamanda Sədərək və Qazax rayonlarının da bir neçə kəndi işğal olundu. Qaldı ki, Azərbaycan tərəfi də bu müharibədə keçmiş Şaumyan rayonu və Xanlar rayonunun cənub hissəsini erməni separatçılarından azad edərək bu ərazilərdə öz hakimiyyətini sonadək qoruya bildi. Bu bölgənin 20 min nəfərdən çox sayı olan erməni əhalisi isə Azərbaycan hakimiyyətini qəbul etməyərək buranı tərk etdi. Bütövlükdə isə DQMV və onun öz ərazisini 2 dəfə aşan digər Azərbaycan torpaqları Ermənistanın işğalı altında qaldı. İşğal olunmuş bu bölgələrdə və təmas xəttinə yaxın olan yaşayış məntəqələrində yaşayan yüz minlərlə əhali isə daimi yaşayış yerlərini tərk etməyə məcbur oldu və köçkün vəziyyətinə düşdü. Beləliklə, Azərbaycanda yaşayan qaçqın əhalisinin sayı 900 min nəfərə qədər yüksəldi. **Qeyd edək ki, hal-hazırda dünyada Azərbaycandan başqa əhalisinin 10%-dən çoxunun qaçqın olduğu ikinci bir ölkə yoxdur.**

Birdən birə bu qədər insanın ömrü boyu əldə etdiyi yaşayış vasitələrindən məhrum olması, vərdiş etdiyi ekoloji çevrədən və həyat tərzindən qopması və başqa maddi-mənəvi zərbələrə məruz qalması şübhəsiz ki, onlar arasında demoqrafik göstəricilərin də kəskin şəkildə pisləşməsinə səbəb oldu. Belə ki, son vaxtlaradək əksəriyyətinin çadır şəhərciklərində yaşadığı qaçqınların yaşlı hissəsi arasında ölüm yüksəldi, yeni ailələrin qurulması tormozlandı və doğum kəskin aşağı düşdü. Eyni zamanda bu qədər əhali resursunun Azərbaycan üçün iqtisadi yükə çevrilməsi və böyük bir ərazinin işğal altında qalması ölkənin iqtisadi potensialının olduqca zəifləməsinə səbəb oldu. Digər tərəfdən SSRİ-nin dağılması və sosialist sistemindən azad bazar iqtisadiyyatına keçidlə bağlı olaraq keçmiş iqtisadi və ticari əlaqələrin pozulması, Azərbaycanın qapalı bir bölgə halından çıxaraq dövlətçilik təcrübəsi olmadan müstəqil dövlət kimi dünyaya açılması, öz iqtisadiyyatını dünya standartlarına uyğunlaşdırmaq məcburiyyətində qalması və siyasi hakimiyyət uğrunda baş verən ölkə daxili çaxnaşmalar inflyasiyanın sıçrayışla artmasına və iqtisadiyyatın çökməsinə səbəb oldu. Nəticədə müəssisələr bir-birinin ardınca iflasa uğrayır və yüz minlərlə insan işsiz qalırdı. Uyğun olaraq əhalinin rifah səviyyəsi də sürətlə geriləməkdə idi. 1997-ci ilə qədər davam edən bu geriləmənin nəticəsində yüz minlərlə Azərbaycan vətəndaşı qazanc dalınca başqa ölkələrə, başlıca olaraq Rusiyaya

emiqrasiya etdi. Qarabağ müharibəsi illərində Azərbaycanı fərari kimi tərk edib qaçanlar da az deyildi. Başlanğıcda ölkəsini müvəqqəti olaraq tərk etmək niyyətində olan miqrantların bir çoxu yeni yaşayış yerlərində adaptasiya olduqdan sonra nəinki geri dönmürdülər, üstəlik öz ailələrini də çəkib yanlarına aparır, hətta digər qohum-qardaşlarını və tanışlarını da emiqrasiya etməyə sövq edirdilər.

Beləcə, həmin dövrdə miqrasiya axını olduqca böyük miqyas aldı və Azərbaycanda əhalinin sayı azalmağa başladı. Ancaq 1999-cu il əhali sayımında emiqrasiyada olan əhalinin böyük əksəriyyəti Azərbaycanın daimi əhalisi kimi qeydə alındığı üçün statistik materiallarda bu azalma öz əksini tapmamışdır və 1989-1999-cu illərdə əhali nəinki azalmış, əksinə 932,2 min nəfər və ya 13,3% artmışdır. Hərçənd ki, emiqrasiyada yaşayan azərbaycanlıların bir çoxu artıq yaşadıqları ölkələrin vətəndaşları olmuşlar. Qeyd edək ki, qeyri-rəsmi məlumatlara görə 2002-ci ilin sonunda Rusiyada keçirilmiş əhali sayımında bu ölkənin sakinləri kimi siyahıya alınmış azərbaycanlıların sayı 2.160 min nəfər olmuşdur. Rusiyanın Dövlət Statistika Komitəsinin 2002-ci il əhali sayımı haqqındakı rəsmi məlumatlarında isə azərbaycanlıların sayı 621 min nəfər göstərilmişdir[63]. Ancaq nəzərə almaq lazımdır ki, bu əhali sayımında ilk dəfə olaraq hər kəsə öz milliyətini istədiyi kimi göstər-

[63] bax: www.gks.ru/PEREPIS/t5.htm

məsinə tam sərbəstlik verilmişdir. Bu da Rusiyada milli azlıq nümayəndələrinin arasında bir çoxunun özlərini rus kimi, yəni yaşadığı ölkənin titullu millətinin nümayəndəsi kimi göstərməsinə səbəb olmuşdur. Hətta, 283 min nəfər rus dilini bilmədiyini etiraf etsə də, özünü rus kimi qeydə aldırmışdır. Bundan başqa, öz milli mənsubiyyətini göstərmək istəməyənlərə də sərbəstlik verilmiş və onların sayım vərəqələrində milliyət sətiri boş buraxılmışdır. Belə şəxslərin sayının 1.458 min nəfər olduğu göstərilir. Yəni hər yüz nəfərdən biri öz milli mənsubiyyətini rəsmən qeydə aldırmaqdan imtina etmişdir. Şübhəsiz ki, bu faktlar Rusiyada milli ayrı-seçkilik siyasətinin geniş yer almasından xəbər verir. Və inamla ehtimal etmək olar ki, milli mənsubiyyətini göstərməyən və ya rus kimi göstərənlərin əksəriyyətini məhz azərbaycanlılar təşkil edir. Belə ki, məlum olduğu kimi Rusiyada milli ayrı-seçkilik siyasəti, mənfi stereotip kimi vurğulanmaqda olan məşhur «Qafqaz milliyətindən olan şəxs» tezisi ilə başlıca olaraq azərbaycanlılara qarşı aparılmaqdadır.

Miqrasiya axınları və demoqrafik durumun pisləşməsi dolayısı ilə bu dövrdə Azərbaycanın milli tərkibinin dəyişməsinə güclü təsir göstərmişdir. Çünki yuxarıda göstərdiyimiz mənfi proseslər obyektiv səbəblər üzündən əsas milli azlıqların sayının azalmasına daha kəskin təsir göstərmişdir. Məsələn, 16 saylı cədvəldən göründüyü kimi 1999-cu ildə rusların sayı 141,7 min nəfər olmuşdur ki, bu

*Cədvəl 16.*[64]

## Azərbaycan Respublikasında əhalinin milli tərkibi (1999 və 2009-cu illərin əhali sayımlarına görə)

| milliyyətlər | 1999-cu il | | 2009-cu il | |
|---|---|---|---|---|
| | min nəfər | % | min nəfər | % |
| azərbaycanlılar | 7205,5 | 90,6 | 8172,8 | 91,6 |
| ləzgilər | 178,0 | 2,24 | 180,3 | 2,02 |
| ermənilər | 120,7 | 1,52 | 120,3 | 1,35 |
| ruslar | 141,7 | 1,78 | 119,3 | 1,34 |
| talışlar | 76,8 | 0,97 | 112,0 | 1,26 |
| avarlar | 50,9 | 0,64 | 49,8 | 0,56 |
| türklər | 43,4 | 0,55 | 38,0 | 0,43 |
| tatarlar | 30,0 | 0,38 | 26,0 | 0,29 |
| tatlar | 10,9 | 0,14 | 25,2 | 0,28 |
| ukraynalılar | 29,0 | 0,36 | 21,5 | 0,24 |
| saxurlar | 15,9 | 0,2 | 12,3 | 0,14 |
| gürcülər | 14,9 | 0,19 | 9,9 | 0,11 |
| yəhudilər | 8,9 | 0,11 | 9,1 | 0,1 |
| kürdlər | 13,1 | 0,16 | 6,2 | 0,07 |
| udilər | 4,2 | 0,05 | 3,8 | 0,04 |
| başqa milliyətlər | 9,5 | 0,12 | 16,0 | 0,18 |
| **bütün əhali** | **7953,4** | **100** | **8922,4** | **100** |

[64]Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il, IV hissə, Bakı – 2000; Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il, 19-cu cild, Bakı-2011, s.11

da 1989-cu ildə olduğundan 2,8 dəfə az idi. Yaxın keçmişdə sayca Azərbaycanın əsas milli azlıqları olan ruslar və ermənilər birlikdə 1999-cu ildə əhalinin cəmi 3,3%-ni təşkil edirdilər. Xatırladaq ki, 1989-cu ildə onlar əhalinin onda birini, 1979-cu ildə isə altıda birini təşkil edirdilər.

1989-1999-cu illər sayımlar arası dövrdə nisbi olaraq sayı ən çox azalan milli azlıq isə yəhudilər olmuşdur. Onların sayı bu dövrdə 3,5 dəfə azalmışdır ki, bu da yəhudilərin İsrail dövlətinin repatriasiya («vətənə dönüş») siyasətinə uyğun olaraq kütləvi şəkildə İsrail dövlətinə miqrasiya etmələri ilə izah edilir. Məsələ burasındadır ki, Sovet dövründən fərqli olaraq, yəhudilərin repatriasiyasına heç bir əngəl törədilmir və onlar İsrail dövlətində, eləcə də bir sıra yüksək inkişaf etmiş qərb ölkələrində (xüsusilə ABŞ-da) məskunlaşmaq üçün uyğun şəraitlə təmin edilməkdədirlər.

Bu dövrdə əhalinin milli tərkibində diqqəti çəkən dəyişikliklərdən biri də talışların sayının kəskin şəkildə artmasıdır. Daha doğrusu özlərini talış kimi qeydə aldıranların sayının kəskin artmasıdır. Belə ki, 1999-cu ildə özlərini talış kimi qeydə aldıranların sayı 1989-cu ilə nisbətən 3,6 dəfə artaraq 76,8 min nəfər olmuşdur. Bizim fikrimizcə bu yüksək artıma baxmayaraq hələ də etnik talışların böyük əksəriyyəti özlərini ənənəvi olaraq azərbaycanlı kimi qeydə aldırmışlar. Başqa sözlə millət olaraq özlərini birinci növbədə azərbaycanlı kimi dərk edən etnik

talışların sayı daha çox olmuşdur. Məsələn, qeyd edək ki, 1999-cu il sayımında hətta ana dilinin talış dili olduğunu göstərən 17,7 min nəfər milli mənsubiyyətini azərbaycanlı kimi qeydə aldırmışdır. Bundan başqa 103,8 min nəfər azərbaycanlı kimi qeydə alınan əhali talış dilini bildiyini göstərmişdir.

Beləliklə, 1999-cu il sayımına görə talışların və talış dilinin daşıyıcısı olan digər əhalinin birlikdə sayı 198,3 min nəfər olmuşdur ki, bu da bütün Azərbaycan əhalisinin 2,5%-ni təşkil edirdi. Yəni, faktik olaraq etnik talışların Azərbaycanın sayca ən böyük etnik azlığı olduğu üzə çıxır. Digər etnik azlıqların sayının dinamikasında kəskin sıçrayışlar baş verməmişdir. Ona görə də əhalinin milli tərkibində onların xüsusi çəkisi ciddi dəyişikliklərə uğramamışdır.

**Sayımlar arası növbəti və sonuncu xronoloji dövr 1999-2009-cu illəri əhatə edir.** Bu onillik dövrdə əvvəlki sayımlar arası onillik dövrdən fərqli olaraq millətlər üzrə əhali artımında katastrofik fərqlər olmamışdır. Ancaq bununla yanaşı, yerli milliyyətlərlə digər milli azlıqlar arasındakı fərqlərin amplitudası yetərincə yüksək olmuşdur. Məsələn, talışların sayı 45,8% artdığı halda, rusların sayı 15,8% azalmışdır. Ən yüksək artım isə tatların sayında müşahidə edilmişdir. Belə ki, onların sayı bu 10 il ərzində 2,3 dəfə artmışdır. Əlbəttə ki, bu cür yüksək artım heç də təbii artımla və ya miqrasiya prosesləri ilə bağlı

olmamışdır. Bizim fikrimizcə sadəcə olaraq əvvəlki əhali sayımlarında özlərini azərbaycanlı kimi qeydə aldıran tatlar, eləcə də talışlar bu dəfə özlərinin aid olduqları milliyətlə qeydə alınmağa üstünlük vermişlər. Bəzi milliyətlərin sayının kəskin şəkildə azalması halları isə əksinə, onların özlərini azərbaycanlı kimi qeydə aldırmaları ilə izah oluna bilər. Bu dövrdə saylarının olduqca az artdığı və ya bir qədər azaldığı bəzi milli azlıqlar da olmuşdur ki, bu da əsasən onların azərbaycanlılarla assimilyasiyası ilə izah edilə bilər. O ki, qaldı rusların, ukraynalıların və onlara etno-mədəni yaxınlığı olan digər milli azlıqların sayının sürətlə azalmasına, bu, ilk növbədə onlar arasında təbii azalma ilə bağlıdır, yəni doğum səviyyəsinin olduqca aşağı olması ilə bağlıdır. Şüphəsiz ki, bəzi milli azlıqların sayının azalmasında onların başqa ölkələrə miqrasiyasının da müəyyən rolu olmuşdur. Ancaq qeyd etmək lazımdır ki, bütövlükdə bu dövrdə Azərbaycandan kənara miqrasiyanın səviyyəsi əvvəlki dövrlərlə müqayisədə olduqca aşağı olmuşdur. Hətta, başqa ölkələrdən (məsələn, Türkiyədən, İrandan, Pakistandan, Əfqanıstandan, Hindistandan və s.) Azərbaycana işləmək məqsədilə miqrasiya edənlər də olmuşdur. Çünki məhz, 2000-ci illərdə Azərbaycanda neft hasilatının və ixracatının sıçrayışla artması nəticəsində ölkənin milli gəliri dəfələrlə artmış, buna uyğun olaraq əhalinin gəlirləri də xeyli dərəcədə yüksəlmişdir.

Milli azlıqların sayının fərqli templərlə artması nəticəsində onlarin milli tərkibdəki xüsusi çəkiləri də uyğun şəkildə dəyişmişdir. Yerli avtoxton milliyyətlərdən fərqli olaraq, son iki yüz il ərzində Azərbaycanda məskən salan gəlmə milliyətlərin milli tərkibdəki xüsusi çəkiləri 1990-cı illərdə olduğu kimi 2000-ci illərdə də azalmağa davam etmişdir. Azərbaycanlıların əhalinin milli tərkibində xüsusi çəkisi isə bir qədər də yüksəlmişdir. Bütövlükdə bu dövr Azərbaycan əhalisinin milli tərkibində avtoxton etnik azlıqların xüsusi çəkisinin yüksəlməsi və ya stabilləşməsi ilə xarakterizə oluna bilər. Daha doğrusu 1828-1991-ci illər arası 163 illik Rusiya-Sovet hakimiyyəti dövründə imperiya rəhbərliyinin iradəsinə uyğun istiqamətdə gedən etnodemoqrafik proseslər sonrakı dövrdə Azərbaycanın siyasi hakimiyyətinin iradəsindən asılı olmayaraq tam əks istiqamətdə inkişaf etmişdir. Ancaq 1991-ci ildən sonrakı qısa dövr ərzində əhalinin milli tərkibində baş verən dəyişikliklər daha intensiv xarakter daşımış və hipertrofik miqyas almışdır. Ona görə də Azərbaycan Respublikasının indiki siyasi sərhədləri çərçivəsində əhalinin hal-hazırki milli tərkibi rus işğalı ərəfəsindəki milli tərkibə olduqca uyğundur. Bu, həm də o deməkdir ki, Azərbaycanda əhalinin monoetniklik səviyyəsi yetərincə yüksəlmişdir. 2009-cu ildə əhalinin milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 91,6%-ə çatmışdır. Bununla belə digər millətlərin nümayəndələri bütövlükdə kiçik xüsusi çəkiyə

malik olsalar da Azərbaycanın bəzi bölgələrində və rayonlarında əhalinin böyük bir hissəsini və ya əksəriyyətini təşkil edirlər. Bu hal əsasən yerli avtoxton etnoslara aiddir.

Son illərdə müsbət istiqamətdə stabilləşməkdə olan Azərbaycan iqtisadi həyatına əhalinin adaptasiya olması prosesi müşahidə olunmaqdadır ki, bu da öz növbəsində miqrasiya proseslərinin intensivliyinin olduqca aşağı düşməsinə səbəb olmuşdur. Digər tərəfdən dünyanın bütün bölgələrində olduğu kimi Azərbaycanda da əhalinin təbii artımının get-gedə aşağı düşməsi ilə bağlı olaraq etnik tərkiblə bağlı proseslərdə demoqrafik faktorun rolu da azalmaqdadır. Ona görə də fikrimizcə son 4-5 ildə Azərbaycan əhalisinin milli tərkibi demək olar ki, dəyişməz qalmışdır. Yaxın gələcəkdə də bu tendensiyanın davam etməsini ehtimal etmək olar.

Son olaraq qeyd edək ki, Azərbaycan müstəqil dövlət olduğu andan başlayaraq ölkə rəhbərliyi milli azlıqların milli-mədəni inkişafına xüsusi qayğı göstərməkdədir. Hal-hazırda Azərbaycanda milli azlıqların onlarla mədəniyyət mərkəzi və digər milli qurumları sərbəst fəaliyyət göstərməkdədir. Sovet dövründən fərqli olaraq ölkənin əsas milli azlıqlarının dillərində radio verilişləri təşkil olunmuş, hər bir dildə qəzet, jurnal və kitab nəşrinə şərait yaradılmışdır. Bir sözlə ölkənin milli azlıqlarının öz mədəniyyətlərini, dillərini və digər özəlliklərini qoruyub sax-

laması və inkişaf etdirməsi üçün bütün əngəllər qaldırılmış və hər cür hüquqi-praktik şərait təmin edilmişdir.